Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət
Pəşə Təhsil Mərkəzi

Azərbaycan Respublikası
Təhsil Nazirliyi

ELEKTRONİKA

Bakı 2019

MÜNDƏRİCAT

Modul 1: Elektrotexnikanın/Elektronikanın əsasları 3
1. Sadə lehim alətləri və lehimləmə dəmiri 4
2. Müxtəlif elektronik komponentlərin oxunması 20
3. Multitesterlə gərginliyin, cərəyan şiddətinin və müqavimətin ölçülməsi 39
4. Ossiloqraf və funksiya generator ilə siqnalların, gərginliklərin və tezliklərin ölçülməsi 57
5. Om qanunundan istifadə edərək gərginlik, cərəyan şiddəti və müqavimət arasındakı əlaqənin ölçülməsi 94
6. Rezistorun ardıcıl və paralel birləşdirilmiş dövrələrinin ölçülməsi 98
7. Multimetrlə Kirxhof qanununun yoxlanması 106
8. Multimetrlə superposiziya prinsipinin yoxlanması 111
9. R, L, C SC dövrələri ilə təcrübə 116
10. PN birləşməli/Zener diodunun əməliyyat xarakteristikasının ölçülməsi 137
11. Rektifikator dövrəsi ilə təcrübə 146
12. Gərginliyi stabilləşdirən dövrə ilə təcrübə 157
13. Tranzistorun əməliyyat xarakteristikaları ilə təcrübə 164
14. Tranzistorun torpaqlanmış gücləndirici dövrəsi ilə təcrübə 170
15. T-STT tranzistorun əməliyyat xarakteristikaları ilə təcrübə 179

Modul 2: Elektron dövrə 185
1. Dioddan istifadə etməklə təcrübə siqnal yaratma dövrəsi 186
2. Tranzistorun gücləndirmə dövrəsinin təcrübəsi 196
3. B kateqoriyalı güc gücləndiricisi dövrəsinin təcrübə xarakteristikası 205
4. OTL güc gücləndiricisi dövrəsinin təcrübə xarakteristikası 211
5. FET-in təcrübə xarakteristikası 217
6. FET tətbiq dövrəsinin təcrübə xarakteristikası 222
7. Multivibratorlu dövrənin təcrübə xarakteristikası 226
8. Multivibratorun tətbiq dövrəsinin yaradılması 236
9. IGBT-dən istifadə etməklə PWM (implus eninin modulyasiyası) dəyişdiricisi ilə təcrübə 239

Modul 3: Rəqəmsal dövrə 245
1. Əsas məntiqi element üzərində təcrübə 246
2. Bul cəbri və tətbiqi təcrübəsi 253
3. Qeyri-sabit multivibrator üzərində təcrübə 261
4. Monostabil multivibrator üzərində təcrübə 268

5. Toplayıcı dövrə üzərində təcrübə 273
6. Çıxarma dövrəsi üzərində təcrübə 279
7. Deşifrələyici/şifrələyici sxemi üzərində təcrübə 285
8. Multipleksor/demultipleksor sxemi üzərində təcrübə 295
9. Qrey - BCD kodu çevirmə sxemi üzərində təcrübə 301
10. Cütlük bitinin təyini sxemi üzərində təcrübə 308
11. 2 bitlik komparator sxemi üzərində təcrübə 314
12. 2n bit komparator sxemi ilə bağlı təcrübə 318
13. RS-FF triqqer sxemi ilə bağlı təcrübə 324
14. D-FF sxemi üzərində təcrübə 330
15. JK-FF triqqer sxemi ilə bağlı təcrübə 334
16. Sayğac sxemi üzərində təcrübə 339

Modul 4: Mikrokontroller 351
1. AVR seçimlərinin konfiqurasiyası 352
2. Giriş / Çıxış portları ilə LED -in idarə edilməsi 369
3. Fasilələrlə LED/açar/ traffik dövrələrinə nəzarət 375
4. Kəsilmədən istifadə edərək ÇRL (FND) dövrələrinə nəzarət 386
5. Ardıcıl birləşmədən istifadə etməklə xarici cihazlarla rabitə 394
6. Simvolların LCD-də nümayişi 404
7. RVS -dan istifadə edərək LCD-də vaxtın nümayişi 412
8. A/R (A/D) çevirməsindən istifadə edərək LCD-də nümayiş 423
9. Açardan istifadə etməklə addım mühərrikinin işə salınması 433
10. Açardan istifadə etməklə SC mühərrikinin işə salınması 443
11. Nöqtəli matrisin işə salınması 453

Sərişdə əsaslı modul

ELEKTRONİKA

Elektrotexnikanın/ Elektronikanın əsasları



Sənaye və İnnovasiyalar üzrə
Bakı Dövlət Peşə Təhsil Mərkəzi

1. Sadə lehim alətləri və lehimləmə dəmiri

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Alətin adını və istifadə qaydasını izah edə biləcək;
2. Lehimləmənin həddən artıq edilmədiyindən, kifayət qədər ekspozisiya olunduğundan və ya zədələnmədiyindən əmin olacaq.

Təcrübə materialları:
1. Tək naqil 0.3mm ~ 0.6 mm
2. Lehim : SN 60%
3. Universal ÇDS: 28×28

Avadanlıq və alətlər:
1. Elektronik alətlər
2. Lehimləmə dəmiri

Mövzu ilə əlaqəli biliklər

1. Təcrübənin ümumi anlayışı

1) Təcrübənin tərifi və məqsədi

Təcrübə elmi araşdırma metodlarından biridir və obyektə giriş siqnalını tətbiq etdikdən sonra süni şərtlər altında dəyişən bir hadisəni müşahidə etmə metodu kimi təsvir oluna bilər.

Təcrübənin məqsədi hər hansı bir qanunun və üsulun elmi əsasını başa düşmək, təcrübədən keçirməklə bacarıqlar əldə etmək və təcrübi metodlar vasitəsilə problemlərin həlli yoluna yanaşmaları inkişaf etdirməkdir.

Xüsusilə, elektrik, elektronika və telekommunikasiya sahələrindəki təcrübələr qanunların və əldə edilmiş bacarıqların prinsiplərini, şəklini, quruluşunu və xüsusiyyətlərini öyrənməyə yönəlib. Buraya həm də təcrübə protokollarının planlaşdırılması və təcrübə protokollarının hazırlanması vasitəsilə texniki protokolların və məqalələrin təşkili və yazılmasının öyrənilməsi daxildir. Bundan əlavə, iş haqqında düzgün qiymətləndirmənin, mövqenin və vərdişlərin təkmilləşdirilməsi vacibdir.

2) Əsas gedişat
1. Təcrübəyə başlamazdan əvvəl təcrübənin məqsədini, uyğun nəzəriyyəni, təcrübə prosedurunu, təhlükəsizliyi və ehtiyyat tədbirlərini nəzərə almalısınız.
2. Təcrübələr bir qrup insan tərəfindən aparıldıqda, onlar bir-biri ilə əməkdaşlıq etməlidirlər.
3. Təcrübə avadanlıqları ehtiyyatla idarə olunmalıdır və tutumu və istifadə aralığı xaricində istifadə edilməməlidir. Başqa sözlə, təcrübə avadanlığının əməliyyat prinsipi və təlimatı əvvəlcədən tam şəkildə başa düşülməlidir.
4. Təcrübə haqqında məlumatları, məsələn, nəzəriyyə, məqsəd, metod və nəticələri qeyd etməyi vərdiş edin. Bu məlumatlar təcrübə bitdikdən sonra təcrübənin nəticələrinin baxışı və analizi zamanı lazım olacaq.
5. Təcrübə bitdikdən sonra protokol hazırlamalı və təcrübə nəticələrinin təşkili və analizini qeyd

etməlisiniz.

6. Təcrübə nəticələrini qeyd edərkən, hansı vahiddən istifadə etdiyinizdən əmin olun. Xüsusi hallar istisna olmaqla, MKS vahidlər sistemindən istifadə edin.

3) Təcrübə zamanı təhlükəsizlik qaydaları

Təhlükəsizlik haqqında biliklər, bacarıqlar və yanaşmalar başa düşülməli, onlara digər texnologiyalardan istifadə olunduğu hallarda olduğu kimi riayət olunmalıdır və bu davranış təcrübə ilə formalaşa bilər.

Bununla əlaqədar laboratoriyada ümumi təhlükəsizlik qaydaları aşağıdakı kimidir.

1. Bütün tapşırıqları həyata keçirməzdən əvvəl, avadanlığın vəziyyətini yoxlayın.
2. İş bütün qurğular qaydaya salındıqdan sonra başlamalıdır. Əks halda naqilin qısa qapanması və elektrik şoku meydana gələ bilər.
3. Nəm döşəmədə elektriklə işləyərkən təmas müqavimətinin azalması səbəbilə elektrik sızması və elektrik şoku riski olduğu üçün ehtiyyatlı davranmalısınız.
4. Qurğunun iş prinsipi ilə tanış olmadığınız zaman toxunmayın.
5. İşləyərkən lüzumsuz danışıq və hərəkətlərə yol verməyin.
6. Heç bir şey tələsərək deyil, sakit şəkildə yerinə yetirilməlidir.
7. Baş vermiş hər hansı qəzanı dərhal məruzə edin.
8. Bütün avadanlıqlar ehtiyyatla istifadə olunmalıdır. İstifadədən sonra, onları yerinə qoyun və səliqə ilə saxlayın.

4) Təcrübə protokolunun hazırlanması

Təcrübə protokolunun tərtib olunmasının məqsədi laboratoriyada görülən işləri sənədləşdirmək, təcrübəyə tətbiq olunmuş prinsip və konseptləri hansı dərəcədə başa düşdüyünüzü göstərmək və texniki protokol yazma texnikasını inkişaf etdirməklə yaxşı təcrübə əldə etməkdir.

Təcrübə protokolunu yazmaq üçün qaydalar iki mərhələyə bölünür: hazırlıq protokolu və nəticə protokolu. Hazırlıq protokolu təcrübə ilə əlaqədar məzmunu öncədən izah və təsvir edir, nəzəriyyəyə fokuslanır və təcrübəyə başlamazdan əvvəl onun məzmununu təsdiq edir. Bundan əlavə, təcrübənin protokolu təcrübə üçün tələb olunan dövrə diaqramlarının qoşulması və quraşdırılmasına, ölçü metoduna, ölçü alətinin səlis əməliyyatına, təcrübənin gedişatına və təcrübənin məqsədinə əsasən daha dəqiq məlumat əldə etmək üçün hazırlanmalıdır.

Ümumiyyətlə, protokolun tərtib olunması üçün müxtəlif cür metodlar mövcuddur, lakin onlar, adətən, təcrübənin başlığı, təcrübənin məqsədi, metodu və gedişatı, təcrübənin nəticəsi, baxış-icmalı və ardıcıllığı ilə hazırlanır.

2. Əsas alətlərin növü və istifadəsi

Elektronla əlaqəli təcrübələr bir neçə kiçik elektronik komponentdən istifadə etməklə, təcrübi sxemdə, universal sxemdə və ya çap dövrə sxemində (ÇDS) dövrə formalaşdırmaqdan ibarətdir. Bu metodlar naqilin örtüyünün soyulması metodu, komponenti subtrata əlavə etməzdən əvvəl elektrik naqilinin əyilməsi metodu, elektrik naqilinin subtrata əlavə edilməsi metodu və lehimləmədən sonra elektrik naqilinin kəsilməsi metodu olaraq təsnifləşdirilə bilər. Bu zaman təcrübə üçün lazım olan əsas alətlərin tipləri, istifadəsi və işlənməsini bilmək ehtiyacı yaranır.

Şəkil 1: Elektronik təlim alətləri

Cədvəl 1: Müxtəlif alətlərin adları və istifadəsi

Tip	Forma	Məqsəd
İti ağız kəlbətin		Elektrik naqilinin əsas naqilini və ya onun hissələrini və ya naqilin örtüyünü çıxarmaq üçün istifadə olunur.
Uzun (iynə) burun kəlbətin		Naqilləri soymaq, hissələrin uclarını əymək və ya düzləşdirmək üçün iti ağız kəlbətinlə birlikdə istifadə olunur. Kiçik vintləri saxlamaq, qaykaları bərkitmək və ya boşaltmaq üçün istifadə olunur.
Vintaçan		Vintləri və ya boltları bərkitmək və ya boşaltmaq üçün istifadə olunur. Müsbət (+) və mənfi (-) tipləri mövcuddur və boltun ölçüsünə uyğun olaraq istifadə olunur.
Vintburan		Altıbucaqlı boltları və qaykaları bərkitmək və boşaltmaq üçün istifadə olunur. Boltun və qaykanın ölçüsünə uyğun olaraq istifadə olunur.
Vintaçan		Daha səmərəli iş məqsədilə fırlanan başlıqlı tipləri mövcuddur və kiçik ölçülü vintlərlə işləmək üçün uyğundur. Kiçik elektronik cihazları və onun hissələrini quraşdırarkən və ya təmir edərkən, tətbiq sahəsindən asılı olaraq müxtəlif formalı və ölçülü vintaçanlardan istifadə etmək olar.
Keramik tənzimləmə vintaçan		Uzun və nazik tutacaqla maqnitsiz materialdan hazırlanıb. Nizamlayıcının tənzimlənməsi və ya tezlik xüsusiyyətlərinə həssas olan hissələrdə daha kiçik miqyaslı nizamlamalar üçün istifadə olunur.

Lehimləmə dəmiri		Elektronik dövrələri quraşdırarkən vacib olan hissələri və naqilləri lövhəyə qoşmaq üçün qurğuşunu əridən alətdir. Ərimə nöqtəsi aşağı olan və müxtəlif metallarla bir sıra bənzərlikləri və əlaqəsi olan elektronik dövrələri meydana gətirmək üçün qurğuşundan istifadə olunur. Geniş istifadə olunun çubuq dəmirin 20 ~ 30 W həcmi var və həddən artıq qızmanın qarşısını alan keramik qızdırıcı da mövcuddur.
Lehimləmə dəmiri altlığı		Qızmış lehimləmə dəmirini yerləşdirmək üçün altlıqdır. Qızmış lehimləmə dəmiri polad yastıqcıqda saxlanmalıdır. Lehimləmə dəmirinin ucunu təmizləmək üçün aşağıda suda isladılmış istilik müqavimətinə malik süngərdən istifadə edin.
Lehimsökmə aləti		Qurğuşunu yanlış hissəyə lehimlədikdə, onu sorma qüvvəsi ilə kənarlaşdıra bilərsiniz. Qızmış lehimləmə dəmirinin ucuna həddən artıq qurğuşun yapışdıqda, onun sorma girişini zədələməsinə imkan verməyin.
Lehimləmə dəmirinin ucluq təmizləyicisi		Lehimləmə nəticəsində korlanmış lehimləmə dəmirinin ucluğunun təmizlənməsi üçün dəmir qırıntıları toplusudur. Onu təmizləmə çəninə qoyduqda və sürtdükdə, qalan lehim çirki təmizlənir.
Lehimləmə məcunu (Lehimləmə həlledicilər)		Lehimlənən sahədə pas və ya çirk olarsa, məcunu tətbiq etməklə və qızdırmaqla işləmək asanlaşır. Bununla belə, məcundan az-az istifadə edilməlidir, çünki o turşulu hissələrdən ibarətdir, buna görə də iş başa çatdıqdan sonra qalan məcunu silin.
İD ayırma aləti		İD-ləri (inteqral dövrə) İD patronlarına və ya təcrübi lövhələrə əlavə etmək və ya xaric etmək üçün istifadə olunur. İD kontaktlarını sıxmaq üçün əlinizi zədələyə biləcək İD sıxaclarından istifadə edin.
Naqil soyucu		Elektrik dövrə iki dövrə arasında elektrik yolla birləşdirilib, buna görə də naqili qoşmaq üçün onu soymalısınız. Bu əməliyyat soyma əməliyyatı adlanır. Naqilin qalınlığından asılı olaraq, onu uyğun bir oyuğa qoyun və soyma istiqamətində dartın.
Əllə cilalama dəsti		Məmulatın səthini cilalamaq üçün istifadə olunur. Qurğunun kiçik bir hissəsini əl ilə cilalamaq üçün istifadə olunan cilalama dəstidir.
Altıbucaqlı açar dəsti		Altıbucaqlı başlığı olan boltları bərkitmək və ya boşaltmaq üçün istifadə olunur. Millimetr (mm) və inç (inch) üçün.

Maqqaş		Kiçik hissəcikləri toplamaq və hərəkət etdirmək üçün alətlər. Ehtiyyatlı olun, çünki maqqaşın ucu iti və təhlükəlidir.
Terminal tutqacları		Naqillərin ucundakı terminalları asanlıqla birləşdirmək üçün istifadə olunan alətlərdir. Birləşdiriləcək terminala və tutqacla birləşdirmək üçün istifadə olunur.
Kombinasiyalı kəlbətin		Qalın naqilləri kəsmək və ya əymək üçün istifadə edilir. 150 mm, 175 mm və 200 mm elektrik konstruksiyalarda, 100mm isə elektronik dövrələr üçün istifadə edilir.
RJ-45 modulyar tutqac		RJ-45 başlığını UTP kabelinə qoşmaq üçün alət. Şəbəkə xətləri ilə işlədikdə şəbəkə aləti və kabel soyucu olaraq istifadə olunur.
Elektrik drel		Metal, taxta və s. üzərində dəlik açmaq üçün istifadə edilir. Çəkic drel, drel, üç funksiyalı, düz/əks çevirmə funksiyalı və avtomatik sürət nəzarəti funksiyalarına malik növləri mövcuddur.
Elektronik lehim		180 və 190 °C (360 və 370 °F; 450 və 460 K) arasında əriyən qalay geniş istifadə olunur. Elektrik və elektronik işləri üçün, lehim naqili əllə lehimləmə və həlledici tərkibli əsaslar üçün müxtəlif qalınlıqlarda mövcud olur. Əsasən, elektrik lehimləmə üçün istifadə olunan qalay 188 °C (370 °F) temperaturda əriyən 60/40 Sn-Pb olur. 63/37 Sn-Pb, əsasən, elektrik/elektronik işlərdə istifadə olunur.
Universal PSB tutacağı		Lehimləmə və ya təmir işləri apararkən müxtəlif növ PSB ları təmir etmək üçün istifadə olunur.

3. Lehimləmə metodu

Lehimləmə passiv komponentlər (rezistorlar, kondensatorlar, induktivlik çarxı və s.) və aktiv komponentlər (diodlar, tranzistorlar və inteqral sxemlər) kimi fərqli hissələri birləşdirmək üçün aparılan lehimləmə prosesidir. Bu proses qurğunun etibarlı işlədiyindən əmin olmaq üçün düzgün şəkildə lehimləmə və lazımi təcrübə tələb edir.

1) Lehimləmə alətlərinin tipləri və xüsusiyyətləri

(1) Lehimləmə dəmiri (və ya elektrik polad)

Lehimləmə dəmiri qurğuşunu əriyə biləcəyi temperatura qədər qızdırmaq üçün istifadə olunan alətdir. Ucluq enerji istehlakının şəklinə, ölçüsünə və istifadə təyinatına əsasən seçilir və istifadə edilir. Ümumiyyətlə, enerji istehlakı təxminən 30 və 40 [W] arası olan lehimləmə dəmirindən istifadə edin, elektronik qurğular və ya kompüter konfiqurasiyası dövrələrinin quraşdırılması və təmiri üçün diametri təxminən 4 və 5 [mm] arasında olan ucluq istifadə edilir. Şəkil 2-də göstərildiyi kimi, lehimləmə dəmirinin ümumi quruluşu tutacaq, ucluğu tənzimləyən vint, qızdırıcı, lehimləmə dəmirinin ucluğu və DC (sabit cərəyan) kabeli hissələrinə bölünür.

a. Temperatura nəzarət növü



b. Keramik qızdırıcı növü

c. Nixrom qızdırıcı növü

Şəkil 2: Lehimləmə dəmirinin quruluşu

- Lehimləmə dəmirinin ucluğunun nizamlanması

- Əgər lehimləmə dəmirinin ucluğunun temperaturu çox yüksək olarsa, lehimlənən səth öz parıltısını itirəcək və lövhə üzərindəki mis folqa ya töküləcək, ya da dağılacaq.

- Əgər lehimləmə dəmirinin ucluğunun temperaturu çox aşağı olarsa, o soyuq olacaq və hissələrin bir-birinə birləşməməsi ilə nəticələnəcək. Bu halda temperaturu yüksəltmək üçün lehimləmə dəmirinin ucluğu qısaldılmalıdır.

- Lehimləmə dəmirinin ucluğunun seçilməsi

- Adətən, ucluğun tipi I, B, C, D, K, H tiplərinə və ölçülərinə görə bölünür. Ümumiyyətlə, B tipli, I tipli və K tipli ucluqlar daha çox istifadə olunur.

- B tipli ucluğun istiqaməti olmadığı üçün, o böyük və kiçik səthlərdə geniş istifadə oluna bilər. I tipli ucluq B tipli ucluqla müqayisədə iti uclu və ya daha nazik və incə formalarda istifadə edilir. O, həmçinin, dar hissələrdə və ya kiçik ölçülü lehimləmələrdə istifadə olunur. K tipli ucluqla müstəvidə yerləşmiş xətt ilə işləmək mümkündür və uc hissədə nöqtə kimi istifadə oluna bilər.

Cədvəl 2: Lehimləmə dəmirinin ucluğunun növləri və istifadəsi

Ucluğun növü	Səciyyəvi xüsusiyyəti/istifadə sahəsi
B növlü	İstənilən istiqamətdə istifadə oluna bilən və istənilən mövqedə asanlıqla tutula bilən hərtərəfli ucluq növüdür. Kiçik səthlərdən böyüyə qədər istənilən səthi lehimləmək mümkündür.
C/BC növü	Bu növ konusa bənzəyən və ya çəpinə kəsilmiş sütun formasına malikdir. Bu da istifadəçilərə işin həcmindən asılı olaraq kəsiləcək səthin ölçüsünü seçməyə imkan verir. Dartaraq lehimləmə və qurğuşun naqillərin əvvəlcədən qalaylanması üçün istifadə olunur.
CM/BCM növü	Bu növ BC növlü lehimləmə dəmirindən onunla fərqlənir ki, onun kəsiyinin səthinə oyuq əlavə olunub və bu da lehimin möhkəmliyini artırır. Dartaraq lehimləmə və körpüləmənin düzəldilməsi üçün istifadə olunur.
D növü	Bu növ düz uclu vintaçana bənzər görünüşə malikdir və ucluğu 2 yolla tətbiq edərək lehimləmə qabiliyyəti var: xətti və səthi. Eni (ucluğun ölçüsü) işin həcmindən asılı olaraq seçilə və istənilən lehimləmə işi üçün istifadə oluna bilər.
I növü	Bu növün nazik konusşəkilli ucu var və dar aralarda və s. lehimləmə üçün daha uyğun olan həddən artıq incə ucluğa malikdir. 0603 və s. kimi mikro komponentləri lehimləmək və mobil telefonlardakı və s. kimi yüksək sıxlıqlı, montajlanan ÇDS-ni təmir etmək üçün daha uyğundur.
K növü	Bu növün bıçağa bənzər görünüşü var və ucluğu 3 yolla tətbiq etməklə lehimləmə qabiliyyətinə malikdir: xətti, səthi və nöqtəvi. Dar aralarda, körpüləmənin düzəldilməsi və dartaraq lehimləmə üçün istifadə olunur.
J növü	Bu növ B və I tipli lehimləmə dəmirindən onunla fərqlənir ki, onun ucluğunun sonu əyilir və ucluğu 2 yolla tətbiq edərək lehimləmə qabiliyyətinə malikdir: səthi və nöqtəvi. Dartaraq lehimləmə və körpüləmənin düzəldilməsi üçün istifadə olunur.
Dördbucaq növü	Bu növ çoxsaylı kontaktları və ya qurğuşun naqilləri eyni anda isitmək qabiliyyətinə malikdir və SMC-lərin (Səthi Montaj Cihazları) təkrar işlənməsində istifadə olunur. QFP-nin (Quad Flat Package - dörd istiqamətə çıxıntıları olan yastı korpus) ayrılması üçün istifadə olunur.
Tunel növü	Bu növ çoxsaylı kontaktları və ya qurğuşun naqilləri eyni anda isitmək qabiliyyətinə malikdir və SMC-lərin (Səthi Montaj Cihazları) yenidən işlənməsində istifadə olunur. SOP-un (signal output part – siqnalın çıxış hissəsi) ayrılması üçün istifadə olunur.
Mala növü	Bu növ çoxsaylı kontaktları və ya qurğuşun naqilləri eyni anda isitmək qabiliyyətinə malikdir və SMC-lərin (Səthi Montaj Cihazları) yenidən işlənməsində istifadə olunur. Elastik ÇDS-lərin, müdafiə keyslərinin, konnektorun və s. hissələrin termal sıxılması üçün lehimləmədə istifadə olunur.



Dördbucaq növü Tunel növü Mala növü

Şəkil 3: Lehimləmə dəmirinin ucluqlarının növləri və görünüşü (https://www.hakkousa.com)

(2) Qurğuşun (və ya lehim)

Ərimə temperaturunu və lehimin gücünü nəzərə alaraq, 6:4 nisbətində qalay (Sn) və qurğuşun (Pb) qarışdırılır. Qalay tərkibi daha yüksək olarsa, ərimə temperaturu və parıltı aşağı olacaq. Elektronik komponentləri quraşdırarkən, daxili boru meydana gəlir və həlledici maye ilə doldurulmuş qurğuşundan istifadə edir (Sn 50 ~ 60%, Φ1.0 ~ 1.6).

- Yastı qurğuşun: Sənayedə istifadə üçün (tökmə platanın lehimlənməsi və s. üçün)
- Tək əsaslı qurğuşunsuz həlledici: kiçik elektronik cihazlar üçün
- Çoxtərkibli həlledici kürəciklər: böyük elektronik cihazlar üçün

(3) Həlledici maddə

Həlledici maddə möhkəm lehimlənməyə kömək etmək üçün katalizator kimi çıxış edir və əsas materialda (çap dövrə sxemi) görünməyən çirki aradan qaldırmaq və lehimlənmədən sonra qatılaşmış qurğuşunun səthində nazik təbəqə əmələ gətirməklə, oksidləşmənin qarşısını almaq üçün istifadə olunur.

(4) Lehimləmə dəmirinin altlığı və termostat

Siz lehimləmə zamanı işi təhlükəsiz şəkildə yerinə yetirmək üçün lehimləmə dəmiri altlığından istifadə etməlisiniz. Lehimlənəcək olan yerin formasından asılı olaraq, tətbiq sahəsinə görə lehimləmə dəmirinin ucluğunu dəyişmək məqsədəuyğun ola bilər. Boğazın həddən artıq qızmasının qarşısını almaq üçün, boğazdakı ucluğun temperaturunu nizamlamaq üçün termostatdan istifadə edin.

Termostat əvvəlcə maksimal temperaturu qismən azaldaraq və dəstəyi düzgün temperatura nizamlayaraq istifadə olunur. Bundan əlavə, lehimləmə zamanı lehimləmə dəmirinin ucluğunda çirk meydana gəldiyindən, onu təmizləmək üçün həmişə istilik müqavimətli süngərdən istifadə edin.

2) Lehimləmə dəmirinin ucluqları və prosedurları

Daha yaxşı lehimləmə işi üçün, ilk olaraq, lehimlənəcək metalın səthini təmizləyin və elə qızdırın ki, soyuq və ya həddən artıq qızmış olmasın. Tam əlaqələndirilmiş vəziyyətdə lehimləmə müvafiq təcrübə və lehimin vəziyyətini ağılla mühakimə etmək bacarığı tələb edir və hər şeydən əvvəl lehimləmə ləvazimatlarından düzgün istifadə olunmalıdır.

Lehimləmə dəmiri və başlığı lehimləmə sahəsindən və hissələrin montajlama istiqamətindən asılı olaraq qismən fərqlənirlər. İstənilən halda, lehimləmə dəmirinin ucluğunu əsas materialla 45 ° bucaq altında təmas etdirmək daha məqsədəuyğundur.

(Cədvəl 3) sadə lehimləmə prosedurunu təsvir edir.

Cədvəl 3: Sadə lehimləmə proseduru

1) Hazırlıq		Lehimləmə dəmirinin ucluğu və başlığını əsas materiala lehimlənəcək olan hissənin nisbətən yuxarı hissəsinə yaxınlaşdırın və lehimlənəcək mövqeni təsdiq edin
2) Lehimləmə dəmirini birləşdirin.		Əsas materialın mis səthini lehimlənəcək olan hissədə lehimləmə dəmirinin ucluğu ilə qızdırın. Qızma müddəti təxminən 2–5 saniyədir və bu müddət əsas materialın tərkibindən asılı olaraq qismən dəyişə bilər.

Solder – lehim
Soldering iron – lehimləmə dəmiri
Circuit board – dövrə maketi
Copper pad – mis altlıq

4) Lehimi kənarlaşdırın.		Müvafiq miqdarda lehim əridikdə lehim kənarlaşdırılır.
5) Lehimləmə dəmirini ayırın.		Əgər lehim parıldayırsa və azca axırsa, lehimləmə dəmirini əsas metaldan ayırın. Bu halda lehimləmə dəmirinin ayrılması sürətinə və istiqamətinə diqqət edin.

Lehimləmə başa çatdıqda Şəkil 4-də göstərilən şəkildə lehimləmənin miqdarı və lehimin maililik bucağı meydana gəlir. Əgər lehimin miqdarı çox və ya azdırsa və ya lehimin birləşmə yeri soyuqdursa, lehimləmə dəmiri ilə qızdırmağa davam etməyin, lehimləmə dəmiri ilə azca axıdın və lazımi qədər lehim materialı əlavə edin. Artıq miqdarı cəld şəkildə kənarlaşdırın və ya lehim kənarlaşdıran ilə artıq lehimi silin və yenidən lehimləyin. Bu halda, mis folqanın qurğuşun ayırıcı tərəfindən dağılmamasına diqqət etmək lazımdır.



Şəkil 4. Lehimin miqdarı və lehimin maililik bucağı

3) Lehimləmə zamanı ehtiyyat tədbirləri

1. Lehimləmə dəmirinin ucluğu işdən əvvəl elə bərkidilməlidir ki, iş zamanı əsməsin.
2. Əgər əsas material lehimləmə dəmiri ilə bərk sürtülübsə və ya bir yerdə həddən artıq müddətdə tutulubsa, bu hal lehim nöqtəsinin soyuması ilə nəticələnəcək. (Şəkil 5) (a)
3. Diodlar, transformator, inteqram dövrə və s. kimi zəif yarımkeçirici hissələrin lehimlənməsi üçün qurğuşun naqilləri (Şəkil 5) (b)-də göstərildiyi kimi, uzun burun kəlbətinlərlə və ya maqqaşlarla saxlayın.
4. MOS, FET və ya C-MOS inteqral dövrələri kimi zəif elektrostatik hissələri lehimləmək üçün torpaqlama qütbünə malik lehimləmə dəmirindən istifadə tövsiyə olunur.

5. Lehimləmə zamanı lehimləmə dəmirini yaxınlıqdakı digər naqil və hissələrə toxunduraraq naqilləri və ya naqillərin hissələrini zədələməyin.

Solder – lehim
Electronic parts – elektronik hissələr
Lead wire – qurğuşun naqil
Circuit board – dövrə maketi
Copper pad – mis altlıq
Soldering iron – lehimləmə dəmiri
Heatsink – radiato





(a) Lehimləmə zamanı qüsurlar (b) Radiator

Şəkil 5. Lehimləmənin iş metodu

6. Lehimləmə bitdikdə Şəkil 6-da göstərilən şəkildə müxtəlif növ lehimləmə halları meydana gələ bilər.



Şəkil 6. Müxtəlif lehimləmə halları

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Aləti tapşırıqdan kənar məqsədlər üçün istifadə etməyin.
2. Lehimləmə dəmirindən istifadə edərkən əlinizi yandırmayın.
3. Lehimləmə dəmirindən istifadə etmədikdə onu həmişə söndürün.
4. Lehimləmə dəmirlərindən istifadə etdikdə onları lehimləmə dəmiri altlığında yerləşdirin.
5. Alətdən istifadə etdikdən sonra onu fərdi alət qutusunda və ya müvafiq yerdə saxlayın.
6. Lehimləmə dəmirinin ucluğu isti ikən elektrik naqilinin başlığına toxunmayın.
7. Lehimləmə işi zamanı yaxşı havalandırılmalıdır.
8. Lehimləmə dəmirinin yaxınlığında tez alışan maddələr saxlamayın.

Təcrübə mərhələləri

1. Universal sxem lövhəsinin mis lehimləmə səthi

1. Universal ÇDS (28 x 28) hazırlanır.
2. Lehimləmə üsulunu öyrəndikdən sonra, mis səthlərin hər birini yavaş-yavaş lehimləyin. Mis folqa lehimləmə dəmiri vasitəsilə əvvəlcədən qızdırılır, sonra isə kifayət qədər lehim tətbiq olunduqda lehimi kənarlaşdırmaq üçün lehim mis folqanın üzərinə qoyulur. Qurğuşun su damcısı şəklində əridikdə və yarımdairə formasını aldıqda həlledici tükənməzdən əvvəl lehimləmə dəmiri səthdən dərhal ayrılır (sağ tərəfdəki şəkilə baxın).
3. Lehimin miqdarı əvvəldən sona qədər eyni miqdarda olur. Lehimlənəcək mis folqa lehimlənmədən əvvəl silinib təmizlənməlidir. Bundan əlavə, yaxşı lehimləmə temperatur yoxlayıcı vasitəsilə təmin oluna bilər.
4. Mis folqanın səthi substratdan qopmamasına əmin olun. Lehimləmə dəmiri həddən artıq qızdıqda, mis folqanın qopa biləcəyi səbəbindən lehimləmə 1-2 saniyə ərzində tamamlanmalıdır.



2. Tək naqil ilə lehimləmə

1. İti ağız kəlbətindən istifadə edərək, naqili 2-3 [sm] uzunluğunda kəsin.
2. Kəsilmə xəttinin hər iki ucunda 3 [sm] uzunluğunda zolaqlar kəsin və düzləşdirin.
3. Universal ÇDS (28 x 28) hazırlayın.
4. Tək naqil lövhəyə lehimləndikdən və möhkəmləndikdən sonra iti ağız kəlbətin vasitəsilə naqilin mis folqanın səthindən kənarda qalan hissəsini kəsin. Əmin olun ki, naqil tərpənməsin.
5. Universal sxem lövhəsini tək naqildən istifadə etməklə sağ tərəfdə göstərilən şəkildə lehimləyin.
6. Lehimlənəcək hər dəliyin ölçüsü sabit olmalıdır və lehim elə lehimlənməlidir ki, dəliklər lehimlə birləşdirilməsin. Hər dəliyin lehim tərəfi barmaqla basıldıqda asanla itələnməlidir və mis folqa düşməməlidir.



3. Naqillərin lehimlənməsi

1. İti ağız kəlbətindən və uzun burun kəlbətindən istifadə etməklə, tək naqilin örtüyünü soyun və spiral ilə lehimləməyə hazırlaşın. Naqilin qırılmadığından əmin olun.
2. Naqili sağ tərəfdə təsvir olunmuş şəkildə lehimləyin.
3. Universal ÇDS-də lehimləmə işi apararkən, kəsilmə lövhədən ayrılmamalıdır və naqillər birləşdirilməməlidir.



4. Təmizlik və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlığı və materialları müvafiq şəkildə saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulu təcrübi olaraq məşq etdikdə aşağıdakıları yerinə yetirdimi? 1. Alətin adını və ondan istifadə qaydasını izah etdimi? 2. Lehimlənmənin düzgün həyata keçirilməsindən əmin oldumu? - ÇDS-dəki dəliklərin düzgün lehimlənməsini apardımı? - Tək naqilin universal ÇDS-də düzgün lehimlənməsi şərtlərini izah etdimi? - Universal ÇDS üzərindəki naqilin lehimlənmə şərtlərini düzgün izah etdimi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

Təcrübənin nəticələrinin hesabatı			
Təcrübənin adı	Lehim, əsas alətlər və lehimləmə dəmiri	Tarix	
Şöbə		Ad	

1. Təcrübənin nəticələrinin cədvəli

(1) ÇDS-dəki boş dəlik lehimləməsinin yoxlanması

- Lehimləmə vəziyyəti: həddən artıq və ya həddən az lehim, lehimin olmaması, misin qalxması, yan tərəfdəki mislə ayrılma məsafəsinin pozulması, naqilin, digər hissələrin zədələnməsi və s.

(2) Sxem lövhəsində tək naqil lehimləməsinin yoxlanması

- Lehimləmə vəziyyəti: həddən artıq və ya həddən az lehim, lehimin olmaması, misin qalxması, yan tərəfdəki mislə ayrılma məsafəsinin pozulması, naqilin, digər hissələrin zədələnməsi və s.

(3) ÇDS-də naqillərin lehimlənməsinin yoxlanması

- Lehimləmə vəziyyəti: həddən artıq və ya həddən az lehim, lehimin olmaması, misin qalxması, yan tərəfdəki mislə ayrılma məsafəsinin pozulması, naqilin, digər hissələrin zədələnməsi və s.

2. Baxış və izah

(1) Aşağıda göstərilən alətlərin adını və istifadə məqsədini yazın.

Şəkil	Ad	Məqsəd
		
		

(2) Lehimləmə dəmirinin ucluğunun lehimləmə dəmirinə necə quraşdırıldığını izah edin.

(3) Lehimləmənin nə üçün istiliyə qarşı həssas komponentləri tutan maqqaşlar və ya digər alətlər vasitəsilə edildiyini izah edin.

2. Müxtəlif elektronik komponentlərin oxunması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Simvolları və qütbləri izah edə biləcək;
2. Elektronik komponentlərin xüsusiyyətlərini və istifadə qaydasını izah edə biləcək;
3. Hissənin mütləq qiymətini və vahidini oxuya biləcək.

Təcrübə materialları:
1. Rezistor: növə uyğun, bir neçə
2. İnduktivlik çarxı: növə uyğun, bir neçə
3. Kondensator: növə uyğun, bir neçə
4. Müxtəlif yarımkeçirici cihazlar: növə uyğun, bir neçə
5. Sensor: növə uyğun, bir neçə
6. Digər elektronik komponentlər: növə uyğun, bir neçə

Avadanlıq və alətlər:
1. Multitester

Mövzu ilə əlaqəli biliklər

1. Elektronik komponentlərə ümumi baxış

Elektronik komponentlər elektrik və elektronik avadanlıqlarda istifadə olunan minimum komponentlərdir. Onlar müxtəlif elektronik cihazların ümumi sistem funksiyalarında gücləndirici, qəbuledici və ossiloqraf kimi xüsusi funksiyaları yerinə yetirmək üçün istifadə olunur və bir-birlərinə qoşulurlar.

1) Elektronik komponentlərin təsnifatı
1. Passiv hissələr: Passiv cihazlar müstəqil şəkildə heç bir əməliyyatı yerinə yetirmir, lakin aktiv komponentlərin əməliyyatını tamamlamaq və ya əlaqələndirmək üçün rezistor, sarğı və kondensatorlar kimi aktiv cihazlarla əlaqələndirilə bilərlər.
2. Aktiv hissələr: Aktiv cihazlar kənardan elektrik enerjisi ilə təchiz olunan və düzləşdirmək, gücləndirmək və ya dəyişmək üçün elektrik siqnallar meydana gətirir. Sadəcə elektrik təchiz etməklə giriş və çıxış arasında sabit əlaqə təmin olunur. Tranzistorlar, induktivlik çarxı, diodlar və əməliyyatçı gücləndiricilər (OP AMP) bu növ cihazlara aiddir.
3. Köməkçi hissələr: Köməkçi cihaz dövrənin çevirmə əməliyyatları ilə əlaqələndirmə funksiyasını yerinə yetirən hissədir və buraya çevirici, konnektor, çap edilmiş dövrə platası, terminal, batareya və oxşar hissələr aiddir.

2) Elektronik hissələrdən istifadə
1. Hissələrin növləri: Eyni hissələrin bir neçə növü mövcuddur və hər növün özünəməxsus xüsusiyyətləri var. Buna görə də, məhsulların xarakteristikalarının daha yaxşı şəkildə başa düşülməsi məqsədəuyğundur.

2. Hissələrin spesifikasiyası: Hər hissənin istifadəsinə uyğun spesifikasiyaları mövcuddur. Bu spesifikasiyaları başa düşmək və müvafiq şəkildə istifadə etmək layihələndirmənin bir hissəsidir.
3. Maksimal qiymət aralığı: Hər bir komponentin aldığı maksimal qiymət aralığı var və bu aralıq daxilində istifadə edilməlidir. Bu aralıqdan kənara çıxdıqda, hissələr zədələnəcək, buna görə də müəyyən olunmuş aralıqda istifadə olunmalıdırlar.
4. Görünüş və ölçülər: Bəzi hissələr eyni ölçüdədir, bəziləri kiçik, bəziləri isə böyükdür.
5. İstilik generatorunun nəzərə alınması: Elektronik hissələrin bir çoxu əməliyyat zamanı istilik yaratmaq xüsusiyyətinə malikdir. Xüsusilə enerji təchizatı və ya yüksək cərəyan şiddəti ilə işləyərkən bu hissələr üçün istilik ayrılması nəzərdə tutulmalıdır.

2. Müxtəlif elektronik hissələrin növləri

Elektronik dövrə diaqramları simvolik birləşmələrdən ibarətdir. Dövrələri başa düşmək, quraşdırmaq və təmir etmək üçün müxtəlif elektronik komponentləri və simvolları tanımaq lazımdır. Elektronik komponentlər hər hissəni ayırd etmək qabiliyyətinə malik olmalıdır, çünki onlar tətbiqetmə şəraitinə, hissənin hazırlandığı materiala, istifadə olunan gərginlik və tezliyə, tutuma və spesifikasiyaya uyğun şəkildə dəyişir.

1) Rezistor

Rezistor cərəyan konduktordan keçərkən elektrik axınını kəsən komponentdir. Kənarlaşmanın miqyası elektrik müqaviməti adlanır. Elektrik müqaviməti cərəyanın rezistordan keçən gərginliyə nisbətidir, simvolu R və ölçü vahidi Ω (Om)-dur. Rezistorlar sabit və dəyişən rezistorlara ayrılırlar və istifadə olunan materialdan asılı olaraq, karbon-əsaslı və metal-əsaslı kimi təsnif olunurlar. Cədvəl 2-də rezistorların növləri təsvir olunur.

Cədvəl 1: Rezistorun növləri

Hissənin adı	Görünüşü	Simvol	İstifadəsi
Karbon lent rezistor			- Ümumi təyinatıdır, ən ucuz və geniş istifadə olunan rezistor növüdür. - Ən geniş istifadə olunan müqavimət növü keramik çubuğa lent şəklində karbon tozunun çəkilməsi ilə hazırlanan və müqavimət qiymətini nizamlamaq üçün spiralşəkilli yivlərin oyulduğu rezistordur.
Bərk rezistor, Karbon tərkibli rezistor			- Müqavimət qiymətini nizamlamaq üçün qarışıq material ilə qarışdırılmış və sıxac polimerlə birlikdə tökülmüş karbon tozunun müqavimətidir. - Yüksək dəqiqliyə malik rezistor hazırlamaq çətindir, çünki bu, tək rezistordan ibarət cihazdır. Lakin yüksək gərginlik müqavimətinə və yüksək müqavimətə malik kiçik ölçülü rezistor hazırlamaq asandır. - İstehsal xərcinin aşağı olması və yüksək tezliyə malik olması əsas xarakteristikalarıdır, lakin nəmliyə qarşı həssas və temperatur əmsalı yüksəkdir.

Metal lent rezistor			- Vakuum buxarlanma və püskürtmə üsulu ilə lent şəklində keramik çubuğa nixrom, nitrid titanı, nitrat titanı və xrom qalayın tətbiq etməklə oyma və müqavimət qiymətini nizamlama yolu ilə hazırlanan rezistordur. - Yüksək tezlik səbəbilə rəqəmli dövrələrdə geniş şəkildə istifadə olunur.
Metal oksid lent rezistor			- Keramik çubuq keçirici nazik metal oksid lenti ilə örtülərək kəsmə, izolyasiya və qoruyucu örtük tətbiq etməklə rezistor meydana gəlir. - Kiçik ölçülü, yüksək gücə malik rezistorlar hazırlana bilər, yüksək temperaturun sabitliyi, səs və tezlik xarakteristikalarına malik rezistorlar da yüksək keyfiyyətli rezistorlardır. - Xüsusilə istiliyə dözümlüdür və aşağı şiddətə malik bir neçə cərəyanı keçirə bilər, buna görə də elektrik dövrələrində və digər qurğularda geniş şəkildə istifadə olunur.
Sement rezistor			- Rezistoru temperatur və rütubətdən qorumaq üçün sement qəlibinin içinə qoymaqla hazırlanır. - Yüksək dözümlülüyə malik gərginlik xarakteristikalarına malikdir və yüksək temperatura dözümlüdür.
Metal lövhə rezistoru			- İstiliyin daha yaxşı paylanması üçün radiator qabırğalarına malik metal qutunun içinə yerləşdirilmiş rezistordur. - Metal lövhə ilə örtülmüş metal qutu, adətən, alüminiumdan hazırlanır.
Qalın lent rezistorlar			- Kiçik elektronik sxem və bir çox hissələrin SMT (Səthə montaj texnologiyası) üsulu ilə quraşdırıldığı yeni növ rezistordur. - Bu çip növlü rezistorlar qalın lentşəkilli rezistorların keramik substrata yerləşdirilməsi ilə hazırlanır və ölçüsü getdikcə kiçilməkdədir. - Yüksək tezlik xarakteristikasına və kiçik ölçüsünə görə, mobil telefonlar və kompüterlər kimi ən yeni cihazların bir çoxu çip növlü rezistorlardan istifadə edir.
Blok rezistor			- Komponentlərin təmas səviyyəsini artırmaq üçün bir neçə rezistor bir qablaşdırmaya yerləşdirilir və rezistor şəbəkəsi formalaşdırılır. - Görünüşdə bir neçə başlıq çıxıntısı olur və səciyyəvi başlıqlı blok rezistoru olan çip növlü çip şəbəkə rezistoru mövcuddur

Karbon lent növlü dəyişən rezistor			- Dəyişkən rezistorun ən geniş yayılmış növüdür. - Müqavimət qiymətini nizamlamaq üçün karbon örtük izoləedici materialına tətbiq edilir və rezistorun bir elektrodu müqavimət qiymətini nizamlamaq üçün karbon lentlə ötürülür.
Sement növlü dəyişən rezistor			- Metalkeramika (keramika və metal qarışığı olan rezistor) və izolyasiyadan istifadə edən dəyişən rezistordur. - Metalkeramika karbon lentdən daha dözümlüdür və müqavimət qiymətini daha dəqiq şəkildə nizamlaya bilər. - Aşağı temperatur əmsalına və rütubətə yüksək dözümlülüyə malikdir, lakin bahalıdır, buna görə də əsasən analoq dövrədə sürüşmənin nizamlanması və səviyyənin nizamlanması dövrəsi kimi sürüşmə hallarına nəzarət üçün istifadə olunur.
Dolaqlı dəyişən rezistor			- Naqil dolaqlı sabit rezistorda olduğu kimi, müqavimət naqilləri izolyator nüvəsi ətrafına dolanır. - Dolaq növü səbəbilə böyük enerji növlü rezistor istehsal etmək asan olduğuna görə, əsasən, cərəyan və elektrikə nəzarət etmək məqsədilə dəyişən müqavimət hissəsi üçün istifadə olunur, lakin yüksək müqavimət qiyməti əldə etmək çətindir. - İnduktiv komponentlər asanlıqla yaranır və yüksək tezliyə malik dövrələr üçün uyğun hesab edilmir.
Yarı-sabit dəyişən rezistor			- Həcm rezistorlarından fərqli olaraq, əsasən, dövrənin birbaşa dövrə platasına quraşdırılmasının əməliyyat nöqtəsini dəqiq nizamlamaq üçün istifadə olunur. - Metal qutunun xarici hissəsindəki tutacaqlar əvəzinə (-) və (+) vintaçanlarla nizamlana bilər
Prezision potensiometr			- Prezision potensiometr 1-270 dərəcə fırlanma bucağına malik ümumi təyinatlı dəyişən rezistordan 2 dəfə daha çox fırlanmaqla, müqavimət qiymətini daha dəqiq şəkildə nizamlaya bilən rezistordur. - Həcm növlü və yarı-sabit növlü rezistorlar mövcuddur. Əsasən, yarı-sabit növlü rezistorlar istifadə olunur. - Metalkeramika rezistorları və ya naqil dolaqlı rezistorlar yüksək dəqiqlik tələb edən dövrələrdə istifadə olunur.

2) Kondensator

Kondensator elektrik enerjisini sabit cərəyanda saxlayan, lakin müqavimət qiymətinin DC –dakı (sabit cərəyandakı) tezliklə dəyişdiyi rezistor kimi fəaliyyət göstərən funksional komponentdir. Saxlanan miqdar elektrik tutumu və ya sadəcə tutum adlanır, C simvolu ilə işarələnir və F (farad) vahidi ilə ölçülür. Cədvəl 2-də göründüyü kimi, müxtəlif növ kondensatorlar mövcuddur.

Cədvəl 2: Kondensatorun növləri

Hissənin adı	Görünüşü	Simvol	İstifadəsi
Keramik kondensatorlar			- Titan-barium titanat kimi yüksək dielektrik sabitə malik material elektrodlar arasında dielektrik kimi istifadə olunur. - Yüksək tezlik xarakteristikaları qənaətbəxşdir və dövrələmə üçün istifadə olunur. - Keramik kondensatorun elektrod qütblüyü yoxdur
Poliefir örtüklü kondensator			- Nazik poliester lent hər iki tərəfdən metal daxil etməklə silindr şəklinə salınır. - Elektrod qütblüyü yoxdur.
Elektrolit kondensator			- Nazik oksid lenti dielektrik kimi, alüminium elektrod kimi istifadə olunur. - Əsasən, enerji təchizatını bərabərləşdirmə dövrəsi, aşağı tezlikli dövrələmə və s. üçün istifadə olunur. - Qütblərə diqqət edin (+, -).
Tantal kondensator			- Elektrod qismində tantal adlanan materialdan istifadə edən elektrolit kondensator növüdür. - Elektrolit kondensatorla müqayisədə daha yaxşı tezlik göstəricisinə, lakin daha aşağı daxili təzyiqə və aşağı tutuma malikdir. - Qütblərə diqqət edin (+, -).
Çip növlü kondensator			- Son dövrlərdə elektronik cihazların kiçilməsi səbəbilə kiçik ölçülü kondensatorlardır, çip kondensatorlar bir çox elektronik məhsullarda istifadə olunur. - Məsələn, 1005 simvolunda ilk iki rəqəm 10 kondensatorun eninə uzunluğunun 10 millimetr olduğunu və sondakı 05 rəqəmləri kondensatorun uzunluğunun 0.5 millimetr olduğunu göstərir.
Trim kondensator			- Keramik (maqnit), poliester lent və ya oxşar material dielektrik kimi istifadə olunur. - Yüksək tezlikli dövrənin və ya generatorun tezliyini dəqiq kökləmək üçün istifadə olunur. - Qütblük yoxdur.
Dəyişən kondensator			- Havadan dielektrik kimi istifadə edir. - Radio dalğalarını seçən tənzimləyici üçün istifadə olunur. - Qütblüyü yoxdur.
Super kondensator			- Super kondensator yüksək tutuma malik kondensatordur. O, kimyəvi reaksiyadan istifadə edən batareyadan fərqli olaraq, elektroda və ya elektron interfeysə sadə ion ötürməsi və ya səthin kimyəvi reaksiyası vasitəsilə doldurmadan istifadə edir. - Sürətli dolma tutumuna malikdir və yüksək dolma / boşalma səmərəliliyinə və ya yarı-daimi istifadə müddətinə malikdir.

3) İnduktivlik çarxı

Çarx və transformator eyni növə aid olsa da, müxtəlif xarakteristikaya və istifadə üsuluna malikdirlər. Lakin hər ikisi induksiya vahidinə uyğun həcmə malik olur və elektromaqnit induksiyasından eyni şəkildə istifadə edirlər.

Çarxın yüksək tezlikli siqnala müqaviməti induksiya adlanır. Simvolu L, vahidi Henri-dir (H).

Transformator birinci və ikinci sarğıların dönmə sayını dəyişməklə gərginliyin həcminə dəyişə bilən komponentdir və enerjinin gücləndirilməsi zamanı müqavimətlərin uyğunlaşdırılması üçün istifadə olunur. Cədvəl 3 çarx və transformatorun xarakteristikalarını təsvir edir.

Cədvəl 3: Sarğı və transformatorların növləri

Hissənin adı	Görünüşü	Simvol	İstifadəsi
İnduksiya çarxı	(a) (b) (c)		(a) Naqilsiz induktivlik çarxı: Daxildə nüvə yoxdur və yalnız sarğı mövcuddur. Yüksək tezliyə malikdir (b) Polad naqilli induktivlik çarxı: Aşağı tezlik səbəbilə sarğı metal nüvəyə dolanıb (c) Ferrid nüvəli induktivlik çarxı: Yüksək tezlikli sarğı
Dəyişən induksiya çarxı			- İnduksiyanın qiyməti dəyişə bilər. - Orta tezlikli tənzimləmə çarxı (ORK)
Radio tezlikli transformator			- Radio tezlikli transformator qəbuledicinin həssaslığını və sabitliyini yaxşılaşdırmaq məqsədilə superheterodin qəbulediciyə qəbul edilən tezliyi aşağı salmaq üçün orta tezlikli gücləndirmə dövrəsində istifadə oluna bilər. - AM üçün orta tezlik 455 kHz, FM üçün 10.7 MHz istifadə olunur və dörd rəngdən ibarətdir (sarı, yaşıl, narıncı, mavi, və s).

Transformator			- 200V (110V) dəyişən cərəyanı elektronik dövrə üçün zəruri olan gərginliyə çevirir. - Həm də transformator kimi məlumdur, yüksələn və azalan transformatorlar mövcuddur. - Tezliklərin uyğunlaşdırılması üçün istifadə olunur
Audio transformator			- GT (giriş transformatoru) yaşıl və ya mavidən istifadə edir. - GT gücləndiricinin içinə yerləşdirilməklə tezliklərin uyğunlaşması üçün istifadə olunur. - SC-nın izolyasiyası və faza çevrilməsi üçün istifadə olunur
Audio transformator			- ÇT qırmızıdan istifadə edir. - ÇT gücləndiricinin çıxışı və səsucaldan arasındakı tezliyi uyğunlaşdırmaq üçün istifadə olunur.
Antena Sarğısı	 (a) (b)		(a) AM radiosu üçün kökləmə sarğısı kimi istifadə olunur. (Antena sarğısı) (b) 26-30 MHz Spiral sarğı
Rele			- Elektrik cərəyanı çarxa axdıqda maqnitə çevrilmə funksiyasına malikdir. - Elektrik cəhətdən müstəqil dövrələr bir-birləri ilə istifadə oluna bilər.
Solenoid induksiya çarxı			- Solenoid naqilin dar silindr şəklində dolanması ilə hazırlanan cihazdır. - Solenoid əsasən elektromaqnit kimi istifadə olunur, çünki o, elektrikin solenoidə axması ilə maqnit sahəsi generasiya edə bilir. - Solenoidlər dəyişən cərəyandan istifadə edən elektronik dövrələr üçün istifadə olunan induktivlik sarğıların bir növüdür.

4) Yarımkeçirici

Çarx və transformator eyni növə aid olsa da, müxtəlif xarakteristikaya və istifadə üsuluna malikdirlər. Lakin hər ikisi induksiya vahidinə uyğun həcmə malik olur və elektromaqnit induksiyasından eyni şəkildə istifadə edirlər.

Çarxın yüksək tezlikli siqnala müqaviməti induksiya adlanır. Simvolu L, vahidi Henri-dir (H).

Diod cərəyanı yalnız bir istiqamətdə keçirən yarımkeçirici komponentdir.

Diod iki terminala malikdir və cərəyan bir istiqamətdə axır, lakin əks istiqamətdə axa bilməz. Cərəyanın axa biləcəyi istiqamət düz istiqamət, cərəyanın axa bilmədiyi istiqamət əks istiqamət adlanır.

Tranzistor cərəyanı gücləndirə bilən komponentdir. Tranzistorlar yarımkeçiricilərin kombinasiyasından asılı olaraq, PNP (müsbət-mənfi müsbət) və ya NPN (mənfi-müsbət-mənfi) şəklində təsnif oluna bilərlər. PNP və NPN növlərində cərəyanın istiqaməti fərqli olur.

NPN növü (-) gərginlik tərəfinin torpaqlandığı və (+) gərginlik tərəfinin enerji ilə təchiz olunduğu dövrəyə asanlıqla tətbiq edilir. Tranzistorun quruluşuna cərəyan daşıyıcısına daxil edilən emitter (E), daxil edilmiş daşıyıcıya nəzarət edən baza (B) və cərəyan daşıyıcısını toplayan kollektorun (K) elektrodu daxildir. Cədvəl 4 müxtəlif yarımkeçirici cihazların simvollarını və tətbiq sahələrini təsvir edir.

Cədvəl 4: Müxtəlif yarımkeçirici cihazlar

Hissənin adı	Görünüşü	Simvol	İstifadəsi
Rektifikator diodu			- 1N5408 3A 1,000V Rektifikator diodu - Dəyişən cərəyan sabit cərəyana Düzəldir - Rektifikator dövrələrində istifadə olunur
Diod körpüsü			- Dörd diodun birləşməsidir. - Əsasən, DC-nın tam dalğa düzəltməsində istifadə olunur. - Daha geniş enerji sistemi istiliyin paylanması qurğusunun birləşdirilə bildiyi quruluşa malikdir.
Detektor diod			- 1N60 Germaniumlu Detektor diodu - Detektor diodu yüksək tezlikdə istifadə olunur. - Aşkaretmə dövrəsində (demodulyasiya) istifadə olunur.
Varikap diod			- MV2115 100pF Kökləmə diodu - FM, FS modulyasiyaları - Dəyişən tutumlu dioddur. - Varikap və ya Varaktor adlanır. - Yüksək tezlikli sinxronizasiya zamanı istifadə olunur.
Zener diodu			- 1N4728 3.3V 1/2W Zener diodu - Sabit gərginlikli diod adlanır. - İstinad gərginliyi kimi istifadə olunur. - Cərəyan düz istiqamətdə axır və əks istiqamətdə axmır.
Tunel (Esaki) diodu			- Esaki diodu adlanır. - Mənfi müqavimət xarakteristikasına malik tunel diodudur. - Mikrodalğalı generator sxemlərində istifadə olunur.

LED			- İşıq yayan diod - Elektrik enerjisini işıq enerjisinə çevirir. - Lüminessent xüsusiyyətlər tətbiq etməklə, optik sensor kimi istifadə olunur. - Həm də indikatorlar və ekranlar üçün istifadə olunur.
Fotodiod			- BPX65 Tam spektrli Si Foto diodu - İşıq enerjini elektrik enerjisinə çevirir. - Optik aşkar etmə dövrəsində istifadə olunur.
Fototranzistor			- Tranzistordan axan cərəyan işığın intensivliyi ilə dəyişir. - İstifadəsi: Optik çevirici, qısa məsafəli optik rabitə cihazı, işarələrin detektoru kimi istifadə olunur.
Foto Coupler			- İşıq yayan diodlar və fototranzistorlar birlikdə plastik boruya yerləşdirilir. - Əksetmə və ötürmə növləri mövcuddur və sensorlar kimi istifadə olunur. - Siqnalın giriş tərəfi və siqnalın qəbul tərəfi fiziki olaraq tam şəkildə ayrılıb.
Tranzistor			- NPN və PNP növləri gücləndirmə və çevirmə üçün yarımkeçirici cihazlar qismində istifadə olunur. - Tranzistorun spesifikasiyası 2SAxxx PNP yüksək tezlik növü 2SBxxx PNP aşağı tezlik növü 2SCxxx NPN yüksək tezlik növü 2SDxxx NPN aşağı tezlik növü
STT (J-FET - Sahə təsirli tranzistor)	 	 (a) (b) (c) (d)	- Sahə təsirli tranzistor (STT) cihazın elektrik davranışına nəzarət etmək üçün elektrik sahəsindən istifadə edən tranzistordur. STT-lər həm də birqütblü tranzistorlar adlandırılır, çünki onlar tək-daşıyıcı tipli əməliyyatları yerinə yetirirlər. Sahə effektli tranzistorların müxtəlif tətbiq sahələri mövcuddur. - Birləşmə tipli FSETc (JFET) və MOS FET. (a) P (müsbət) kanallı J-FET (b) N (mənfi) kanallı J-FET (c) P (müsbət) kanallı MOS FET (d) N (mənfi) kanallı MOS FET

TBT (təkbirləşməli) tranzistor			- Mənfi müqavimət xarakteristikasına malikdir. - İkibazalı diod adlanır. - Trigger generatoru kimi istifadə olunur. - Ən yüksək cərəyan aralığı genişdir və trigger gərginliyi sabitdir. - P və N kanal növləri olur.
PTT (Proqramlaşdırıla bilən təkbirləşməli) tranzistor			- PTT proqramlaşdırıla bilən təkbirləşməli tranzistordur. - TBT-nun fəaliyyətini dəyişkən etmək üçün hazırlanmış PTT istifadəçi tərəfindən müəyyən aralıqda genişləndirilə bilər. - TBT sabit performanslı, PTT isə dəyişkən performanslı elementdir.
SNR (Silikon nəzarətli rektifikator)			- SNR birtərəfli nəzarət elementidir və dördqatlı pnpn birləşməli quruluşa malikdir. - Trigger impulsu giriş vasitəsilə daxil olduqda, anoddan katoda ötürülür.
TRIAC (Triod DC çeviricisi)			- TRIAC üçqütblü DC nəzarət cihazına istinad edir. Quruluşu beşqatlı P-növlü və N-növlü yarımkeçiricilərdən, iki əsas elektroddan və bir giriş elektrodundan ibarətdir. - TRIAC hər iki istiqamətdə DC gərginliyinə və cərəyan şiddətinə nəzarət edir.
DIAC (Diod DC çeviricisi)			- İki istiqamətli, iki terminallı çevirmə elementidir, həmçinin SSÇ (Silikon simmetrik çevirici) adlanır. - PNPNP (müsbət-mənfi-müsbət-mənfi-müsbət) beşqatlı quruluşu girişi aradan qaldırır.
Termistor			- Müqavimət qiyməti temperatur dəyişikliyi ilə dəyişən cihazdır. - Temperaturun aşkar edilməsi və ölçülməsi üçün istifadə olunur. - NTC (mənfi temperatur əmsalı) və PTC (müsbət temperatur əmsalı) növlərinə malikdir.
Varistor			- Müqavimət qiyməti gərginliyin dəyişməsi ilə dəyişir. - Tətbiq: Yüksək gərginlik ötürməsinin qarşısını alır.
7-seqmentli ekran (FND)			- Anod ümumi növü və katod ümumi növü mövcuddur. - 7SE LED-lərlər ekran rəqəmlərini birləşdirən göstəricidir. - ÇRL (Çevik rəqəmli lövhə) adlandırılır.

LCD (Maye Kristal Ekran)			- Nümayiş simvolları, rəqəmlər və s. kimi müxtəlif növləri mövcuddur. - Tez-tez termometrlərdə, gərginlik/cərəyan sayğaclarından və mikrokompüterlərin ekran hissələrində istifadə olunur.
Analoq İD			- Müxtəlif gücləndirmə dövrələri və enerjini stabilləşdirən dövrələr İD-yə (inteqral dövrə) inteqrasiya olunub. - Əməliyyat gücləndiricisi, siqnal generatoru, konverter və tənzimləyici.
Rəqəmli İD			- Dövrə sxemlərinin hazırlanması üçün istifadə olunan inteqrasiya olunmuş dövrədir (İD). - AND, OR, NOT, NAND, NOR və EXCLUSIVE R. - TTL və CMOS.

5) Çevirici element

Çeviricilərin bir dəfə hərəkət etdirildikdə YANILI və ya SÖNÜLÜ vəziyyətə keçən dəyişdirici açar və ya sürüşən çevirici, bir dəfə hərəkət etdirildikdən sonra əvvəlki vəziyyətlərinə qayıdan düymə çeviriciləri və birləşdiriləcək dövrəni açmaq və ya bağlamaq üçün istifadə olunan kommutator açarı kimi bir çox növü mövcuddur.

Cədvəl 5: Çevirici hissələrinin adları və simvolları

Hissənin adı	Görünüşü	Simvol	İstifadəsi
Açar			- (a) sürüşən çeviricidir, (b) dəyişdirici açardır, və (c) düymə çeviricisidir. Panelə və ya çap dövrəsinin platasına quraşdırılır və kənardan idarə oluna bilər. - İcazə verilən çevirmə gərginliyinə və kontaktın maksimum cərəyan şiddəti səviyyəsinə fikir vermək lazımdır.
DIP çeviricisi (İkicərgəli çıxıntıları olan dəst)			- Rəqəmli dövrələr üçün çoxsaylı çeviricilərə ehtiyac olduqda istifadə olunur. - DIP çeviricisi mikrokompüterlərdə və digər qurğularda müxtəlif vəziyyətlərdə istifadə üçün əlverişlidir. - DIP növ İD və ya dəyişkən rezistor şəklində ola bilər. - Yanma/Sönmə hər bit üçün ayrılıqda icra edilə bilər. - Kiçik kontakt tutumu olduğu üçün, geniş cərəyan tətbiqetmələri üçün əlverişli deyil.

Rəqəmli çevirici (BCD çevirici)			- Onluq 4-bit verilənləri daxil etmək üçün çevirici. - İstifadəsi asandır, çünki birbaşa rəqəm göstəricisini izləməklə nizamlana bilər.
Kommutator çeviricisi			- Selektor çevirici - Panelə quraşdırılır və ardıcıl şəkildə seçmək və çevirmək üçün istifadə olunur.

6) Baza məntiqi sxemin elementi

Məntiq elementi (məntiqi sxem elementi və ya məntiqi sxem) rəqəmli məlumat axınına icazə verən və ya qarşısını alan dövrə elementidir. Məntiqi dövrə sxemi binar məlumatlara əsaslanaraq, AND, OR, NOT və s. kimi məntiqi əməliyyatlara uyğun əməliyyatları yerinə yetirən məntiq elementlərindən istifadə etməklə konfiqurasiya edilən elektronik dövrə sxemidir.

Baza məntiqi sxemin növləri Cədvəl 6-da təsvir olunub.

Cədvəl 6: Sadə məntiq sxeminin növləri

Sxemin adı	Verilənlər kitabçası	Simvol	İstifadəsi
AND sxemi			- Məntiqi hasil dövrə sxemidir - İfadə: Y = A · B (A və B) - Doğruluq cədvəli: A B Y 0 0 0 0 1 0 1 0 0 1 1 1
OR sxemi			- Məntiqi cəmin dövrə sxemidir - İfadə: Y = A + B (A və ya B) - Doğruluq cədvəli: A B Y 0 0 0 0 1 1 1 0 1 1 1 1
NOT sxemi			- Məntiqi əks dövrə sxemidir - İfadə: Y = $\overline{A}$ - Doğruluq cədvəli: A Y 0 1 1 0

<table>
<tr>
<td>NAND sxemi</td>
<td> 
</td>
<td> 
</td>
<td>- Məntiqi hasilin inkarı sxemidir
- İfadə: Y = $\overline{(A \cdot B)}$
- Doğruluq cədvəli:
-
<table>
<tr><th>A</th><th>B</th><th>Y</th></tr>
<tr><td>0</td><td>0</td><td>1</td></tr>
<tr><td>0</td><td>1</td><td>1</td></tr>
<tr><td>1</td><td>0</td><td>1</td></tr>
<tr><td>1</td><td>1</td><td>0</td></tr>
</table></td>
</tr>
<tr>
<td>NOR sxemi</td>
<td> 
</td>
<td> 
</td>
<td>- Məntiqi cəmin inkarı dövrə sxemidir
- İfadə: Y = $\overline{(A + B)}$
- Doğruluq cədvəli:
-
<table>
<tr><th>A</th><th>B</th><th>Y</th></tr>
<tr><td>0</td><td>0</td><td>1</td></tr>
<tr><td>0</td><td>1</td><td>0</td></tr>
<tr><td>1</td><td>0</td><td>0</td></tr>
<tr><td>1</td><td>1</td><td>0</td></tr>
</table></td>
</tr>
<tr>
<td>XOR sxemi</td>
<td> 
</td>
<td>
</td>
<td>- Məntiqi cəmi istisna dövrə sxemidir
- İfadə: Y = $A \oplus B = \bar{A}B + A\bar{B}$
- Doğruluq cədvəli:
-
<table>
<tr><th>A</th><th>B</th><th>Y</th></tr>
<tr><td>0</td><td>0</td><td>0</td></tr>
<tr><td>0</td><td>1</td><td>1</td></tr>
<tr><td>1</td><td>0</td><td>1</td></tr>
<tr><td>1</td><td>1</td><td>0</td></tr>
</table></td>
</tr>
<tr>
<td>XNOR sxemi</td>
<td> 
</td>
<td> 
</td>
<td>- Məntiqi cəmin istisnasını inkar dövrə sxemidir
- İfadə: Y = $\overline{A \oplus B} = A \odot B$
$= \overline{AB} + AB$
- Doğruluq cədvəli:
<table>
<tr><th>A</th><th>B</th><th>Y</th></tr>
<tr><td>0</td><td>0</td><td>1</td></tr>
<tr><td>0</td><td>1</td><td>0</td></tr>
<tr><td>1</td><td>0</td><td>0</td></tr>
<tr><td>1</td><td>1</td><td>1</td></tr>
</table></td>
</tr>
</table>

7) Sensor

Sensor temperatur, təzyiq, işıq, ultrasəs dalğaları və maqnit qüvvəsindəki fiziki dəyişiklikləri cərəyan şiddəti və gərginlik kimi elektrik dəyişikliklərə çevirən cihazdır. Bu cihaz demək olar ki, bütün məişət avadanlıqlarında, elektronik ölçmə cihazlarında, sənaye robotlarında, zavod avtomatikasında və tibbi avadanlıqlarda istifadə olunur.

Cədvəl 7: səciyyəvi sensor növlərini və onların funksiyalarını təsvir edir.

Hissənin adı	Görünüşü	İstifadəsi
Temperatur sensoru		- Sənayedə temperatur ölçülməsinə dəqiq nəzarət çox əhəmiyyətlidir və temperatur sensorları bütün sənaye üzrə, o cümlədən, mikrodalğalı sobalarda, soyuducularda, çap qurğularında, robotlarda, mühərrik temperaturlarında və avtomat, tibbi, ofis avadanlıqlarında və elektronikada istifadə olunur. - Temperatur sensoruna metal müqavimətli termometr lampası, termistor və termobuxar qurğuları aiddir.
Maqnit sensoru		- Hall (Hol) elementi adlanan yarımkeçiriciyə cərəyan tətbiq edildikdə və bircinsli maqnit axınının sıxlığı perpendikulyar şəkildə elementə tətbiq edildikdə elektrohərəkət qüvvəsi meydana gəlir. - Josephson (Cozefson) cihazları və Hol cihazları. - Mövqe sensoru, sabit cərəyan (SC) transformatorları və avtomobilin yanacağı səviyyəsinin indikatorları buraya aiddir.
Təzyiq sensoru		- Yarımkeçirici cihazlar və digərləri material kimi istifadə olunur və təzyiq tətbiq edildikdə, müqavimət və müqavimətin qiyməti1 dəyişir. - Məişət cihazlarında, avtomobil, tibbi, sənaye ölçmə cihazlarında, avtomatik nəzarət, ətraf mühitə nəzarət və elektrik avadanlıqları kimi müxtəlif tətbiq sahələri mövcuddur. - Ən geniş istifadə olunan sensorlardan biridir.
İşıq sensoru		- İşıq sensoru işıq enerjisinin xarakteristikalarından istifadə edir. O, işıqda və ya işığın ultrabənövşəyi sahəsində daşınan məlumatı elektrik siqnala çevirir və insan gözü ilə sezilə bilən işığı aşkar edir. Bu termin elektronik cihazların ümumi adıdır. - Zavodun avtomatlaşdırılması, mürəkkəb ölçmələr, işıq, rəng, fotoelektrika və təsvirlərin tanınması kimi cihazlarda istifadə olunur. - İşıq diodu və CdS elementi.
Ultrasəs sensoru		- İnsan qulağının eşitmədiyi yüksək tezlikli (təqribən 20 kHz və daha yüksək) səs dalğaları olan ultrasəs dalğalarının xarakteristikalarından istifadə edən sensorlardır. - Ultrasəs sensoru ultrasəs dalğalarının elementlərinin ötürülməsi və qəbulu funksiyasını yerinə yetirir. Maqnetos - Triksiya materialı (ferrit və s.), gərginlik, elektrik deformasiya materialı (Rochelle (Roşel) duzu, barium titanat və s.) sensor materialı kimi istifadə olunur. - Sürətin ölçülməsi, məsafənin ölçülməsi, konsentrasiya və yapışqanlığın ölçülməsi, ultrasəs sınağı, ultrasəs qalınlıq sayğacı, ultrasəs mikroskopu, ultrasəs diaqnostika cihazı, ultrasəs KT skanı üçün istifadə olunur.
İnfraqırmızı şüa sensoru		- İşığın dalğa uzunluğunun gözlə görünən işıqdan daha uzun olduğu sahələrində infraqırmızı şüaların aşkar edilməsi üçün istifadə olunur və infraqırmızı şüa sensoru və ya piroelektrik sensor adlanır. - Müstəqil şəkildə infraqırmızı şüanın surətini çıxarıb işığın qarşısını kəsməklə dəyişiklikləri aşkar edən aktiv növü və işıq yayan cihaz olmadan kənardan qəbul edilmiş infraqırmızı şüalardakı dəyişikliyi oxuyan manual növü mövcuddur. - İnfraqırmızı temperatur sensorları infraqırmızı şüalardan istifadə edərək təsvirlərin emalında, obyektlərin tanınması, cinayət və yanğınların aşkar edilməsində və bitkilərin və heyvanların ekoloji müşahidəsində tətbiq olunur.

8) Tez-tez istifadə olunan digər elektrik və elektronik komponentlərin adları və simvolları Cədvəl 8-də təsvir olunub.

Cədvəl 8: Tez-tez istifadə olunan digər elektrik və elektronik komponentlərin adları və simvolları

Hissənin adı	Görünüşü	Simvol	İstifadəsi
Kristal generator			- Kristal hissənin (pizoelektrik təsir) vibrasiya xüsusiyyətindən istifadə etməklə müəyyən tezlikli saat generatoru dövrəsi üçün istifadə olunur. - X-tal, əsasən, kristal generatorun ümumi adıdır. - X-tal sabit tezlik meydana gətirən tezlik generasiya edən mənbədir və müxtəlif elektronik rabitə avadanlıqlarında, ölçmə alətlərində, kompüter və oxşar qurğularda istifadə olunur.
Səsucaldan			- Səsucaldan elektrik siqnalı mexaniki siqnala (səs dalğası) çevirən cihazdır.
Zummer			- Keramik zummer elektrik vibrasiyanı səsə çevirən cihaz qismində istifadə olunur. - Səsucaldandan fərqli olaraq, cihaz müəyyən zolaqda yüksək səs meydana gətirir və bu hissə insanın eşitmə orqanları tərəfindən qəbul olunan hissədir. - Mobil telefonlarda geniş istifadə olunur
Aşağı tezlikli konnektor (Səs üçün qoşma hissəsi və Jack (başlıq))		 (a)	- Həmçinin RCA qoşma hissəsi adlanır və səsin və video siqnalların ötürülməsində geniş istifadə olunur. - Adətən, kompozit video siqnalı (sarı) və ya stereo səs siqnalı (ağ, qırmızı) üçün istifadə olunan RCA qoşma hissələri mövcuddur. - (a) qoşma hissəsi, (b) jack (başlıq)
Aşağı tezlikli konnektor (Audio tıxac və Jack (başlıq))		 (b)	- Elektrik gitara, səsucaldan, mikrofon və ötürmə xəttindəki audio siqnal daxil olmaqla, müxtəlif növ siqnallar üçün istifadə olunan 6.35mm (3.5mm) 2 kontaktlı səs tıxacı (mono tipli) və 3 kontaktlı səs tıxacı (stereo tipli) - Səs başlığı, audio başlığı, qulaqlıq başlığı və başlıq tıxacı kimi məlum olan aşağı tezlikli konnektor, adətən, analoq səs siqnalları üçün istifadə olunan elektrik konnektorlardır.
Bananşəkilli konnektor			- Bir siqnal xəttini birləşdirərkən istifadə olunan konnektordur. - Bananşəkilli konnektor kabellərin avadanlığa qoşulması üçün istifadə olunan (adətən, erkək üçün bananşəkilli tıxac, dişi üçün isə banan ştepseli və ya banan başlığı) tək kabelli (bir keçirici) elektrik konnektordur. - Xüsusilə Avropada 4 mm diametrli konnektordan da istifadə olunur, lakin bütün bananşəkilli konnektorlar 4 mm diametrli hissələrə qoşulmayacaq və 2 mm diametrə malik bananşəkilli konnektorlar da mövcuddur.

SC konnektor		- SC konnektor (və ya konnektorun bir ümumi növü üçün SC tıxac) sabit cərəyan (SC) enerjisini ötürmək üçün istifadə olunan elektrik konnektordur - SC konnektorlar bir-birini əvəz edə bilməyən daha standart növlərə malikdir. Qeyri-müvafiq mənbələrin və yüklərin təsadüfən birləşməsinin qarşısını almaq üçün SC konnektorların uyğun ölçüləri və quruluşu seçilə bilər.
Koaksial birləşdirici		- Bir çox bayonet (BNC) növlü koaksial konnektorlar istifadə olunur. - Birbaşa plataya quraşdırılır və plata torpaqlanır.
Çoxçıxıntılı elektronik konnektor		- Tez-tez kompüterlərə və periferik cihazlara qoşulmaq üçün istifadə olunan konnektordur. - 10 çıxıntıdan ibarətdir. - 25 çıxıntılı D-SUB konnektoru ardıcıl birləşmə üçün istifadə olunur və 36 çıxıntılı konnektor çap qurğuları üçün istifadə olunur.
Plata konnektorlar		- Çap platasına kabel qoşmaq və ya iki çap platasını bir-birinə qoşmaq üçün istifadə olunan konnektordur. - Çıxıntıların sayı 1 çıxıntıdan bir neçə çıxıntıya qədər dəyişə bilər.
İD ştepsellər		- İD birbaşa substrata lehimlənə bilmədikdə, təkrar istifadə olunduqda və PROM kimi müntəzəm şəkildə dəyişdirilməli olduqda istifadə olunur. - DIP, PLCC, SMT, QFP və digər növləri mövcuddur.

3. Elektrik və elektronika üçün ümumi simvollar

Cədvəl 9 elektrik və elektronikanın ümumi simvollarını təsvir edir.

Cədvəl 9: Elektrik və elektronikanın ümumi simvolları

Hissənin adı		Simvol	İstifadəsi
Enerji mənbəyi	SC		- (+) və (-) fərqləndirilir və tok axını baş verir. Uzun tərəf (+) və qısa tərəf (-)-dir. - Avtomobil batareyaları, batareyalar və fotoelementlər SC enerji mənbələridir.
	DC		- Evə daxil olan tok axınıdır. - (+) və (-) fərqləndirilmir. - Gərginlik və tezlik göstərilir (110/240 [V], 50/60 [Hz]) - DC enerji enerji mənbəyi televizor, soyuducu, səs qurğuları və s. üçün istifadə olunur.
Ampermetr	SC-lı ampermetr		- Şkalada ‘A’ simvolunun altında ‘_’ ilə işarələnən və ya ‘DCA’ və (+) simvola və ya terminalda qırmızı işarəyə malik SC-lı ampermetr
	DC-lı ampermetr		- Şkalada ‘A’ simvolunun altında ‘~’ ilə işarələnən və ya ‘ACA’ və (+) simvolu və ya terminalda qırmızı işarənin olmadığı DC-lı ampermetr

Voltmetr	SC-lı voltmetr		- Şkalada ‘V’ simvolunun altında ‘_’ ilə işarələnən voltmetr
	DC-lı voltmetr		- Şkalada ‘V’ simvolunun altında ‘~’ ilə işarələnən voltmetr
Torpaqlama qurğusu	 (a) (b) (c)		- Torpaqlama, adətən, (-) qütbdür. - (a) şassi və ya ümumi torpaqlama qurğusunu göstərir - (b) qrunt torpaqlamasını və ya baza torpaqlamasını göstərir. - (c) siqnal torpaqlamasıdır (analoq, rəqəmli).
Elektrik naqillər	 (a) (b) (c)		- (a) Polad naqilin qoşulması: kontakt polad naqil - (b) (c) Keçiricinin keçirməsi: kontaktsız polad naqil

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Hissənin ucunu əyməyin.
2. İtki olmaması üçün diqqətli olun.
3. Hissələrin əzilmiş və zədələnmiş olmamasına diqqət edin.

Təcrübə mərhələləri

1. Təcrübə **üçün** avadanlığı, alətləri və materialları hazırlayın.
2. Rezistorların, kondensatorların, yarımkeçiricilərin, sarğıların və digər hissələrin real hissələrini təsnifləşdirin və müqayisə edin.
3. Boş buraxılmış hissələrdə (Cədvəl 10) rezistorların, kondensatorların, yarımkeçiricilərin və çarxların komponentlərinin fiziki quruluşlarını, simvollarını və istifadə qaydalarını qeyd edin.
4. Hissənin simvoluna baxaraq hissənin adını qeyd edin (Cədvəl 11). Elektronik komponentlərin funksiyalarını və istifadə qaydalarını başa düşməyə çalışın.

4. Təmizlik və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlıq və materialları müvafiq qaydada saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulu təcrübi olaraq məşq etdikdə aşağıdakıları yerinə yetirdimi? 1. Simvolları və qütbləri izah etdimi? 2. Elektronik komponentlərin xarakteristikalarını və istifadə qaydasını izah etdimi? - Hissələrə baxaraq simvolları çəkdimi? - Simvola baxaraq hissənin adını qeyd etdimi? - Simvolları təsvir edib onların istifadə məqsədini izah etdimi? 3. Hissənin dəqiq qiymətini və vahidini oxudumu?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat			
Təcrübənin adı	Elektronik komponentin hissələrinin oxunması	Tarix	
Şöbə		Ad	

1. Təcrübə nəticələrinin cədvəli

Cədvəl 10: Hissələrin fiziki quruluşu, simvolları və tətbiqi

Növ	Adı	Görünüş	Simvol	İstifadəsi
Rezistor	R rəngi			
	SMD R			
	Dəyişən R			
Kondensator	Maylar K			
	Keramik K			
	Elektrolit K			
İnduktivlik çarxı	Ən yüksək İ			
	Transformator			

(Cədvəl 11) Hissənin adını qeyd edin.

Simvol					
Ad					
Simvol					
Ad					
Simvol					
Ad					
Simvol					
Ad					
Simvol					
Ad					

2. Baxış və izah

(1) Aşağıdakı cədvəldə hissənin adını qeyd edin.

Görünüş					
Ad					
Görünüş					
Ad					

(2) Elektronik komponentlərin aktiv və passiv komponentlərini qeyd edin.

3. Multitesterlə gərginliyin, cərəyan şiddətinin və müqavimətin ölçülməsi

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Gərginliyi, cərəyan şiddətini və müqaviməti dəqiq ölçə biləcək;
2. Multitesterlə gərginliyi, cərəyan şiddətini və müqaviməti dəqiq ölçə biləcək.

Təcrübə materialları:

1. Rezistor: Növünə görə, 5ea(100Ω, 330Ω, 1kΩ, 5.6kΩ, 10kΩ), LED: qırmızı
2. Transformator: Giriş gərginliyi 220/100V, çıxış gərginliyi 3, 6, 9. 12V
3. Maket sxem and birləşdirici kabel

Avadanlıq və alətlər:

1. Multitester: Analoq və rəqəmli
2. SC elektrik mənbəyi: 0~30V/3A SC

Mövzu ilə əlaqəli biliklər

1. Elektronik komponentlərə baxış

Multitester gərginlik (V), cərəyan şiddəti (A) və müqavimət (Ω) kimi elektrik vahidləri tək alətlə ölçməyə imkan verən çoxfunksiyalı alətdir.

Bu üsulla ölçülən fiziki vahidin adı VOM (Volt-Om-Milli ampermetr) və həmçinin multimetr və ya cərəyan testeri adlanır.

Ümumilikdə, multitesterin əməliyyat prinsipinə və funksiyasına uyğun şkala diski ilə ölçülən qiyməti göstərən analoq növü və ölçülən dəyəri birbaşa rəqəmlərlə göstərən rəqəmli növü mövcuddur. Rəqəmli növ geniş istifadə olunur, çünki analoq növü ilə müqayisədə istifadəsi daha sadədir, ölçmələr daha dəqiqdir və dəyişən cərəyanın ölçülməsi mümkündür.

Bu multitesterlərin görünüşü istehsalçıdan asılı olaraq dəyişir, lakin onların işləmə prinsipi və istifadəsi eynidir. Digər fərqlərə ölçmə aralığı, ölçmə xətasının aralığı, alətin daxili müqaviməti və alətin fiksasiya üsulu aiddir (şaquli, üfüqi).

(a) Analoq növü (b) Rəqəmli növü

Şəkil 1: Multitesterin növləri

1) Analoq multitesterin adı və funksiyası

Multitesterdə hər aralığın SC-nın gərginliyini, DC gərginliyini və SC şiddətini ölçmək üçün hərəkət edən sarğıya malik sadə ampermetr, əlavə müqavimət cihazı, klassifikator və rektifikator bir-birinə qoşulur.

Müqaviməti ölçmək üçün batareya (1.5[V] və ya 3 [V]) və dəyişən rezistor alətin daxilinə quraşdırılıb. Alətin şkala diski gərginlik, cərəyan şiddəti və müqavimət üçün müxtəlif şkalalara malikdir. Seçilmiş şkala fırlanan selektor çeviricisi tərəfindən seçilmiş standarta uyğundur.

(1) Əsas funksiyalar

Analoq multitesterin əsas funksiyası gərginliyi, cərəyan şiddətini və müqaviməti ölçməkdir. Əlavə olaraq, batareyanın dolma səviyyəsini, kondensatoru, elektrik boşaldıcını və s. ölçə bilər.



Şəkil 2: Analoq multitesterin ön paneli

Cədvəl 1: Analoq multitesterin adı və funksiyası

Ad	Funksiya
1. Hərəkət edən sarğı növlü sayğac	- Gərginlik, cərəyan şiddəti, müqavimət və s. ölçülməsi üçün alətlər - Şkalada Ohms. DC V, AC V, DC mA, I_{CEO}, dB qeyd olunub.
2. Müqavimət qiymətinin oxunma şkalası	- Multitesterdə istifadə olunan sayğac analoq ampermetr olduğu üçün cərəyan axdıqda göstərici hərəkət edir - Buna görə də, müqavimət qiyməti nə qədər kiçikdirsə, göstərici bir o qədər çox hərəkət edir, 0 Om-da və müqavimət sonsuz olduqda göstərici hərəkət etmir. Yəni, göstərici gərginlik və ya cərəyan şiddətinin ölçülmüş qiymətinin əksinə göstərilir.

3. Gərginlik və cərəyan qiymətinin oxunma şkalası	- Göstərilən ən yüksək qiymətlər 10, 50 və 250-dir. - Aralıq 10, 50 və 250-yə bölünən ədədlərdir və buna görə də qiymətləri 10 qat, 50 qat və ya 250 qat oxuya bilərsiniz.
4. 0 nöqtəsinə nizamlama	- Ölçməyə başlamazdan əvvəl əqrəbin 0 nöqtəsinə nizamlandığından əmin olun və zəruri olduqda, yastı uclu vintaçandan istifadə edərək nizamlayın. - Bunu etməkdə məqsəd odur ki, əqrəb 90° aralığında sola və sağa hərəkət etsin.
5. 0 Ω nöqtəsinə nizamlama	- Ommetr kimi sayğaclardan istifadə edərkən, əqrəb om şkalasında dəqiqliklə "0" nöqtəsinə nizamlanmalıdır. - Məqsəd müqaviməti daha dəqiq ölçməkdir və bu ölçmə gərginlik və ya cərəyan şiddətinin ölçülməsindən asılı olmamalıdır.
6. Tranzistorun müəyyən edilməsi	- Qırmızı və yaşıl (LED) lampadır, qırmızıya keçirildikdə PNP (müsbət-mənfi-müsbət) qütblü və yaşıl olduqda NPN (mənfi-müsbət-mənfi) qütblü tranzistordur. - Hər iki lampa yanıb-sönürsə, bu, ölçmənin aparıldığı tranzistorun boşluqları arasında kəsilmə xətasına işarə edir. Heç biri yanıb-sönmürsə, kollektor və emitter arasında qısa qapanmaya işarə edir.
7. Tranzistorun sınaq ştepseli	- Tranzistoru yoxlayarkən, yoxlanacaq tranzistorun qütblərini ştepseldə qeyd olunmuş qütblər arasında düzgün şəkildə daxil edir. - PNP və NPN tranzistorlarını sınaqdan keçirmək mümkündür.
8. Qurğuşun naqilin giriş terminalı	- Müəyyən bir obyekti ölçmək üçün qurğuşun çubuğun qoşulduğu terminaldır. - Təhlükəsiz cihazıdır, beləliklə, qurğuşun çubuğun tıxacı daxil edildikdə əllə təmasda olmur. - Adətən, (+) qırmızı və (-) qara qurğuşun çubuqdur. V, Ω, A: Bu terminal SC axını istisna olmaqla, bütün ölçmələr üçün istifadə olunur. SC 10A: Geniş aralıqlı cərəyan ölçmə terminalıdır. SC girişini qəbul edir. COM: bütün ölçmələrdə torpaqlama (COM) xəttini qəbul edir.
9. SC mA	- 2.5, 25, 250 [mA]-a qədər, SC axını ölçüldükdə 10 [A]-a qədər ölçmələr apara bilər. - 10 [A] ölçmə ştepseli ayrı ştepsel kimi istifadə olunur.
10. Om (Ω)	- Müqaviməti ölçmə aralığı X1Ω, X10Ω, X1kΩ, X10kΩ arasında dəyişə bilər. - Naqillərin keçirmə vəziyyəti yoxlana bilər.
11. DC V	- Burada DC gərginliyi ölçülür və ölçmə aralığı 10, 50, 250, 1000 [V] aralığında dəyişə bilər. - SC və DC gərginliyini ölçərkən, gözlənilən ölçmə qiymətindən iki dəfədən daha geniş aralıqda ölçmək tövsiyyə olunur.
12. SC V	- Burada SC gərginliyi ölçülür və ölçmə aralığı 10, 50, 250 və 1000 [V] arasında dəyişə bilir. - SC və DC gərginliyini ölçərkən, gözlənilən ölçmə qiymətindən iki dəfədən daha geniş aralıqda ölçmək tövsiyyə olunur.
13. Aralığın seçilməsi	- Müqaviməti, gərginliyi və cərəyanı ölçərkən düzgün aralığı seçə bilən çevirici növü tərəfindən 20 aralıq seçilə bilər.

2) Rəqəmli multitesterin adı və funksiyası

Rəqəmli multitester daşına bilən, iki ekranlı, istehsalın yoxlanması, tədqiqat və iş sahəsində yoxlama kimi bir çox tətbiq sahələri olan rəqəmli multimterdir.

Çoxsaylı funksiyaları: ACV, DCV, ACI, DCI, R, C, Hz, Temp*, Davamlılıq, diod sınağı, MAX/MIN, REL, dBm, Hold, MX+B, 1/X, REF%, dB, müqayisə. Aralığın əllə və avtomatik nizamlanması.

(1) Əsas funksiyalar

(Şəkil 3) Rəqəmli multitesterin önpaneli

Cəvdəl 2: Rəqəmli multitesterin adı və funksiyası

Ad	Funksiya
1 Enerji çeviricisi	- Enerji təchizatını işə salır və ya kəsir
2 Əsas ekran	- Ölçmə nəticələrini və parametrləri göstərir
3 V Ω ⇥ ⊣⊢ Giriş terminalı	- Bu terminal SC/DC şiddətlərinin ölçməsi istisna olmaqla, bütün ölçmələr üçün istifadə olunur
4 COM Terminalı	- Bütün ölçmələrdə torpaqlama (COM) xəttini qəbul edir. - Terminal və torpaq arasındakı ən yüksək müqavimət 500 Vpk-dır.
5 SC/DC 0.5A Terminalı	- Aşağı cərəyan axınını ölçmə terminalı. SC/DC giriş axınını qəbul edir. - SC: 500μA~0.5A, DC: 500μA~0.5A
6 SC/DC 12A Terminalı	- Yüksək cərəyan şiddətini ölçmə terminalı. SC/DC giriş axınını qəbul edir.
7 Ölçmə açarları	- Ölçmə açarlarının üst sırası gərginlik, cərəyan, müqavimət, tutum və tezlik kimi sadə RMM (rəqəmli multimetr) ölçmələrində istifadə olunur. Ölçmə funksiyasının alt sırası daha mürəkkəb funksiyalar üçün istifadə olunur. - Hər açar birinci və ikinci dərəcəli funksiyalara malikdir. İkinci dərəcəli funksiya SHIFT (sürüşmə) açarı ilə birlikdə qiymətləndirilir.

Yuxarı ölçmə düymələri		Funksiya
- DCV		SC gərginliyini ölçür
- DCI (SHIFT→DCV)		SC şiddətini ölçür
- ACV		DC gərginliyini ölçür
- ACI (SHIFT→ACV)		DC şiddətini ölçür
- DCV+ACV		SC + DC gərginliyini ölçür
- DCI+ACI		SC + DC şiddətini ölçür.
- Müqavimət/ Davamlılıq		Seçilən rejimdən asılı olaraq, müqaviməti və davamlılığı ölçür.
- dB (SHIFT→ Ω/)		dB ölçür.
- Diod/Tutum		Seçilmiş rejimdən asılı olaraq, diodları yoxlayır və ya tutumu ölçür.
- dBm (SHIFT→)		dBm ölçür.
- Hz/P		Seçilmiş rejimdən asılı olaraq, siqnalın tezliyini və ya ötürülmə müddətini ölçür.
- TEMP (SHIFT → Hz/P)		Temperaturu ölçür.
- 2ND		2-ci açarda olduğu kimi, 2-ci ekrandakı ölçmə obyektini seçir. 1 saniyədən artıq müddətdə basıb saxladıqda 2-ci ekran sönür.
Aşağı ölçmə düymələri		**Funksiya**
- REL		Nisbi qiyməti ölçür.
- REL# (SHIFT→REL)		Nisbi qiymətin ölçülməsi üçün istinad qiymətini manual şəkildə nizamlayır.
- MX/MN		Maksimal və minimal qiyməti ölçür.

- MATH (SHIFT→MX/ MN)		Math (Riyazi) ölçmə rejiminə daxil olur. Dəstəklənən riyazi funksiyalara MX+B, REF% və 1/X daxildir.
- HOLD		Hold (Saxla) funksiyasını aktivləşdirir.
- COMP (SHIFT→HOLD)		Müqayisəli ölçmə funksiyasını aktivləşdirir.
- TRIG		Trigger kənardan həyəcanlandırma rejiminə nizamlandıqda nümunələrin əllə yığılması funksiyasını işə salır.
- INT/EXT (SHIFT→TRIG)		Triggerin mənbəyini daxili və ya xarici kimi dəyişdirir.
- MENU		Sistemin nizamlamalarında, ölçmələrin nizamlamalarında, temperaturun ölçülməsi nizamlamalarında, G/Ç nizamlamalarında və USB yaddaş nizamlamalarında konfiqurasiya menyusuna daxil olur.
- SHIFT/EXIT		SHIFT (sürüşmə) düyməsi kimi tətbiq edildikdə, ölçmə açarları ilə əlaqəli ikinci dərəcəli funksiyalara daxil olmaq üçün istifadə olunur
- AUTO/ENTER		AUTO (avto) düymə kimi istifadə olunduqda, avtomatik sıralama üçün seçilmiş funksiyanın aralığını müəyyən edəcək. ENTER (daxil ol) düyməsi kimi istifadə olunduqda, daxil edilən qiyməti və ya menyunun bəndini təsdiqləyəcək
- İstiqamət düymələri		İstiqamət düymələri menyu sisteminin və düzəliş qiymətlərinin naviqasiyası üçün istifadə olunur. Yuxarı və aşağı istiqamət düymələri həm də gərginlik və cərəyan şiddətinin ölçülməsi üçün manual qaydada aralıqları nizamlayır. Sol və sağ istiqamət düymələri həmçinin yüksək, orta və aşağı sürət səviyyələri arasında dəyişir və yeniləyir.

3) SC elektrik mənbəyi

SC elektrik mənbəyi rəqəmli alətlə sabit gərginliyi və sabit cərəyan şiddətini davamlı şəkildə variasiya edə bilən sabit cərəyanlı stabilləşdirilmiş elektrik təchizatıdır. O, yalnız (+) yox, həm də (-) qütblü elektrik enerjisi təchiz edə bilər.

Çıxış gərginliyi davamlı olaraq 0-30 V arasında və ya 0-60 V arasında dəyişə bilən iki çıxış qiymətinə və 5 V (2A) sabit gərginlik çıxış qiymətinə malikdir. Cərəyan şiddətinin qiyməti davamlı şəkildə cərəyan şiddəti limitini 0-3 arasında dəyişə bilən sabit cərəyan metodudur. Bunlar iki dəyişən çıxış qiymətləridirlər.

Gərginlik və cərəyan şiddəti, müvafiq olaraq, iki RVM (rəqəmli voltmetr) və RAM (rəqəmli ampermetr) ilə ölçülür. Xüsusilə, sabit 5V SC çıxış qiyməti temperatur mühafizəsinin yük mühafizəsinə nisbətinə bərabərdir və bu SC 5 V çıxış qiyməti, adətən, TTL İD dövrə sxemlərində istifadə olunur.

(1) Hər hissənin adı və funksiyası

Şəkil 4: SC enerji təchizatının ön paneli

1. Elektrik çeviricisi: Əsas elektrik çeviricisi
2. H.A.Y.V.M Nizamlaması: Həddən artıq yüksək gərginlikdən mühafizənin nizamlaması (OUTOUT-A, OUTOUT-B)
3. Nizamlama/Sıfırlama: Həddən artıq yüksək gərginlikdən mühafizənin nizamlanması/sıfırlanması (OUTOUT-A, OUTOUT-B)
4. Çıxış terminalı (+, -): 5 V sabit gərginlik (maksimal 3A) çıxış terminalı
5. Çıxış terminalı (-): dəyişən çıxış qiymətinin (-) terminalı (OUTOUT-A, OUTOUT-B)
6. Çıxış terminalı (GND): dəyişən çıxış qiymətinin torpaqlama terminalı (OUTOUT-A, OUTOUT-B)
7. Çıxış terminalı (-): dəyişən çıxış qiymətinin (+) terminalı (OUTOUT-A, OUTOUT-B)
8. Əsas nəzarət düyməsinin çıxış gərginliyi: çıxış gərginliyi (0~30V)
9. Əsas nəzarət düyməsinin çıxış gərginliyi: çıxış cərəyan axını (0~3A)
10. Çıxış ampermetri: 0 ~ 3.00A göstərilir (OUTOUT-A, OUTOUT-B)
11. Nominal cərəyanın çıxış lampası: həddən artıq yüklənmə meydana gəldikdə və ya nominal cərəyan axını olduqda qırmızı LED işığı yanır.
12. Nominal gərginlik çıxış lampası: nominal gərginlik meydana gəldikdə yaşıl LED işığı yanır (OUTOUT-A, OUTOUT-B)

(2) Çıxış gərginliyinin ardıcıl birləşməsindən istifadə

A-CH və B-CH dəyişən çıxış qiymətləri bir-birinə ardıcıl şəkildə istifadə oluna bilər və bu yolla çıxış gərginliyi 60 V-a qədər yüksələ bilər. Yəni, A çıxış (30 V) + B çıxışı (30 V) = ardıcıl birləşmə çıxışı (60 V) əldə olunur.

- Elektrik çeviricisini söndürün.
- A-CH çıxış terminalının (-) qütbünü B-CH çıxış terminalının (+) qütbünə qoşun.
- Bütün çıxış gərginlik nizamlama düymələrini saatın əks istiqamətində çevirin və elektrik çeviricisini YANDIRIN.
- İlk əvvəl çıxış gərginliyini elə nizamlayın ki, A-CH və B-CH çıxışlarında tələb olunan gərginlik səviyyəsinin yarısı qədər gərginlik meydana gəlsin. Bu halda, iki kanal çıxışının cəmi tələb olunan səviyyədə gərginliyə malik olacaq. [Qeyd] Hər iki kanalın çıxış gərginliyinin tələb olunan gərginlik səviyyəsinin yarısına bərabər olması zəruri deyil. Müəyyən qədər fərqli olsa da, iki kanal çıxışının cəmi tələb olunan gərginlik səviyyəsində ola bilər.
- Cərəyan şiddətinin limitindən istifadə edərkən, A-CH və B-CH çıxış terminallarını qısa

müddət ərzində qısaldın və cərəyanı nizamlama düyməsini arzuolunan limit qiymətinə çevirin. Nizamlamadan sonra bütün qısa terminalları təkrar açın.

(3) (+, -) gərginlikdən istifadə

(+) Gərginlik və (-) gərginlik OP-AMP kimi dövrələr üçün zəruridir. Bu gərginlik aşağıdakı kimi istifadə oluna bilər.

- A-CH terminalını (+) gərginlik çıxışı, B-CH terminalını (-) gərginlik çıxışı təyin edin və A-CH terminalının (-) çıxış terminalına qoşun.
- (+) və (-) çıxış gərginliyinin ümumi çıxış kabelini ümumi terminala qoşun. [Qeyd] Zəruri olduqda, şassinin torpaqlanmasına imkan vermək üçün ümumi terminal Şəkil 3-də göstərilən şəkildə GND-ya qoşula bilər.
- Elektrik çeviricisini işə salın və çıxış gərginliyini tələb olunan gərginlik səviyyəsinə nizamlamaq üçün hər kanalın düyməsini çevirin.

2. Multitesterlə ölçmə

1) Müqavimətin ölçülməsi

Şəkil 5 (a) müqaviməti ölçmə dövrəsini təsvir edir.

(1) Analoq multitester

- COM (-) arasında qara sınaq başlığını və qırmızı sınaq başlığını V·Ω·A terminalına qoşun. [Şəkil 5, (b)]
- Aralığı seçmə çeviricisini (Şəkil 5 (b)) hissəsində göstərilən şəkildə OM ölçmə aralığına nizamlayın.
- Multitesterin iki sınaq başlığını qısaldın və başlığın resistor şkalasında tam sıfırda olacağı şəkildə 0Ω ADJ nöqtəsinə nizamlayın. Bu zaman 0Ω ADJ həcmi saat istiqamətində çevrildikdə batareya 0 şkalasına nizamlanmırsa, deməli, müqavimətin ölçülməsi üçün zəruri batareya tükənib. 2 batareyanı × 1, × 10, × 1K üçün 1.5V, × 10K üçün 9V səviyyəsində əvəz edin.

  Qeyd: Hər dəfə ölçmə aralığının mövqeyini dəyişdikdə sıfıra nizamlamanı yerinə yetirməlisiniz. Belə ki, müqaviməti ölçərkən ölçmə dövrəsinə elektrik təchiz olunduqda, alət zədələnə və ya yana bilər.

  ReziStorun hər iki başlığının sınaq başlığını (Şəkil 5 (a, b)) bəndlərində təsvir olunan şəkildə qoşun. Bu zaman ölçmə aralığını şkala diskinin göstərişi ilə müəyyən əmsal qədər artırdıqda, ölçülməli olan müqavimət qiyməti əldə olunur. (Cədvəl 3)

Cədvəl 3: Müqavimət və şkalanın aralığının ölçülməsi

Aralıq	Əmsal	Ölçmə aralığı	Qeyd
R(×1)	1 multiple	0~200 Ω	- Müqavimətin dəqiq ölçülməsi üçün 5 ~ 50 aralığında ölçülmələrin aparılması tövsiyə olunur. - Digər aralıqlarda ölçülən qiymətin oxunması çətinləşir.
10R(×10)	10 multiple	0~2,000 Ω	
1,000R(×1k)	1,000 multiple	0~200kΩ	
10,000R(×10k)	10,000 multiple	0~2,000kΩ	

(2) Rəqəmli multitester

- Müqavimətin ölçülməsini aktivləşdirmək üçün Ω/ düyməsinə basın.
- COM (-) arasındakı qara sınaq başlığını və VΩ terminalının qırmızı sınaq başlığına qoşun. (Şəkil 5 (c))

Qeyd: Ω/ düyməsi iki dəfə basıldıqda ardıcıllığın ölçülməsi funksiyası aktivləşəcək.

Aşağıda göstərildiyi kimi, rejim dərhal müqavimət rejiminə keçəcək.

Cədvəl 4: Müqavimət aralığının seçilməsi

Avtomatik aralıq	Avtomatik aralıq seçmə funksiyasını işə salmaq/söndürmək üçün AUTO düyməsinə basın		
Aralığın əllə seçilməsi	Aralığı seçmək üçün Yuxarı və ya Aşağı düyməsinə basın. AUTO göstəricisi avtomatik olaraq sönəcək. Müvafiq aralıq məlum deyilsə, ən geniş aralığı seçin.		
Seçilə bilən müqavimət aralıqları	**Aralıq**	**Dəqiqlik**	**Dəqiq aralıq**
	500 Ω	10mΩ	510.00Ω
	5kΩ	100mΩ	5.1000 kΩ
	50kΩ	1Ω	51.000 kΩ
	500kΩ	10Ω	510.000 kΩ
	5MΩ	100Ω	5.1000 MΩ
	50MΩ	1kΩ	51.000 MΩ



(a) Müqaviməti ölçmə dövrəsi



(b) Analoq Multimetr



(c) Rəqəmli multimetr

Şəkil 5: Müqavimətin ölçülməsi

2) SC gərginliyinin ölçülməsi

Şəkil 6 (a) SC gərginliyini ölçmə dövrəsini təsvir edir.

(1) Analoq multitester

- COM (-) arasındakı qara sınaq başlığını və qırmızı sınaq başlığını V·Ω·A terminalına qoşun [Şəkil 6 (a)]
- Şəkil 6 (b)-də göstərildiyi kimi, seçim çeviricisini DCV (sabit cərəyan gərginliyi) ölçmə aralığına nizamlayın.
- Nəzərdə tutulmuş gərginlik səviyyəsini ölçmək üçün qırmızı sınaq başlığını (+) qütbə,

qara sınaq başlığını (-) qütbə paralel şəkildə birləşdirin. (Şəkil 6 (b)-yə istinad edin.
- Bu zaman göstərici əqrəbin yerləşdiyi şkalanın SC üçün səciyyəvi olan qara ölçmə xəttində oxunacaq.
- 10, 50 və 250 seçimlərində şkala diskinin müvafiq şkalası birbaşa oxunur, şkala xəttində 2.5 250-yə bölünür və 10 şkala xəttində 1000 100-ə vurulur. (Cədvəl 5)
- (Cədvəl 5) DCV, ACV, DCmA ölçmə aralığı və şkalası

Aralıq	Şkala	Əmsal	Qeyd
2.5	250	1/100	10, 50 və 250 seçimlərində şkala diskinin müvafiq şkalası birbaşa oxunur, şkala xəttində 2.5 250-yə bölünür və 10 şkala xəttində 1000 100-ə vurulur.
10	10	1	
50	50	1	
250	250	1	
1,000	10	100	

(2) Rəqəmli multitester

- COM (-) arasındakı qara sınaq başlığını və qırmızı sınaq başlığını V·Ω·A terminalına qoşun (Şəkil 6 (a))
- SC və ya DC-ı ölçmək üçün DCV (sabit cərəyan gərginliyi) və ya ACV (dəyişən cərəyan gərginliyi) düymələrini basın. DC və SC gərginliyini ölçmək üçün ACV və ya DCV düymələrini eyni zamanda basın.
- Aşağıda göstərildiyi kimi, rejim dərhal DC, SC və ya DC və SC rejiminə keçəcək.

Cədvəl 6: Müqavimət aralığının seçilməsi

Avtomatik aralıq	Avtomatik aralıq seçmə funksiyasını işə salmaq/söndürmək üçün AUTO düyməsinə basın		
Aralığın manual qaydada nizamlanması	Aralığı seçmək üçün Yuxarı və ya Aşağı düyməsinə basın. AUTO göstəricisi avtomatik olaraq sönəcək. Müvafiq aralığı məlum olmadıqda, ən geniş aralığı seçin.		
Seçilə bilən müqavimət aralıqları	**Aralıq**	**Dəqiqlik**	**Şkala**
	500 mV	10µV	510.00 mV
	5V	0.1mV	5.1000 V
	50V	1 mV	51.000 V
	500V	10 mV	510.00V
	750V	100 mV	765.0V
	1000V	100 mV	1020.0V



(a) DCV ölçmə dövrəsi | (b) Analoq multimetr | (c) Rəqəmli multimetr

Şəkil 6: SC gərginliyin seçilməsi

3) SC şiddətinin ölçülməsi

Şəkil 7 (a) SC şiddətini ölçmə dövrəsini təsvir edir.

(1) Analoq multitester

- COM (-) arasındakı qara sınaq başlığını və qırmızı sınaq başlığını V·Ω·A terminalına qoşun. (Şəkil 7 (b))
- Şəkil 7 (b)-də göstərildiyi kimi, seçim çeviricisini DCmA (sabit cərəyan ampermetri) ölçmə aralığına nizamlayın.
- Ölçmə nöqtəsinə elektrik enerjisinin təchizatını kəsin və onu ardıcıl şəkildə ölçmə alətinə birləşdirin, elektrik enerjisi təchizatının qütblərinə diqqət edin.
- [Şəkil 7 (b)-də göstərilən şəkildə qırmızı sınaq başlığını (+ terminal) yüksək gərginlik girişinə və qara sınaq başlığını (- terminal) aşağı gərginlik girişinə birləşdirin.
- SC axınının şkalası, adətən, DCV şkalası ilə istifadə olunur və göstərilən ədədin miqyas əmsalına vurulması ilə oxunur.

(2) Rəqəmli multitester

- Giriş cərəyanından asılı olaraq, sınaq başlığını 10A terminalına və COM terminalına və ya SC/DC 0.5A terminalına və COM terminalına qoşun.
- 0.5A-dan kiçik cərəyan axınları üçün 0.5A terminalından, 12A-ya qədər cərəyan axınları üçün 10A terminalından istifadə edin. Ekran oxunan göstəricini yeniləyir.
- COM (-) arasındakı qara sınaq başlığını və qırmızı sınaq başlığını V·Ω·A terminalına birləşdirin. (Şəkil 6 (b))
- Sabit və ya dəyişən cərəyanı ölçmək üçün müvafiq olaraq, SHIFT → DCV və SHIFT → ACV düymələrinə basın. Sabit və dəyişən cərəyanı ölçmək üçün SHIFT düyməsinə, sonra isə DCV və ACV düymələrinə eyni zamanda basın.
- Aşağıda göstərildiyi kimi, rejim dərhal SC, DC və ya SC və DC rejiminə keçəcək.

Cədvəl 7: Müqavimət aralığının seçilməsi

Avtomatik aralıq	Avtomatik aralıq seçmə funksiyasını işə salmaq/söndürmək üçün AUTO düyməsinə basın		
Aralığın əllə seçilməsi	Aralığı seçmək üçün Yuxarı və ya Aşağı düyməsinə sıxın. AUTO göstəricisi avtomatik olaraq sönəcək. Müvafiq aralıq məlum deyilsə, ən geniş aralığı seçin.		
Seçilə bilən müqavimət aralıqları	**Aralıq**	**Dəqiqlik**	**Tam aralıq**
	500μA	10nA	510.00 μA
	5mA	100nA	5.1000 mA
	50mA	1μA	51.000 mA
	500mA	10 μA	510.00 mA
	5A	100 μA	5.1000A
	10A	1 mA	12.000A

(a) DCmA ölçmə dövrəsi

(b) Analoq multimetr

(c) Rəqəmli multimetr

Şəkil 7: SC şiddətinin ölçülməsi

4) SC gərginliyinin ölçülməsi

Şəkil 8 (a) DC gərginliyini ölçmə dövrəsini təsvir edir.

(1) Analoq multitester

- COM (-) arasındakı qara sınaq başlığını və qırmızı sınaq başlığını V·Ω·A terminalına qoşun [Şəkil 8 (b)]
- [Şəkil 8] (b)-də göstərildiyi kimi, seçim çeviricisini ACV (dəyişən cərəyan gərginliyi) ölçmə aralığına nizamlayın.
- Bu zaman göstərici əqrəbin yerləşdiyi şkalanın kalibrasiya xəttinin qırmızı xəttindən oxunacaq.
- Ölçülən DC gərginlik qiyməti RMS qiyməti ilə ifadə olunur, buna görə də maksimal qiymət lazım olduqda, göstərici -yə vurulmalıdır.
- Nəzərdə tutulan gərginlik səviyyəsini ölçmək üçün [Şəkil 8] (b)-də göstərilən şəkildə qırmızı sınaq başlığını (+) qütbə və qara sınaq başlığını (-) qütbə paralel şəkildə birləşdirin.

(2) Rəqəmli multitester

- SC gərginlik səviyyəsinin ölçülməsi və SC gərginlik səviyyəsinin ölçmə metodu eynidir.



(a) ACV ölçmə dövrəsi | (b) Analoq multimetr | (c) Rəqəmli multimetr

Şəkil 8: SC gərginliyinin ölçülməsi

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Multitesterdən istifadə edərkən qırmızı sınaq başlığını (+) başlıq terminalına və qara sınaq başlığını (-) başlıq terminalına qoşun.
2. Voltmetr və ampermetrə malik multitesterdən istifadə edərkən ölçülməli gərginlik və cərəyan şiddəti əvvəlcədən təxmin edilməlidir və rejim çeviricisi müvafiq aralıqda ölçülməlidir.
3. SC gərginliyini və ya DC gərginliyini ölçərkən ölçmə aparmazdan əvvəl rejim çeviricisinin müqavimətinin ölçmə aralığında və ya cərəyan aralığında olduğundan əmin olun. Əks halda, alət zədələnəcək.
4. Ölçülməli gərginlik səviyyəsi və cərəyanın miqyası təxmin oluna bilmirsə, əvvəlcə çeviricini maksimal ölçmə aralığına gətirin.
5. Ommetrdən istifadə edərkən seçim çeviricisi ilə ölçmə aralığını dəyişən zaman hər dəfə aləti 0Ω göstəricisinə nizamlayın.
6. Multitesterdən istifadə etmədikdə çeviricisi həmişə SÖNÜLÜ (OFF) mövqeyinə çevirin. SÖNÜLÜ terminalı mövcud deyilsə, onu SC V (və ya DC V) mövqeyinə çevirin.

Təcrübə mərhələləri

1. Avadanlığı, alətləri və ya materialları təcrübə üçün hazırlayın (Analoq/Rəqəmli multimetr).

2. Müqavimətin ölçülməsi

1) Müxtəlif müqavimət qiymətlərinə malik 5 ədəd rəngli rezistoru maket sxeminə qoşun.
2) Multitesterin 0 nöqtəsinə nizamlayın.
3) Məlum olmayan müqaviməti ölçün.
   - Kalibrasiya edilmiş multimetrlə məlum olmayan müqavimət qiymətini ölçün. Qurğuşun çubuğa toxunmamağa diqqət edin.
   - Əqrəb dayandıqda, Ω ölçmə şkalasının qiymətini oxuyun və Cədvəl 8-də qeyd edin.
   - Göstərici əqrəb mərkəz nöqtəyə deyil, sonsuzluğa (∞) yaxınlaşırsa, 0 nöqtəsinə nizamlayın və seçim çeviricisini hər dəfə çevirdikdə ölçmə aparın. X10, 1k və ya X10k qiymətlərinə çevirin.



3. DC gərginliyinin ölçülməsi

1) Elektrik təchiz edən transformatoru hazırlayın və birinci dərəcəli terminala (birinci: 220 [V], ikinci: 0-12 [V], 800 [mA]) DC 220 [V] tətbiq edin.
2) Multitesterin çeviricisini DC V250 nöqtəsinə çevirin.
3) DC fərqli qütblərə malik olmadığı üçün, ölçmə sınaq başlığının qırmızı və ya qara rəngdə olmasından asılı olmayaraq, elektrik enerjisi transformatorunun birinci tərəfinə qoşun.
4) Əqrəb şkalada dayansa, göstəricini oxuyun və Cədvəl 9-da qeyd edin.
5) Multitesterin başlığını elektrik enerjisi transformatorunun ikinci dərəcəli 0, 3, 6, 9, 12 tərəflərinə qoşun və Cədvəl 6-dakı göstəricinin qiymətini oxuyun.





4. SC gərginliyinin ölçülməsi

1) SC enerji mənbəyini və 9 V-luq batareyanı hazırlayın.
2) Qırmızı sınaq başlığını (+) giriş terminalına və qara sınaq başlığını (-) terminala qoşun.
3) Multitesterin çeviricisini DCV10 mövqeyinə çevirin.
4) Qırmızı sınaq başlığını batareyanın müsbət (+) qütbünə və qara sınaq başlığını mənfi (-) qütbə birləşdirin və əqrəbin şkala diskində göstərdiyi nöqtəni Cədvəl 10-a daxil edin və ölçülmüş qiyməti qeyd edin.
5) SC elektrik enerjinin 4) bəndində göstərilən şəkildə 5 V-luq sabit çıxış gərginlik səviyyəsini ölçün və qeyd edin.



5. Sabit cərəyanın ölçülməsi

1) SC elektrik enerji mənbəyini, LED (qırmızı), rəngli müqavimət (100Ω, 330Ω, 1kΩ, 5.6 kΩ, 10 kΩ) maket sxemini və birləşdirici kabeli hazırlayın.
2) Multitesterin rejim çeviricisini DCmA 250 mövqeyinə gətirin.
3) Qırmızı və qara sınaq başlıqlarını yüklə (LED və ya rezistor) birlikdə ardıcıl şəkildə SC elektrik mənbəyinin sabit 5 V-luq terminalına birləşdirin.
4) Ampermetr sağda göstərilən şəkildə dövrəyə ardıcıl birləşdirilməlidir.
5) Yükdə axan cərəyanı ölçün və Cədvəl 11-də qeyd edin.





6. Təmizlik və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlığı və materialları müvafiq şəkildə saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulu təcrübi olaraq məşq etdikdə aşağıdakıları yerinə yetirdimi? 1. Gərginlik səviyyəsinin, cərəyan axınının və müqavimətin dəqiq ölçməsini apardımı? 2. Multitesterlə gərginlik səviyyəsinin, cərəyan axınının və müqavimətin ölçməsini apardımı?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat			
Sınağın adı	Multitesterlə gərginliyin, cərəyan şiddətinin və müqavimətin ölçülməsi	Tarix	
Kafedra		Ad	

1. Təcrübə nəticələrinin cədvəli

Cədvəl 8: Məlum olmayan müqavimətin ölçülməsi

Nömrə	Müqavimətin qiyməti (R_C)	Ölçülmüş qiymət (R_M)		Xəta (R_M - R_C)
		Analoq	Rəqəmli	
1				
2				
3				
4				
5				

Cədvəl 9: DC gərginlik səviyyəsinin ölçülməsi

Transformator	Gərginlik	Ölçülmüş gərginlik qiyməti		Yerləşdiyi aralıq
		Analoq	Rəqəmli	
Birinci dərəcəli	220V			
	110V			
İkinci dərəcəli	12V			
	9V			
	6V			
	3V			

Cədvəl 10: DC gərginliyinin ölçülməsi

Şkaladakı göstəricilər (Qırmızı xətlə çəkilib)	Ölçülən qiymət
	____[V]

Cədvəl 11: SC axınının ölçülməsi

Yük	Ölçülmüş qiymət		Hesablanan qiymət	Xəta	Yerləşdiyi aralıq
	Analoq	Rəqəmli			
100Ω					
330Ω					
1kΩ					
5.6kΩ					
10kΩ					
LED					

2. Baxış və izah

(1) Aşağıdakı şəkil analoq multitesterin adıdır. Müvafiq rəqəmlərlə işarələnmiş hissələrin adını yazın.



(2) Aşağıdakı şəkil analoq multitesterin şkala diskini göstərir. Rejim çeviricisinin vəziyyəti Cədvəl 12-dəki kimidirsə, əqrəbin göstərdiyi qiymətlərin hər biri üçün ölçmə qiymətini qeyd edin.

Cədvəl 12: Analoq multitesterlə ölçmə

(1) Müqavimət şkalasının oxunması <Şkalanın oxunması>



Yerləşdiyi aralıq	Ölçülmüş qiymət
Ohm X1	[Ω]
Ohm X10	[Ω]
Ohm X1k	[Ω]
Ohm X10k	[Ω]

(2) SC gərginliyinin ölçülməsi < Şkalanın oxunması>



Yerləşdiyi aralıq	**Ölçülmüş qiymət**
DC 2.5V	[V]
DC 10V	[V]
DC 50V	[V]
DC 255V	[V]

(3) SC axınının ölçülməsi < Şkalanın oxunması>



Yerləşdiyi aralıq	**Ölçülmüş qiymət**
DC 2.5mA	[mA]
DC 25mA	[mA]
DC 250mA	[mA]
DC 10A	[A]

(4) DC gərginliyinin ölçülməsi < Şkalanın oxunması>



Yerləşdiyi aralıq	**Ölçülmüş qiymət**
DC 10V	[V]
DC 50V	[V]
DC 250V	[V]
DC 1000V	[V]

4. Ossiloqraf və funksiya generatoru ilə siqnalların, gərginliklərin və tezliklərin ölçülməsi

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Ossiloqrafın ölçdüyü siqnalların qiymətlərini oxuya biləcək;
2. Funksiya generatorunun tezliyini nizamlaya biləcək;
3. SC elektrik mənbəyinin gərginliyini və cərəyan şiddətini nizamlaya biləcək;
4. Generatorunun dalğa formasının gərginliyini, tezliyini və dövrünü ölçə biləcək.

Təcrübə materialları:
1. Rezistor: növünə görə, 5ea (100Ω, 330Ω, 1□, 5.6□, 10□), LED: qırmızı
2. Transformator: giriş gərginliyi 220/100V, çıxış gərginliyi 3, 6, 9. 12V
3. Maket sxem və birləşdirici kabel

Avadanlıq və alətlər:
1. Funksiya generatoru
2. Tezlik sayğacı
3. Rəqəmli generator

Mövzu ilə əlaqəli biliklər

1. Sadə elektronik avadanlığa baxış

(1) Siqnal generatoru

1) Aşağı tezlikli generator

Aşağı tezlikli generator 20 Hz-dən 200 kHz-ə qədər eşidilən tezlik meydana gətirən siqnal generatorudur və Wien körpüsü dalğalanma metodundan istifadə edir və bu üsuldan müxtəlif audio dövrələrin xarakteristikalarını ölçmək üçün siqnal mənbəyi qismində istifadə edir.

Müxtəlif tezliklər meydana gətirmək üçün dalğa formalarını meydana gətirən dövrələr sinusiod dalğalarla yanaşı, həm də kvadratşəkilli və üçbucaqşəkilli siqnallar meydana gətirir və meydana gələn dalğalara attenyuator birləşdirməklə nəzarət olunur.

2) Yüksək tezlikli generator

Yüksək tezlikli generator 200 kHz və ya daha yüksək tezliyə malik siqnal generatorudur və aşağı tezlikli siqnal meydana gətirə bilər (400 Hz-dan 1 kHz-a qədər). Bundan əlavə, buraya dalğalanan tezlik generatorları, FM stereo siqnal generatorları və xüsusi tezliklər ətrafında sabit zolaq üzrə hərəkət edən TV və video siqnalları meydana gətirən iz generatorları aiddir.

3) Funksiya generatoru

Funksiya generator dörd funksiyaya malik generatordur: funksiyanın generasiyası, impulsun generasiyası, dalğalanan tezlik generasiyası və tonal impulsun generasiyası. Tezliyin aralığı 0.2 Hz-dən 2 MHz-ə qədər dəyişir və sinus dalğası, üçbucaqşəkilli dalğa, kvadratşəkilli dalğa, xətti yüksələn amplitudalı dalğa və impuls dalğası kimi müxtəlif dalğa formaları meydana gətirir.

Xüsusilə, impulsun generasiyası kvadratşəkilli dalğaya bənzəyən, lakin fərqli dövrə malik düzbucaqşəkilli dalğa meydana gətirir. Şəkil 1-də göstərildiyi kimi, təsir faktoru impulsun eninin impulsun dövrünə nisbəti kimi təyin olunur və aşağıdakı kimi faizlə ifadə olunur.

Kvadratşəkilli dalğanın təsir faktoru 50%-dir, impulsun təsir əmsalı isə, adətən, 5-95% arasında olur.

$$Təsir\ faktoru = \frac{İmpulsun\ eni}{Dövr} \times 100[\%]$$



Şəkil 1: Təsir faktorunun impulsu

3) Funksiya generatorundan istifadə

(Şəkil 2) 1μHz ~ 20 MHz tezlik zolaq xətti olan və sinus, kvadrat, üçbucaq, impuls, xətti yüksələn amplitudalı, səs və SC standart dalğa şəkilləri meydana gətirən AFG-3021B qurğusunu göstərir. 10 mVpp-dan 10 Vpp-a qədər amplituda aralığına malikdir.





Fan – ventilyator
Power switch – elektrik açarı
Power socket and fuse – elektrik ştepseli və qoruyucu
Trigger input – trigger girişi
USB port – USB portu
MOD input – MOD girişi
OUT and IN 100 MHz REF – Çıxış və Giriş 100 MHz REF

Şəkil 2: AFG-3021B qurğusunun ön və arxa paneli

Cədvəl 1: Funksiya generatorunun adı və funksiyası

Ön panelə baxış		Funksiya
- LCD ekran	TFT rəngli LCD ekran, 480 x 272 dəqiqlik.	
- Rəqəm klaviaturası		Rəqəmli klaviatura qiymətləri və parametrləri daxil etmək üçün istifadə olunur. Klaviatura tez-tez seçim düymələri və dəyişən çarxı ilə birlikdə istifadə olunur.
- Hərəkət sükanı		Hərəkət sükanı qiymətlərə və parametrlərə düzəliş etmək üçün istifadə olunur.  Decrease Increase **Decrease – azalt** **İncrease – artır**
- Seçim düymələri		Parametrlərə düzəliş edərkən rəqəmləri seçmək üçün istifadə olunur.
- Gözləmə rejiminə keçid düyməsi		Gözləmə rejiminə keçid düyməsi funksiya generatorunu işə salmaq (yaşıl) və ya qoşmaq üçün istifadə olunur.

- Çıxış terminalları	  	AM, FM, PWM, PM, SUM və ya dalğalanan tezlik funksiyası üçün modulyasiya edən çıxış terminalıdır. SYNC çıxış terminalı əsas çıxış siqnalının sıfır faza mövqeyi ilə eyni fazada olan TTL sxem səviyyəsində siqnal meydana gətirir. Çıxış müqaviməti 50 Ω-dur. Əsas çıxış terminalıdır. Çıxış müqaviməti 50 Ω-dur.
- Əsas çıxış		Siqnal çıxışlarını yandırmaq və ya söndürmək üçün istifadə olunan çıxış düyməsidir.
- USB əsas konnektoru		USB əsas konnektoru verilənlərin yaddaşda saxlanması və bərpa olunması, həm də aparat təminatını yeniləmək üçün istifadə olunur.
- Çıxış göstəriciləri		Çıxış göstəricisi yaşıldırsa, çıxışın aktiv olduğuna işarə edir.
- Əməliyyat düymələri	 	Siqnal düyməsi siqnal növünü seçmək üçün istifadə olunur FREQ/ Rate düyməsi tezlik və ya seçmə sürətini nizamlamaq üçün istifadə olunur. AMPL siqnalın amplitudasını nizamlayır. SC komponenti nizamlayır UTIL düyməsi yaddaşda saxlama və təkrar çağırma seçimlərinə giriş, uzaq məsafədəki interfeysi (USB, GPIB, LAN) nizamlamaq, DSO əlaqəsindən istifadə etmək, aparat təminatının versiyalarını təzələmək və baxış keçirmək, kalibrasiya seçimlərinə giriş, çıxış müqavimətini nizamlamaq, dili dəyişmək və ya kömək menyusuna giriş üçün istifadə olunur. ARB müəyyən siqnal parametrlərini nizamlamaq üçün istifadə olunur.

		MOD, Sweep və Burst düymələri modulyasiyanı, dalğalanan tezlik və impuls nizamlamalarını və parametrlərini nizamlamaq üçün istifadə olunur.
		Preset düyməsi əvvəlcədən nizamlanmış rejimi təkrar çağırmaq üçün istifadə olunur.
11 Funksiya düymələri: F1~F6		LCD ekranın aşağı hissəsində nümayiş olunan funksiyaları aktivləşdirir.

Arxa panelin görünüşü		Funksiya
OUT və IN 10 MHz REF		10 MHz istinad çıxış tezliyi. 10 MHz istinad giriş tezliyi. 10 MHz REF IN torpaqlama kabeli CH1 (ƏSAS) cə CH2-dən 42 Vpk izolyasiyaya və şassi torpaqlama kabelinə malikdir.
Datçikin girişi		Xarici datçik girişi. Xarici datçik siqnallarını qəbul etmək üçün istifadə olunur.
MOD girişi		Modulyasiyalı giriş terminalıdır.
Elektrik ştepselinin girişi və sığortası		Elektrik girişi: 100-240V DC, 50-60 Hz. Sığorta: AFG-3021 & AFG-3031: T0.63A/250V
Elektrik enerjisi çeviricisi		Əsas elektrik enerjisi çeviricisidir.
USB B portu		USB B konnektoru funksiya generatorunu uzaq məsafədən istifadə etmək məqsədilə kompüterə qoşmaq üçün istifadə olunur.
LAN portu		Ethernet portu uzaq məsafədən nəzarət üçün istifadə olunur (RJ45 konnektoru).
GPIB		Kompüterə uzaq məsafədən nəzarət üçün 24 çıxıntılı dişi GPIB konnektorudur.

Ekran



CH1 parameter window – CH1 parametr pəncərəsi
CH1 waveform display – CH1 siqnal ekranı
CH2 parameter window – CH2 parametr pəncərəsi
CH2 waveform display – CH2 siqnal ekranı
Soft menu keys – virtual menyu klaviaturası

Parametr pəncərəsi	Bu pəncərələr CH1 və CH2 üçün parametr qiymətlərinə düzəliş etmək üçün istifadə olunur.
Siqnal ekranı	Siqnal ekranı hər kanal üçün gözlənilən siqnal çıxışını göstərmək üçün istifadə olunur.
Virtual menyu düymələri	Virtual menyu düymələrinin altında yerləşən funksiya düymələri (F1~F6) virtual düymələrə uyğun gəlir.

(2) Ossiloqraf

Ossiloqraf elektrik siqnalını ekranda göstərən qrafik nümayiş cihazıdır. O, siqnalın ölçülərinin (amplitudasının) zamanla necə dəyişdiyini göstərir. Şaquli ox (Y oxu) gərginlikdə dəyişiklikləri, üfüqi ox (X oxu) zamanda dəyişiklikləri göstərir, ekranın intensivliyi və ya parlaqlığı, adətən, Z oxu ilə göstərilir. Bu sadə qrafik siqnal haqqında çoxlu məlumat verir. Bu qrafikdə aşağıdakıları görə bilərsiniz:

- Siqnalın giriş vaxtı və gərginliyi
- Rəqs edən siqnalın tezliyi
- Giriş siqnalına dövrənin reaksiyasında dəyişikliklər
- Siqnalı dəyişdirmək üçün funksiyası zəifləyən element
- SC və DC siqnallarının miqdarı
- Siqnaldakı küy və vaxt ərzində siqnalın küyünün dəyişməsi

Ossiloqraf kiçik televizorla eyni funksiyanı icra edir, lakin ondan fərqli olaraq, ekranda şkalaya və bir çox nəzarət düymələrinə malikdir. Ossiloqrafın ön panelində adətən, şaquli hissə, üfüqi hissə, sinxronlaşdırılmış və s. hissələr var. Həmçinin ekran hissəsi və qoşma giriş hissəsi mövcuddur.

1) Ossiloqrafdan istifadə məqsədi

Ossiloqraf televizor mexanikasından fizika mütəxəssislərinə qədər istifadə olunan çoxməqsədli avadanlıqdır və elektronik avadanlıqları layihələndirən, istehsal edən və təmir edən hər kəs üçün zəruridir. Buna görə də, ossiloqraf televizorun təsvirləri gücləndirmə və şaquli və üfüqi gücləndirmə prinsiplərindən istifadə edərək məlum olmayan orto və DC gərginliyini, fazanı və modulyasiya dərəcəsini ölçə bilər.

Məsələn, ossiloqrafdan istifadə elektronika ilə məhdudlaşmır və müvafiq dalğa çeviricisi ilə müxtəlif göstəricilər ölçülə bilər. Bu çeviricilər səs, mexaniki sürtünmə, təzyiq, işıq, temperatur kimi fiziki stimulları elektrik siqnallara çevirir. Ossiloqrafın tətbiq imkanları genişdir, məsələn, avtomobil mühəndisləri avtomobil mühərrikindəki titrəmələri və tibbi tədqiqatçılar beyin dalğalarını ossiloqrafla ölçür.

2) Ossiloqrafın növləri

Ossiloqraflar bir çox tətbiq sahələrinə malikdir, məsələn, birkanallı, ikikanallı, dördkanallı və rəqəmli yaddaş ossiloqrafları, RT (radio tezlikli) ossiloqraflar və yaddaş qabiliyyətli genişləmə ossiloqrafları buraya aiddir. O, həm də sxemi təhlil edən qurğuya və eyni vaxtda rəqəmli siqnalları ölçə bilən16-48 kanallı ossiloqrafa malikdir.

3) Rəqəmli ossiloqrafın əməliyyat prinsipi

Rəqəmli ossiloqrafın bir çox sistemi analoq ossiloqrafla eynidir, lakin buraya verilənlərin emal sistemi (VES) əlavə olunub. (Şəkil 3) Rəqəmli ossiloqraf VES-dən siqnallara dair bütün verilənləri toplayır və ekranda göstərir. Rəqəmli ossiloqrafın rabitə qurğusu dövrəyə birləşdirilibsə, şaquli sistem siqnalı analoq ossiloqraf kimi ölçür. Toplama sistemində analoq-rəqəmli çeviricisində (ARÇ) siqnal nümunələri ayrı-ayrı nöqtələrdə götürülür və sonra rəqəmli qiymətlər gərginliyə çevrilir.



Vertical system – şaquli sistem
Attenyuator – zəiflədici
Vertical amplifier – şaquli gücləndirici
Acqusition system – toplama sistemi
Processing – emal
Memory – yaddaş
Sample clock – nümunə saat
Horizontal system – üfüqi sistem
Clock time base – saat vaxt bazası
Digital display system – rəqəmli ekran sistemi
Analog to digital converter – analoq-rəqəmli çevirici

Şəkil: RYO (rəqəmli yaddaş ossiloqrafının) blok diaqramı

Bu rəqəmli qiymətlər nümunə nöqtələri adlanır. Üfüqi sistemdəki nümunə saat ARÇ-nin nümunələri hansı tezliklə götürdüyünü göstərir. Saatla nümunələrin götürülmə tezliyi nümunə tezliyi adlanır və nümunə/saniyə vahidi ilə ölçülür. ARÇ-dən əldə edilmiş nümunə nöqtələri yaddaşda bir və ya bir neçə nümunə nöqtələrindən ibarət siqnallar dəsti kimi saxlanır. Bu siqnal nöqtələri yığılaraq, bir siqnal qeydləri meydana gətirir. Ümumilikdə, siqnal qeydlərini formalaşdıran siqnal nöqtələrinin sayı qeydə alma uzunluğu adlanır. Sinxronlaşdırma sistemi qeydin başlama və başa çatma nöqtələrini müəyyən edir və qeyd nöqtələri yaddaşda saxlandıqdan sonra ekranda göstərilir.

Osilloqrafın işindən asılı olaraq, nümunə nöqtələrinin əlavə emalı yerinə yetirilə bilər və ekrandakı siqnallar daha aydın görünə bilər. Siz həm də sinxronlaşma nöqtəsindən əvvəl nə baş verdiyini görmək üçün azad sinxronlaşdırma funksiyasından istifadə edə bilərsiniz. Yəni rəqəmli ossiloqraf analoq ossiloqrafda olduğu kimi, həm də şaquli, üfüqi və sinxronlaşdırma nizamlamalarına malik olmalıdır.

4) Rəqəmli ossiloqrafın hissələrinin funksiyası

Rəqəmli ossiloqrafın funksiyaları Şəkil 3 və Cədvəl 2-də təsvir olunub.



Şəkil 3: Rəqəmli ossiloqraf

Cədvəl 2: Rəqəmli ossiloqrafın adı və funksiyası

Ön panelin görünüşü		Funksiyası
1 LCD ekranı	7” WVGA TFT rəngli LCD. 800 x 480 əksetmə qabiliyyəti, geniş bucaqlı nümayiş	
2 Rəqəm klaviaturası		Menu Off düyməsindən istifadə edərək ekranın menyu sistemini gizlədə bilərsiniz.
3 Menyu düymələri		Yan menyu və aşağı menyu düymələri LCD istifadəçi interfeysindəki virtual menyulardan seçim etmək üçün istifadə olunur. Menyudakı bəndləri seçmək üçün ekran panelinin aşağı hissəsində yerləşmiş 7 aşağı menyu düyməsindən istifadə edin. Menyudan dəyişəni seçmək və ya seçim etmək üçün panelin kənarındakı kənar menyu düymələrindən istifadə edin.
4 Çap düyməsi		Çap düyməsi konfiqurasiyadan asılı olaraq, sürətli yaddaşda saxlama və sürətli çap düyməsidir.
5 Nizamlama çarxı və seçim düyməsi		Dəyişən çarxı qiymətləri artırmaq/azaltmaq və ya bir parametrdən digərinə keçmək üçün istifadə olunur. Seçim düyməsi seçim etmək üçün istifadə olunur.
6 Funksiya düyməsi	Funksiya düymələri GDC-1072B qurğusunda müxtəlif funksiyaları daxil etmək və konfiqurasiya etmək üçün istifadə olunur.	
		Avtomatik ölçmələri konfiqurasiya edir və tətbiq edir.
		Kursorun ölçmələrini konfiqurasiya edir və tətbiq edir.
		GW Instek tətbiqetmələrini konfiqurasiya edir və tətbiq edir.
		Verilənlərin toplanması rejimini konfiqurasiya edir.
		Ekran nizamlamalarını konfiqurasiya edir.
		Kömək menyusunu göstərir.
		Siqnalların, təsvirlərin, panel nizamlamalarının yaddaşda saxlanması və təkrar çağırılması üçün istifadə olunur.
		Çap düyməsini, ekranda göstərilən vaxtı və dili, rabitə qurğusunun bərpasını və kalibrasiyasını konfiqurasiya edir. Həmçinin faylların xidməti menyusuna girişi təmin edir.

7 Əsas çıxış	Avtomatik nizamlama, İşə salma/Dayanma, tək və ilkin nizamlamalar	
	Autoset	Triggeri, üfüqi və şaquli şkalanı avtomatik şəkildə nizamlamaq üçün avtomatik nizamlama düyməsinə sıxın.
	Run/Stop	Siqnalların toplanmasını dondurmaq (dayandırmaq) və ya davam etdirmək (işə salmaq) üçün sıxın.
	Single	Toplama rejimini tək həyəcanlandırma rejiminə nizamlayır.
	Default	Ossiloqrafı ilkin nizamlamalara qaytarır.
8 Üfüqi nəzarət	Üfüqi nəzarət düymələri kursorun mövqeyini dəyişmək, baza vaxt nizamlamalarını təyin etmək və siqnalları daha yaxından müşahidə etmək üçün istifadə olunur.	
		Üfüqi vəziyyət Mövqe çarxı siqnalların ekranda üfüqi şəkildə yerləşdirilməsi üçün istifadə olunur. Çarxa basdıqda mövqe sıfır nöqtəsinə nizamalanacaq.
		Şkala Şkala çarxı üfüqi şkalanı dəyişmək üçün istifadə olunur (TIME/DEV).
	Zoom	**Miqyas** Miqyas düyməsini üfüqi vəziyyət çarxı ilə birlikdə istifadə edin.
	▶/II	**Başlat/Fasilə** Başlat/Fasilə düyməsi siqnalların miqyas rejimində hərəkətini müşahidə etməyə imkan verir.
	Search	Mövcud deyil.
	← →	Mövcud deyil.
	Set/Clear	Mövcud deyil.
9 Trigger nəzarət düymələri	Trigger nəzarət düymələri həyəcanlanma səviyyəsinə nəzarət etmək üçün istifadə olunur.	
		Səviyyə çarxı Trigger səviyyəsini nizamlamaq üçün istifadə olunur. Çarxa basdıqda, rejim sıfır nöqtəsinə nizamlanacaq.
	Menu	**Trigger menyu düyməsi** Trigger menyusunu göstərmək üçün istifadə olunur.

		50% düyməsi Trigger səviyyəsini göstəricinin yarı qiymətinə nizamlayır (50%).
		Kənar müdaxilə ilə həyəcanlandırma Siqnalın dərhal həyəcanlandırmaq üçün sıxın.
10 Üfüqi nəzarət düymələri		Şaquli VƏZİYYƏT Siqnalın şaquli mövqeyini nizamlayır. Üfüqi mövqeni sıfıra nizamlamaq üçün çarxa basın.
		**Kanal menyusu düyməsi** Kanalı nizamlamaq və konfiqurasiya etmək üçün CH1~4 düymələrinə basın
		**(Şaquli) şkala çarxı** Kanalın şaquli şkalasını nizamlayır. (TIME/DIV)
11 Riyazi, istinad və şin düymələri		**Riyaziyyat düyməsi** Riyazi funksiyaları nizamlamaq və konfiqurasiya etmək üçün istifadə edin.
		İstinad düyməsi İstinad siqnallarını nizamlamaq və ya aradan qaldırmaq üçün istinad düyməsinə basın
		ŞİN düyməsi Mövcud deyil.
12 Kanal girişləri		**Kanal girişləri** Giriş siqnallarını qəbul edir. Giriş müqaviməti: 1MΩ. Tutum: 16pF CAT I
		Xarici trigger girişi Xarici trigger siqnallarını qəbul edir. Yalnız 2 kanal modelində mövcuddur.
13 USB əsas portu, nümunələrin bərpası terminalları		**USB Əsas portu** TypeA, 1.1/2.0 ilə uyğundur. Verilənlərin ötürülməsi üçün 2V istifadə olunur.
		**Torpaqlama terminalı** Ümumi torpaqlama üçün DUT torpaqlama başlığını qəbul edir.

		Nümunələrin bərpa çıxışı Nümunələrin bərpası çıxışı nümunələrin bərpası üçün istifadə olunur. O, həm də nizamlana bilən çıxış tezliyinə malikdir. İlkin rejimdə bu port nümunələrin bərpası üçün 2 Vpp, 1 kHz tezliyə malik kvadratşəkilli siqnallar buraxır.
14 Seçim düyməsi		Mövcud deyil.
15 Aşağı menyu düymələri		Menyu LCD ekranın aşağı hissəsində göstərilir.
16 Elektrik çeviricisi		Elektrik təchizatını yandırma/söndürmək üçün istifadə olunur. I: ON O: OFF

Ekran



Memory length and sample rate – yaddaşın uzunluğu və nümunə toplama sürəti
Trigger level – trigger səviyyəsi
Waveform frequency – siqnalın tezliyi
Channel indicators – kanalın göstəriciləri
Memory bar – yaddaş çubuğu
Trigger position – trigger vəziyyəti
Acquisition mode – toplama rejimi
Channel status – kanalın vəziyyəti

Analoq siqnallar	Analoq giriş siqnalının formasını göstərir. Kanal 1: Sarı Kanal 2: Mavi
Kanal göstəriciləri	Kanal göstəriciləri aktivasiya edilmiş hər kanal üçün siqnal formasının sıfır volt səviyyəsini göstərir. Hər hansı aktiv kanal tam rənglə göstərilir.
	Analoq kanal göstəricisi
	İstinad siqnalının göstəricisi
	Riyazi göstərici
Virtual menyu düymələri	Virtual menyu düymələrindən aşağıda yerləşən funksiya düymələri (F1~F6) virtual düymələrdir.
Trigger vəziyyəti	Triggerin vəziyyətini göstərir.

Üfüqi vəziyyət	Üfüqi şkalanı və vəziyyəti göstərir.
Trigger səviyyəsi	Ekran torunda trigger səviyyəsini göstərir.
Yaddaş çubuğu	 Göstərilən siqnalın daxili yaddaşla müqayisədə nisbəti və mövqeyi. Aktiv kanalın rəngi həm də yaddaş çubuğu daxilindəki siqnalın rəngi kimi göstərilir
Trigger vəziyyəti	Trig'd Həyəcanlanıb. PrTrig əvvəlcədən həyəcanlanma Trig? Həyəcanlanmayıb, ekran yenilənməyib Stop Həyəcanlanma dayanıb. Həmçinin İşə sal/Dayan hissəsində göstərilir Roll Fırlanma rejimi Auto Avto trigger rejimi
Toplama rejimi	Normal rejim İmpulsları aşkar etmə rejimi Orta rejim
Siqnalın tezliyi	Trigger mənbəyinin tezliyini göstərir. Tezliyin 2 Hz-dan aşağı (daha aşağı tezlik limiti) olduğunu göstərir.
Trigger konfiqurasiyaları	Triggerin mənbəyi, bucağı, gərginliyi, birləşməsi.
Üfüqi vəziyyət	Üfüqi şkala, üfüqi vəziyyət
Kanalın vəziyyəti	Kanal 1, SC birləşməsi, 2V/Div

5) Rabitə qurğusu

Ossiloqraf siqnalla əlaqələndirildikdə yaxşı fəaliyyət göstərir və bunun üçün siz rabitə qurğusuna ehtiyac duyacaqsınız. Rabitə qurğusu siqnalı sizin dövrədən ossiloqrafa istiqamətləndirən təkgirişli cihazdır. Bu cihazlar dövrədəki bir nöqtə ilə rabitə quran iti uca malikdirlər. Uc həm də dövrəyə daha asan birləşmək üçün qarmaq, maqqaş və ya tutqaclarla təchiz oluna bilər. Hər rabitə qurğusu torpaqlama tutqacına malik olur və yoxlanan dövrənin ümumi torpaqlama nöqtəsinə təhlükəsiz şəkildə birləşdirilməlidir. Rabitə qurğuları sizin dövrənizə qoşulan və siqnalı ossiloqrafa ötürən sadə cihazlar kimi görünə bilər, lakin rabitə qurğularının layihələndirilməsi və seçilməsi vacib prosesdir.



Coaxial cable – koaksial kabel
Attenuator – attenyuator
Compensating trimmer – kompensasiya trimmeri
Grounding clip – torpaqlama tutqacı
Compensation tool – kompensasiya aləti
Measuring tip – ölçmə ucluğu
Measuring hook tip – ölçmə qarmağının ucu
BNC connector – bayonet konnektoru

Şəkil 4: Rabitə qurğusunun görünüşü və adı

İdeal halda rabitə qurğusu görünməz olmalıdır – o, yoxlanmaqda olan siqnala təsir göstərməməlidir. Təəssüf ki, uzun naqillər daxili induksiyaya, tutuma və müqavimətə malikdirlər, buna görə də onlar istənilən vəziyyətdə ossiloqrafın oxumalarına təsir edirlər (xüsusilə, yüksək tezliklərdə).

Müxtəlif növ rabitə qurğuları mövcuddur, lakin ən geniş yayılmış qurğu bir çox ossiloqrafın tərkibində olan passiv rabitə qurğusudur. Bir çox "cansız" passiv rabitə qurğuları attenuasiya edilib. Attenuasiya edilmiş rabitə qurğuları məqsədli şəkildə yüksək müqavimətə və kiçik tutuma malikdirlər, bu da uzun kabelin sizin dövrənizi yükləmə təsirini minimallaşdırmağa kömək edəcək. Ossiloqrafın giriş müqaviməti ilə ardıcıl birləşdirildikdə attenuasiya edilmiş rabitə qurğusu siqnal və ossiloqrafın girişi arasında gərginlik bölücüsü meydana gətirəcək.



Probe – rabitə qurğusu
Probe input – rabitə qurğusunun girişi
Cable – kabel
Oscilloscope - ossiloqraf

Şəkil 5: Rabitə qurğusunun, ötürmə kabelinin və ossiloqraf girişinin sadələşdirilmiş sxemi

Bir çox rabitə qurğuları attenuasiya üçün 9MΩ rezistora malik olur və ossiloqrafın standart 1 MΩ giriş müqaviməti ilə birlikdə 1/10 gərginlik bölücüsü meydana gətirirlər. Bu rabitə qurğuları geniş şəkildə 10 dəfə attenuasiya edilmiş qurğular adlandırılır. Bir çox rabitə qurğuları 10 dəfə və 1 dəfə (attenuasiya olmadıqda) arasında seçim etmək üçün çeviriciyə malik olurlar.

Şəkil 6: Rabitə qurğusunu attenuasiya nizamlamaları

Attenuasiya edilmiş rabitə qurğuları yüksək tezlik vəziyyətlərində dəqiqliyi artırmaq üçün çox uyğundurlar, lakin onlar həm də siqnalın amplitudasını azaldacaqlar. Əgər siz çox aşağı gərginliyə malik siqnalı ölçməyə çalışırsınızsa, 1 dəfə attenuasiya edilmiş rabitə qurğusunu seçməyiniz daha məqsədəuyğundur. Siz həm də ossiloqrafı elə nizamlamalısınız ki, zəifədilmiş rabitə qurğusundan istifadə etdiyinizi bildirəsiniz, lakin bir çox ossiloqraflar bunu avtomatik şəkildə müəyyən edə bilərlər.

Passiv attenuasiya edilmiş rabitə qurğularından əlavə, rabitə qurğusunun bir neçə növü var. Aktiv rabitə qurğuları elektrik ilə təchiz olunmuş qurğulardır (ayrı enerji mənbəyi tələb olunur) ki, onlar siqnalı gücləndirə və ya ossiloqrafa daxil olmazdan əvvəl emal edə bilərlər. Bir çox rabitə qurğuları gərginliyi ölçmək üçün hazırlansa da, bəzi rabitə qurğuları DC və ya SC şiddətini ölçmək üçün hazırlanıblar. Hazırda mövcud olan qurğular özünəməxsus qurğulardır, çünki onlar tez-tez naqilin ətrafına pərçimlənərək dövrə ilə birbaşa təmasda olmur.

Təcrübə mərhələləri

1. Avadanlıqları, alətləri və materialları təcrübə üçün hazırlayın.

2. Sadə ölçmə

Rəqəmli ossiloqrafın ilkin fəaliyyətini nizamladıqdan sonra dövrədə siqnal meydana gəlməlidir. Əgər siz siqnalın amplitudasını və ya tezliyini bilmirsinizsə, siqnalı tez şəkildə ekranda göstərə və onun tezliyini, dövrünü və ən yüksək amplitudasını ölçə bilərsiniz.

1) Kanalın aktivləşdirilməsi

Kanalın aktivləşdirilməsi	- Giriş kanalını aktivləşdirmək üçün *channel* (kanal) düyməsinə basın. - Kanal aktivləşdikdə, kanal düyməsi işıqlanacaq. Müvafiq kanal menyusu meydana gələcək. - Hər kanal bu kanalın şaquli şkala siferblatının kənarında göstərilən rənglə əlaqələndirilib: CH1: sarı, CH2: mavi
Kanalın deaktivləşdirilməsi	- Kanalı deaktivasiya etmək üçün müvafiq *channel* düyməsinə təkrar basın. Əgər kanal menyusu açıq deyilsə, *channel* düyməsinə iki dəfə basın (birinci dəfə basqıda, kanal menyusu göstərilir).
İlkin nizamlama	- İlkin vəziyyəti aktivləşdirmək üçün *Default* (ilkin rejim) düyməsini basın.

Avtomatik nizamlanmış fon	- Avtomatik nizamlama funksiyası panel nizamlamalarını avtomatik şəkildə giriş siqnallarının ən yaxşı nümayiş vəziyyətinə konfiqurasiya edir. DOS avtomatik şəkildə aşağıdakı parametrləri konfiqurasiya edir: Üfüqi şkala Şaquli şkala Trigger mənbəyi şkalası - Avtomatik nizamlama funksiyası üçün iki əməliyyat rejimi mövcuddur: ekrana yerləşmə rejimi və DC prioritet rejimi. Ekrana yerləşmə rejimi, SC komponentləri daxil olmaqla, siqnalı ən yaxşı miqyasa salacaq (sürüşmə). DC prioritet rejimi SC komponentini aradan qaldırmaqla, siqnalın miqyasını ekrana uyğunlaşdıracaq.
Panel əməliyyatı	1. Daxil olan siqnalı GDS-1000B-yə birləşdirin və *Autoset* (avtomatik nizamlama) düyməsinə basın. 2. Siqnal ekranın mərkəzində meydana gələcək.  **Before - əvvəl** **After - sonra** 3. Avtomatik nizamlamanı ləğv etmək üçün aşağı menyudan *Undo Autoset* (avtomatik nizamlamanı ləğv et) düyməsinə basın.
Dəyişmə rejimi	1. Aşağı menyudan *Fit Screen Mode* (ekrana yerləşmə rejimi) və *AC Priority Mode* (DC prioritet rejimi) arasında seçim edin. 2. Yeni rejimdə avtomatik nizamlamadan istifadə etmək istəyirsinizsə, təkrar *Autoset* düyməsinə basın.  **Fit screen mode – ekrana yerləşmə rejimi** **AC priority – DC prioritet rejimi**
Məhdudiyyətlər	- Avtomatik nizamlama aşağıdakı vəziyyətlərdə işə düşmür: Giriş siqnalının tezliyi 20 Hz-dan aşağıdırsa; Giriş siqnalının amplitudası 10 mV-dan aşağıdırsa.

2) İşə salma/Dayanma

Fonu

- İlkin rejimdə ekrankı siqnal müntəzəm olaraq yenilənir (iş rejimi). Siqnal toplanmasını dayandırmaqla siqnalın dondurulması (Dayanma rejimi) çevik müşahidəyə və təhlilə imkan verir. Dayanma rejiminə daxil olmaq üçün iki üsul mövcuddur: İşə sal/Dayan düyməsi və ya tək trigger rejimindən istifadə.

Dayanma rejiminin işarəsi -

Trigger vəziyyətinin işarəsi –

- Dayanma rejimində ekranın yuxarı hissəsində Stop (dayanma) işarəsi peyda olacaq.

İşə salma/Dayanma düyməsindən istifadə etməklə siqnalın dondurulması



- İşə sal/Dayan düyməsini bir dəfə basın. *Run/Stop* (İşə sal/Dayan) düyməsi qızaracaq. Dalğa formasının və siqnalın toplanması dondurulacaq.

- Dondurmanı ləğv etmək üçün təkrar *Run/Stop* düyməsinə basın. Düymə təkrar yaşıl olacaq.

Tək trigger rejimi ilə siqnalın dondurulması

- Tək trigger rejiminə keçmək üçün *Single* (tək) düyməsinə basın. *Single* düyməsi parlaq ağ rənglə işıqlanacaq.
- Tək trigger rejimində osilloqraf növbəti trigger nöqtəsi ilə qarşılaşanadək ilkin trigger rejiminə keçəcək. Ossiloqraf triggerlə qarşılaşdıqdan sonra *Single* düyməsi və ya *Run/Stop* (İşə salma/Dayanma) düyməsi təkrar basılana qədər Dayanma rejimində qalacaq.

Siqnalın əməliyyatı

- Siqnal İşə salma və Dayanma rejimləri ilə, lakin fərqli şəkildə hərəkət edə və ya miqyası dəyişdirilə bilər.

3) Üfüqi vəziyyət/miqyas

Üfüqi vəziyyətin nizamlanması

- Üfüqi vəziyyət çarxı siqnalı sola və sağa hərəkət etdirir.

Üfüqi vəziyyətin 0-a nizamlanması

- Üfüqi vəziyyət çarxına basdıqda, üfüqi vəziyyət 0-a nizamlanacaq.
- Alternativ olaraq, toplama düyməsinə, sonra isə aşağı menyudan *Reset H Position to 0s* (üfüqi vəziyyəti 0-a nizamla) düyməsinə basmaqla, üfüqi vəziyyət sıfırlanacaq.
- Siqnal hərəkət etdikcə, ekranın yuxarı hissəsindəki ekran çubuğu hazırda ekrandakı siqnalın hansı hissəsinin nümayiş olunduğunu və siqnaldakı üfüqi göstəricinin vəziyyətini göstərəcək.

Vəziyyət göstəricisi

- Üfüqi vəziyyət ekran torunun aşağı hissəsində, H işarəsinin sağ tərəfində göstərilir.

Üfüqi miqyasın seçilməsi

- Vaxt sistemini seçmək üçün üfüqi *SCALE* (miqyas) çarxını çevirin; sola (yavaş) və ya sağa (sürətli).

Aralıq 5ns/div ~ 100s/div, 1-2-5 artım

Miqyas ekranın aşağı hissəsində, H işarəsinin sol tərəfində göstərilir.

Ekran çubuğu

Ekran çubuğu cari anda siqnalın hansı hissəsinin ekranda nümayiş olunduğun göstərir. Vaxt rejiminə dəyişikliklər ekran çubuğunda göstəriləcək. Ekran çubuğu fırlanan toplama rejimində göstərilmir.

Sürətli

Orta

Yavaş



Dayanma rejimi Dayanma rejimində siqnalın ölçüsü miqyasa uyğun dəyişir.



4) Şaquli vəziyyət/miqyas

Şaquli vəziyyətin nizamlanması

- Siqnalı aşağı və ya yuxarı dəyişmək üçün, hər kanal üçün *vertical position* (şaquli vəziyyət) çarxını çevirin.

- Vəziyyəti 0-a nizamlamaq üçün *vertical position* (şaquli vəziyyət) çarxına basın.

- Siqnal hərəkət etdikdə kursorun şaquli vəziyyəti ekranda görünür.



İşə salma/dayanma rejimi Siqnal şaquli istiqamətdə işə salma və dayanma rejimində hərəkət etdirilə bilər.

Şaquli miqyasın seçilməsi

- Şaquli miqyası seçmək üçün SCALE (miqyas) çarxını çevirin; sola (aşağı) və ya sağa (yuxarı).

Aralıq 1mV/div ~ 10V/div, 1-2-5 artım

Ekranın aşağı hissəsində hər kanalın şaquli miqyas göstəricisi müvafiq şəkildə dəyişir.

3. Avtomatik ölçmə

Avtomatik ölçmə funksiyası gərginlik/cərəyan şiddəti, vaxt və gecikmə tipli ölçmələri yerinə yetirir və yeniləmələri icra edir.

1) Ölçmə əlavə edin

Add Measurement (ölçmə əlavə et) funksiyası sizə istənilən kanal mənbəyindən ekranın aşağı hissəsində səkkiz avtomatik ölçmə bəndi əlavə etməyə imkan verir.

Ölçmə bəndi əlavə et

- *Measure* (ölç) düyməsinə basın.
- Aşağı menyudan *Add Measurement* (ölçmə əlavə et) düyməsinə basın.
- Yan menyudan *V/I, Time* (vaxt) və ya *Delay* (gecikmə) ölçmələrini seçin və əlavə etmək istədiyiniz ölçmə üsulunu seçin.

V/I	Pk-Pk, Max, Min, Amplituda, yüksək, aşağı, orta, dövrənin ədədi ortası, RMS, dövrənin RMS, sahə, dövrənin sahəsi, ROVShoot, FOVShoot, RPRE-Shoot, FPREShoot
Time (vaxt)	Tezlik, dövr, yüksəlmə müddəti, Aşağı düşmə müddəti, +En, –En, Yüklənmə, +İmpulslar, -İmpulslar, +Uclar, - Uclar
Delay (gecikmə)	FRR, FRF, FFR, FFF, LRR, LRF, LFR, LFF, faza

- Seçilmiş bütün avtomatik ölçmələr ekranın aşağı hissəsindəki pəncərədə göstəriləcək. Kanalın nömrəsi və kanalın rəngi ölçmə mənbəyini göstərir.

Analoq girişlər üçün: sarı = CH1, mavi = CH2

Mənbənin seçilməsi

Ölçmə bəndləri üçün kanal mənbəyi ölçmə bəndi seçilməzdən əvvəl və ya seçildikdən sonra təyin oluna bilər.

- Mənbəni təyin etmək üçün yan menyuda *Source1* (mənbə1) və ya *Source2* (mənbə2) düymələrinə basın və mənbəni seçin. Mənbə 2 yalnız gecikmə ölçmələrində tətbiq olunur.
- Aralıq CH1~ CH2, Riyazi ölçmə

2) Ölçmənin ləğv edilməsi

Fərdi ölçmə nizamlamaları ölçmənin ləğv edilməsi funksiyası ilə istənilən anda ləğv oluna bilər.

Ölçmə bəndinin ləğv edilməsi

- *Measure* (ölçmə) düyməsinə basın.
- Aşağı menyudan *Remove Measurement* (Ölçməni ləğv et) düyməsinə basın.
- Yan menyudan *V/I, Time* və ya *Delay* ölçmə növünü seçin və əlavə etmək istədiyiniz ölçmə növünü əlavə edin.
- *Select Measurement* (ölçməni seç) seçimini edin və sonra ölçmə siyahısından silmək istədiyiniz bəndi seçin.

Bütün bəndlərin ləğv edilməsi — Bütün ölçmə bəndlərini ləğv etmək üçün *Remove All* (hamısını ləğv et) düyməsinə basın.

3) Gözləmə rejimi

Bəzi avtomatik ölçmələr kursorlar arasındakı "gözləmə" sahəsi ilə məhdudlaşa bilər. Gözləmə böyüdülmüş siqnalı ölçmək və ya sürətli vaxt bazasından istifadə etmək üçün faydalıdır. Gözləmə rejimi üç mümkün konfiqurasiyaya malikdir: sönülü (Tam qeydiyyat), ekran və kursorların arasında.

Gözləmə rejiminin nizamlanması
- *Measure* düyməsinə basın.
- Aşağı menyudan *gating* (gözləmə) düyməsinə basın.
- Yan menyudan gözləmə rejimlərindən birini seçin: Off (*full record – tam qeydiyyat), Screen (ekran), Between Cursors (kursorlar arasında)*.

Ekranda kursorlar — Əgər *Between Cursors* konfiqurasiyası seçilmişsə, kursorun mövqeyi kursor menyusundan seçilə bilər.

4) Hər şeyi göstərmə rejimi

Hər şeyi göstər rejimi gərginlik və vaxt tipli ölçmələrdəki bütün bəndləri göstərir və yeniləyir.

Ölçməni göstər
- *Measure* düyməsinə basın.

Nəticələr
- Aşağı menyudan Hər şeyi göstər düyməsinə basın.



- Yan menyudan *Source* (mənbə) düyməsinə basın və ölçmə mənbəyini seçin.

CH1~CH2 aralığı, Riyazi ölçmə

- Gərginlik və vaxt tipli ölçmələrin nəticələri ekranda görünür

Ölçmələrin ləğv edilməsi — Ölçmə nəticələrini ləğv etmək üçün OFF düyməsinə basın.

Gecikmə ölçmələri — Gecikmə tipli ölçmələr bu rejimdə mümkün deyil, çünki mənbə olaraq yalnız bir kanal istifadə olunur. Bunun əvəzinə fərdi ölçmə rejimindən istifadə edin.

5) Yuxarı və aşağı funksiyası

Arxa fon

Yuxarı-aşağı funksiya yuxarı-aşağı ölçmə qiymətlərini müəyyən etmək üçün müvafiq metodun seçilməsində istifadə olunur.

Avtomatik — Avtomatik şəkildə ölçmə zamanı hər siqnal üçün ən yaxşı yuxarı-aşağı nizamlamaları seçir.

Histoqram — Yüksək-aşağı qiymətləri müəyyən etmək üçün histoqramdan istifadə edir. Bu rejim mənfi titrəmə və geniş titrəmə qiymətlərini nəzərə almır. Bu rejim xüsusilə impuls tipli siqnallar üçün məqsədəuyğundur.



High-yüksək
Low - aşağı

Min-maks — Yüksək-aşağı qiymətləri minimum və ya maksimum ölçülmüş qiymətlər kimi nizamlayır.



High-yüksək
Low - aşağı

Yüksək-aşağı nizamlama

- *Measure* düyməsinə basın.
- Aşağı menyudan *High-Low* (yuxarı-aşağı) bəndini seçin.
- Yan menyudan yüksək-aşağı nizamlamaların növünü seçin.

Yüksək-aşağı nizamlamaları: Histoqram, Min-Maks, Avtomatik



İlkin yüksək-aşağı nizamlamaların bərpası

İlkin yüksək-aşağı nizamlamalara qayıtmaq üçün *Set to Defaults* (ilkin vəziyyətə nizamla) bəndini seçin

6) Statistik Məlumatlar

Statistika funksiyası seçilmiş avtomatik ölçmələr üzrə bir neçə statistik göstəricini nəzərdən keçirmək üçün istifadə oluna bilər. Statistika funksiyası ilə aşağıdakı məlumatlar göstərilir:

Qiymət	Hazırda ölçülən qiymət
Ədədi orta	Ədədi orta bir neçə avtomatik ölçmə nəticələrinə əsasən hesablanır. Ədədi ortanı müəyyən etmək üçün istifadə olunan nümunələrin sayı istifadəçi tərəfindən müəyyən oluna bilər.
Min	Seçilmiş avtomatik ölçmə bəndləri üzrə ölçülən nəticələr silsiləsində müşahidə olunan minimal qiymətdir.
Max	Seçilmiş avtomatik ölçmə bəndləri üzrə ölçülən nəticələr silsiləsindən müşahidə olunan maksimal qiymətdir.
Standart kənarlaşma	Hazırda ölçülən qiymətin ədədi ortadan kənarlaşması. Standart kənarlaşma variasiya qiymətinin kökaltına bərabərdir. Standart kənarlaşmanın ölçülməsi, məsələn, siqnaldakı titrəmələri müəyyən edə bilər. Ədədi ortanı müəyyən etmək üçün istifadə olunan nümunələrin sayı istifadəçi tərəfindən müəyyən oluna bilər.

Panel əməliyyatları

- *Measure* düyməsinə basın.
- Ən az bir avtomatik ölçməni seçin.
- Aşağı menyudan *Statistics* (statistika) bəndini seçin.
- Ədədi ortanı və standart kənarlaşmanı hesablayarkən istifadə olunacaq nümunələrin sayını təyin edin.

Nümunə: 2~1000

- *Statistics* bəndini seçin və statistikanı işə salın.
- Hər avtomatik ölçmə üzrə statistika ekranın aşağı hissəsində cədvəl şəklində göstəriləcək.



Statistikanın sıfırlanması

Standart kənarlaşma hesablamalarını sıfırlamaq üçün *Reset Statistics* (Statistikanı sıfırla) düyməsinə basın.

7) İstinad səviyyəsi

Arxa fon İstinad səviyyəsinin nizamlamaları yüksəlmənin ölçülməsi zamanı bəzi ölçmələr üçün ölçmələrin sərhəd səviyyəsini müəyyən edir.



High Ref: yüksək istinad qiymətini təyin edir.



Mid Ref: Birinci və ikinci siqnal üzrə orta istinad qiymətini təyin edir.



Low Ref: Aşağı istinad səviyyəsini təyin edir.

Panel əməliyyatı
- *Measure* düyməsinə basın.
- Ən az bir avtomatik ölçməni seçin.
- Aşağı menyudan *Reference Levels* (istinad səviyyələri) bəndini seçin.

İstinad səviyyələrinin üst-üstə düşmədiyindən əmin olun.

High Ref 0.0% ~ 100%
Mid Ref 0.0% ~ 100%
0.0% ~ 100%
Low Ref 0.0% ~ 100%

İlkin nizamlamalar İstinad səviyyəsini ilkin nizamlamalara qaytarmaq üçün *Set to Defaults* (İlkin vəziyyətə nizamla) bəndini seçin.

4. Kursor ölçmələri

Üfüqi və ya şaquli kursorlar siqnal ölçmələrinin mövqeyini və qiymətlərini və riyazi əməliyyatın nəticələrini göstərmək üçün istifadə olunur. Bu nəticələr gərginlik, vaxt, tezlik və digər riyazi əməliyyatları əhatə edir. Kursorlar (üfüqi, şaquli və ya hər ikisi) aktivləşdirildikdə söndürüldüyü hallar istisna olmaqla əsas ekranda göstəriləcəklər. Ölçmənin əlavə edilməsi

1) Üfüqi kursorlardan istifadə

Panel əməliyyat *Cursor* (kursor) düyməsinə bir dəfə basın.
- Hələ seçilməyibsə, aşağı menyudan *H Cursor* (üfüqi kursor) bəndini seçin.
- Üfüqi kursor seçildikdən sonra təkrar şəkildə *H Cursor* düyməsinə və ya *Select* (seç) düyməsinə basmaqla hansı kursorların seçildiyi müəyyən olunacaq.

Sol kursor (1) hərəkət edə bilən, sağ kursorun mövqeyi sabitdir.

Sağ kursor (2) hərəkət edə bilən, sol kursorun mövqeyi sabitdir.

Sol və sağ kursor (1 + 2) birlikdə hərəkət edə bilirlər.

- Kursorun vəziyyəti haqqında məlumat ekranın sol-yuxarı hissəsində qeyd olunur.

Kursor 1	Üfüqi vəziyyət, Gərginlik/cərəyan şiddəti
Kursor 2	Üfüqi vəziyyət, Gərginlik /cərəyan şiddəti
△	Delta (kursorlar arasındakı fərq) dV/dt və ya dI/dt

- Hərəkət edən kursor(lar)ı sola və ya sağa hərəkət etdirmək üçün *Variable* (dəyişən) çarxından istifadə edin.

Vahidlər S, Hz, %(pay), ˚(faza)

Vahidlərin seçilməsi

Üfüqi vəziyyətin vahidlərini dəyişmək üçün *H Unit* (üfüqi vahid) bəndini seçin.

Faza və ya pay göstəricisi

Kursorların hazırkı vəziyyəti üçün 0% və 100% paylarını və ya 0˚ və 360˚ faza istinadlarını təyin etmək üçün *Cursor Positions (*kursorun vəziyyəti) bəndini 100%-ə nizamlayın.



Horizontal cursors - üfüqi kursorlar

FFT

FFT müxtəlif vahidlərdən istifadə edə bilər.

Kursor 1	Üfüqi vəziyyət, Gərginlik/cərəyan şiddəti
Kursor 2	Üfüqi vəziyyət, Gərginlik /cərəyan şiddəti
△	Delta (kursorlar arasındakı fərq) dV/dt və ya dI/dt



FFT

XY rejiminin kursorları Y ölçmələri ilə X-lərin sayını ölçürlər.

XY Rejimi

(X) Versus (Y)		①	②	△
	t:	-625us	625us	1.25ms
Rectangular	x:	16.0V	17.6V	1.60V
	y:	1.76V	-1.44V	-3.20V
Polar	r:	16.0V	17.6V	3.57V
	θ:	6.27°	-4.67°	-63.4°
Product	x×y:	28.1VV	-25.3VV	-5.12VV
Ratio	y÷x:	110mV/V	-81.8mV/V	-2.00V/V

Kursor ① Vaxt, düzbucaqlı, qütb koordinatları, hasil, nisbət.

Kursor ② Vaxt, düzbucaqlı, qütb koordinatları, hasil, nisbət.

△ Delta (kursorlar arasındakı fərq)



Horizontal cursors – şaquli kursorlar

2) Şaquli kursorlardan istifadə

Panel əməliyyatı
- *Cursor* (kursor) düyməsinə bir dəfə basın
- Hələ seçilməyibsə, aşağı menyudan *V Cursor* (şaquli kursor) bəndini seçin.
- Şaquli kursor seçildikdən sonra, təkrar *V Cursor* düyməsinə və ya *Select* (seç) düyməsinə basmaqla hansı kursorların seçildiyi müəyyən olunacaq.

Aralıq	Təsvir
——— ----------	Yuxarı kursor hərəkət edə bilir, aşağı kursorun vəziyyəti sabitdir.
——— ———	Aşağı kursor hərəkət edə bilir, yuxarı kursorun vəziyyəti sabitdir.
——— ----------	Yuxarı və aşağı kursorlar birlikdə hərəkət edə bilir.

- Kursorun vəziyyəti haqqında məlumat ekranın sol-yuxarı hissəsində qeyd olunur.

□,○	Vaxt: kursor 1, kursor 2
1, 2	Vaxt: kursor 1, kursor 2
△	Delta (kursorlar arasındakı fərq) dV/dt və y dI/dt

- Hərəkət edən kursor(lar)ı yuxarı və ya aşağı hərəkət etdirmək üçün *Variable* (dəyişən) çarxından istifadə edin.

Vahidlərin seçilməsi Hərəkət edən kursor(lar)ı sola və ya sağa hərəkət etdirmək üçün *Variable* (dəyişən) çarxından istifadə edin.

Vahidlər Baza (mənbə dalğalarının vahidi), % (pay)

Baza və ya Pay göstəricisi Kursorların hazırkı vəziyyəti üçün 0% və 100% paylarını və ya 0˚ və 360˚ faza istinadlarını təyin etmək üçün *Cursor Positions (*kursorun vəziyyəti) bəndini 100%-ə nizamlayın.



Vertical cursors – şaquli kursorlar

FFT — FFT fərqli tərkibə malikdir

□,○ — Tezlik/Vaxt: cursor1, cursor2

1, 2 — dB/V: cursor1, cursor2

△ — Delta (kursorlar arasındakı fərq)



Vertical cursors – şaquli kursorlar
Horizontal cursors – üfüqi kursorlar

XY Rejimi — XY rejiminin kursorları Y ölçmələri ilə X-lərin sayını ölçür.

1 (X) Versus 2 (Y)		1	2	△
	t:	-625us	625us	1.25ms
Rectangular	x:	18.4V	-14.4V	-32.8V
	y:	-1.44V	-1.68V	-240mV
Polar	r:	18.4V	14.4V	32.8V
	θ:	-4.47°	-173°	-179°
Product	x×y:	-26.4VV	24.1VV	7.87VV
Ratio	y÷x:	-78.2mV/V	116mV/V	7.31mV/V

Kursor 1 — Vaxt, düzbucaqlı, qütb koordinatları, hasil, nisbət.

Kursor 2 — Vaxt, düzbucaqlı, qütb koordinatları, hasil, nisbət.

△ — Delta (kursorlar arasındakı fərq)



5. Riyazi əməliyyat

1) Bəsit riyaziyyata baxış və riyazi əməliyyatlar

Ümumi məlumat	Riyaziyyat giriş siqnalları və ya istinad siqnalları üzərində sadə riyazi funksiyaları (toplama, çıxma, hasil, bölmə) yerinə yetirir. Nəticədə meydana gələn siqnal real vaxtda ekranda göstərilir.
Toplama (+)	İki siqnalın amplitudasını toplayır. Mənbə CH1~4, Ref1~4
Çıxma (–)	İki siqnal arasında amplituda fərqini tapır. Mənbə CH1~4, Ref1~4
Vurma (×)	İki siqnalın amplitudasının hasilini tapır Mənbə CH1~4, Ref1~4
Bölmə (÷)	İki siqnalın amplitudasını bölür. Mənbə CH1~4, Ref1~4

2) Toplama / Çıxma/Vurma / Bölmə

Panel əməliyyatı

- *Math* düyməsinə basın.
- Aşağı küncdəki *Math* düyməsinə basın.
- Yan menyudan Select *Source 1* (1-ci mənbəni seç) bəndini seçin.
  Aralıq CH1~4, Ref1~4
- Riyazi əməliyyatı seçmək üçün *Operator* düyməsinə basın.
  Aralıq +, -, ×, ÷
- Yan menyudan Select *Source 2* (2-ci mənbəni seç) bəndini seçin.
  Aralıq CH1~4, Ref1~4
- Riyazi ölçmənin nəticələri ekranda görünəcək. Riyazi siqnalın üfüqi şkalası ekranın aşağı hissəsində görünür.

Soldan: Math (riyaziyyat) funksiyası, source1, operator, source2, Unit/div (vahid/div).



Source – mənbə

Math - riyaziyyat

Vəziyyət və vahid

Riyazi siqnalı şaquli hərəkət etdirmək üçün yan menyudan *Position* (vəziyyət) düyməsinə basın və vəziyyətini nizamlamaq üçün *Variable* (dəyişən) çarxından istifadə edin.

Aralıq –12.00 Div ~ +12.00 Div

Vahid/bölmə nizamlamalarını dəyişmək üçün *Unit/div* düyməsinə basın, sonra isə vahid/div-i dəyişmək üçün dəyişən çarxından istifadə edin.

Göstərilən vahidlər hansı əməliyyatın seçilməsindən və seçilmiş kanal üçün rabitə qurğusunun gərginlik və ya cərəyan şiddətinə nizamlanmasından asılıdır.

Əməliyyat:	Vahid/div:
Hasil	VV, AA və ya W
Bölmə	V/V, A/A
Toplama/Çıxma	V və ya A

Riyaziyyat funksiyasını söndür

Ekranda riyazi nəticələri söndürmək üçün təkrar *Math* düyməsinə basın.

3) FFT-a (sürətli Furye çevirməsi) baxış və pəncərə funksiyaları

Əsas məlumat

FFT riyaziyyat funksiyası giriş siqnallarının birində və ya istinad siqnallarında sürətli Furye çevirməsini yerinə yetirir. Nəticədə meydana gələn spektr real vaxtda ekranda göstərilir. FFT pəncərələrinin dörd növü mövcudur: aşağıda təsvir olunan hamarlayıcı, Hamminq, düzbucaqşəkilli və Blakman pəncərələri.

Hamarlayıcı FFT pəncərəsi	Tezliyin dəqiqliyi	Yaxşı
	Amplitudanın dəqiqliyi	Yaxşı deyil
	Tətbiq sahəsi	Dövrü siqnallarda tezliyin ölçülməsi
Hamminq FFT pəncərəsi	Tezliyin dəqiqliyi	Yaxşı
	Amplitudanın dəqiqliyi	Yaxşı deyil
	Tətbiq sahəsi	Dövrü siqnallarda tezliyin ölçülməsi

Düzbucaqşəkilli FFT pəncərəsi	Tezliyin dəqiqliyi	Çox yaxşı
	Amplitudanın dəqiqliyi	Pis
	Tətbiq sahəsi	Tək-tək meydana gələn hallar (bu rejim pəncərəsiz rejimə uyğun gəlir)
Blakman FFT pəncərəsi	Tezliyin dəqiqliyi	Pis
	Amplitudanın dəqiqliyi	Çox yaxşı
	Tətbiq sahəsi	Dövrü siqnallarda amplitudanın ölçülməsi

4) FFT əməliyyatı

Panel əməliyyatı

Math düyməsinə basın.

- Aşağı küncdəki *FFT* düyməsinə basın.
- Yan menyudan *Source* bəndini seçin

  Aralıq CH1~4, Ref1~4
- İstifadə olunan şaquli vahidləri seçmək üçün yan menyudan *Vertical Units* düyməsinə basın.

  Aralıq xətti RMS, dBV RMS
- Yan menyudan *Window* (pəncərə) düyməsinə basmaqla pəncərənin növünü seçin.

  Aralıq Hamarlayıcı, Hamminq, Düzbucaqlı və Blakman.



Source – mənbə

Math - riyaziyyat

- FFT nəticəsi meydana çıxır. FFT üçün üfüqi şkala vaxtdan tezliyə dəyişir və şaqulu şkala gərginlik/cərəyan şiddətindən dB/RMS-ə dəyişir.

Vəziyyət və şkala — FFT siqnalını şaquli hərəkət etdirmək üçün *Div* parametri işıqlananadək *Vertical* (şaquli) düyməsinə basın və sonra dəyişən çarxından istifadə edin.

Aralıq –12.00 Div ~ +12.00 Div

FFT siqnalının şaquli şkalasını ölçmək üçün *dB* və ya *voltage* parametrləri işıqlananadək *Vertical* düyməsinə asın və sonra dəyişən çarxından istifadə edin.

Aralıq 2mV ~ 1kV RMS, 1 ~ 20 dB

Üfüqi vəziyyət və şkala — FFT siqnalını üfüqi hərəkət etdirmək üçün üçün *Frequency* (tezlik) parametri işıqlananadək *Horizontal* (üfüqi) düyməsinə asın və sonra dəyişən çarxından istifadə edin.

Aralıq 0 Hz~ 2.5 MHz

FFT siqnalının üfüqi şkalasını ölçmək üçün Hz/div parametri işıqlananadək *Horizontal* (üfüqi) düyməsinə asın və sonra dəyişən çarxından istifadə edin.

Aralıq 10kHz/Div ~ 250 kHz /Div

5) Ali riyaziyyata baxış

Əsas məlumat — Ali riyaziyyat funksiyası giriş mənbələrində, istinad siqnallarında və ya hətta *Measure* (ölçmə) menyusundakı avtomatik ölçmələrdə mürəkkəb riyazi ifadələrin yaradılmasına imkan verir.

Ali riyaziyyat funksiyasında istifadə olunacaq hər əsas parametr aşağıda təsvir olunub:

İfadə — Funksiyanı yazılmış şəkildə ekranda göstərir.

Mənbə — Mənbə siqnalını seçir.

Mənbə CH1~4, Ref1~4

Funksiya — İfadəyə riyazi funksiyanı əlavə edir.

Funksiya Intg, Diff, log, Ln, Exp, Sqrt, Abs, Rad, Deg, Sin, Cos, Tan, Asin, Acos, Atan

Dəyişən — İstifadəçi tərəfindən müəyyən olunmuş dəyişəni ifadəyə daxil edir. Dəyişən ədəddən və dərəcə əmsalından ibarətdir.

Dəyişən VAR1, VAR2

Əməliyyat — Funksiyaya əməliyyat və ya mötərizə əlavə edir.

Əməliyyat +, -, *, /, (,), !(, <, >, <=, >=, ==, !=, ||, &&

Ədəd — İfadəyə qiyməti əlavə edir.

Ədəd tam ədədlər, sürüşən vergüllü ədədlər və dərəcə əmsalına malik sürüşən vergüllü ədədlər.

Ölçmə — İfadəyə avtomatik ölçmələr əlavə edir. Bütün avtomatik ölçmələr dəstəklənmir.

Ölçmə	Pk-Pk, Max, Min, Amp, yüksək, aşağı, ədədi orta, dövrənin ədədi ortası, RMS, CycleRMS, sahə, dövrənin sahəsi, ROVShoot, FOVShoot, tezlik, dövr, qalxma, enmə, müsbət en, mənfi en, yüklənmə, FRR, FRF, FFR, FFF, LRR, LRF, LFR, LFF, faza

6) Ali riyaziyyat əməliyyatı

Panel əməliyyatı

- *Math* düyməsinə basın.

Aşağı küncdəki *Advanced Math* (ali riyaziyyat) düyməsinə basın.

- *Edit Expression* (ifadəyə düzəliş et) düyməsinə basın.

- Edit f(x) (funksiyaya düzəliş et) ekranı peyda olacaq. Açılışda nümunə kimi ifadə qutusunda CH1+CH2 göstərilir.



- İfadəni daxil etmək məqsədilə xananı təmizləmək üçün *Clear* (təmizlə) düyməsinə basın.
- İfadə yaratmaq üçün *Variable* çarxından və *Select* (seç) düyməsindən istifadə edin.

Geri qayıtma — Mənbəni, funksiyanı, dəyişəni, əməliyyatı, ədədi və ya ölçməni narıncı rənglə vurğulamaq üçün *Variable* (dəyişən) çarxından istifadə edin.

Seçim etmək üçün *Select* (seç) düyməsinə basın.

Hər hansı parametr boz rəngdədirsə, bu hal həmin parametrin hal-hazırda əlçatan olmadığına işarə edir.

- Son parametri silmək üçün *Back Space* (geri qayıt) düyməsinə basın.
- İfadə tamamlandıqda, *OK Accept* (qəbul et) düyməsinə basın.

Nümunə:
CH1 + CH2



Source – mənbə
Advanced math – ali riyaziyyat

VAR1 və VAR2 nizamlayın	- Əgər VAR1/VAR2 əvvəlcədən yaradılmış ifadədə istifadə olunmuşsa, onları nizamlamaq üçün *VAR1* və ya *VAR2* düymələrinə basın. - *Mantissa* (ədədi hissə) düyməsinə basın. Rəqəmi seçmək üçün sol və sağ ox düymələrinə basın və seçilmiş rəqəmi nizamlamaq üçün dəyişən çarxından istifadə edin. - *Exponent* (dərəcə əmsalı) düyməsinə basın. Dəyişənin dərəcə əmsalını təyin etmək üçün dəyişən çarxından istifadə edin. - Düzəlişi tamamlamaq üçün *Go Back* (geri qayıt) düyməsinə basın VAR1 və ya VAR2.
Şaquli vəziyyət və şkala	- *Unit/div* düyməsinə basın və riyazi siqnalın şaquli şkalasını nizamlamaq üçün dəyişən çarxından istifadə edin. - *Position* (vəziyyət) düyməsinə basın və riyazi siqnalın şaquli şkalasını nizamlamaq üçün dəyişən çarxından istifadə edin.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Cərəyanın birbaşa ossiloqrafa axmasına yol verməyin.
2. Alətdən istifadə edərkən həddən artıq giriş şiddəti tətbiq etməyin.
3. Avadanlığın torpaqlanıb- torpaqlanmadığını yoxlayın.
4. Müvafiq şəkildə qoşma və ayırma əməliyyatlarını yerinə yetirin.
5. Bütün terminal göstəricilərini müşahidə edin və rabitə qurğusunun istinad başlığını yalnız torpağa birləşdirin.
6. Elektrik verildikdə açıq qalmış birləşmələrə və komponentlərə toxunmayın.

Təcrübə mərhələləri

1. Siqnal generatorunun çıxış siqnalının ölçülməsi

Siqnal generatorunu (funksiya generatorunu) ossiloqrafa birləşdirdikdən və üç siqnal meydana gətirdikdən (sinusoid, kvadratşəkilli və üçbucaqşəkilli) sonra ossiloqrafda meydana gələn siqnallar Cədvəl 1-də göstərilib və müxtəlif qiymətlər qeydə alınıb.

Rəqsetmə tezliyi 500 Hz-a, gərginlik Vp-p-ə uyğunlaşdırılıb.

2. Dövrün və tezliyin ölçülməsi

1) Rabitə qurğusunun bayonet konnektorunu ossiloqrafın CH1 girişinə, ölçmə tutqacını funksiya generatorunun çıxışına qoşun.
2) Funksiya generatorunun çıxış siqnalını sinus dalğasına, 500 Hz, 5Vp-p nizamlayın.
3) Ossiloqrafı elə nizamlayın ki, siqnallın forması aydın görünsün
4) Ölçmə
   - Sinus və kvadratşəkilli dalğaların Cədvəl 1-dəki üçbucaqşəkilli dalğanın 1 kHz siqnalından və ölçülmüş qiymətlərdən istifadə edin.
   - Siqnalın tezliyi üçün siqnalın gərginliyinin və Cədvəl 2-də təsvir olunmuş funksiya generatorunun dövrünü qeyd edin və Cədvəl 2-yə daxil edin. Həmçinin meydana gələn tezliyi və tezlikdən kənarlaşmaları qeydə alın.

3. Təmizlik və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlığı və materialları müvafiq şəkildə saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulu təcrübi olaraq məşq etdikdə aşağıdakıları yerinə yetirə yetirdimi? 1. Gərginliyi, cərəyan şiddətini və müqaviməti dəqiq şəkildə ölçdümü? 2. Multitesterlə gərginliyi, cərəyan şiddətini və müqaviməti ölçdümü?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat			
Təcrübənin başlığı	Siqnalların, gərginliyin və tezliyin ossiloqraf və funksiya generatoru ilə ölçülməsi	Tarix	
Kafedra		Ad	

1. Təcrübə nəticələrinin cədvəli

Cədvəl 1: Siqnal generatorunun siqnalının ölçülməsi

(1) Sinus dalğasının ölçülməsi



- Tezlik : 1kHz
- Gərginlik (p-p):
- Vaxt/Div:
- Vaxt /Div:

(2) Kvadratşəkilli dalğanın ölçülməsi



- Tezlik: 1kHz
- Gərginlik (p-p):
- Vaxt/Div:
- Volt/Div:

(3) Üçbucaqşəkilli dalğanın ölçülməsi



- Tezlik : 1kHz
- Gərginlik (p-p):
- Vaxt/Div :
- Volt/Div:

Cədvəl 2: Dövrün və tezliyin ölçülməsi

Funksiya generatorunun tezliyi		500[Hz]	1[kHz]	1.5[kHz]	2[kHz]	10[kHz]
Dövr $T=\frac{1}{f}[san]$						
Sinus dalğası	Dövr $T[san]$					
	Tezlik $f=\frac{1}{T}[Hz]$					
	Tezlikdən kənarlaşma					
Kvadratşəkilli dalğa	Dövr $T[san]$					
	Tezlik $f=\frac{1}{T}[Hz]$					
	Tezlikdən kənarlaşma					

※ *Dövr T ölçülmüş qiymətdir, tezlik və tezlikdən yayınma hesablanmış qiymətlərdir.*

2. Baxış və izah

(1) Aşağıdakı siqnalın tezliyini, dövrünü və gərginliyini tapın.

1) Ölçmə şərtləri

① Vaxt / Div = 0.2millisan
② Volt / Div = 1 V
③ Rabitə qurğusu = 10: 1

2) Ölçmə şərtlərindəki Vaxt/Div=0.2 millisan nə deməkdir?

3) Volt / Div = 1V nə deməkdir?

4) Rabitə qurğusunun 10:1 göstəricisi nə deməkdir?

5) ① ən yüksək gərginlik: Vp-p= ( ) ② effektiv gərginlik: V_{RMS} = ( )
③ Dövr: T = ( ) millisan ④ Tezlik: f = ( ) Hz

(2) Aşağıdakı şəkildə çıxış siqnalının tezliyini və gərginliyini tapın.



(3) Aşağıdakı şəkildə faza fərqini tapın.



(4) Rəqəmli ossiloqrafdan istifadə edərkən ehtiyat tədbirlərini qeyd edin.

(5) Analoq və rəqəmli ossiloqraflar arasındakı fərqləri qeyd edin.

(6) Rəqəmli ossiloqrafdan səmərəli şəkildə istifadə etmək üçün hansı funksiyaların tələb olunduğunu təsvir edin.

5. Om qanunundan istifadə edərək gərginlik, cərəyan şiddəti və müqavimət arasındakı əlaqənin ölçülməsi

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Dövrə boyu gərginliyin aşağı düşməsini ölçə biləcək;
2. Voltmetr və ampermetr vasitəsilə dövrədə gərginlik və cərəyan şiddətini ölçə biləcək.

Təcrübə materialları:

1. Rezistor: növünə görə, 3ea(1 kΩ, 2 kΩ, 3 kΩ)
2. Maket sxem və birləşdirici kabel

Avadanlıq və alətlər:

1. SC elektrik mənbəyi
2. Multitester (Analoq/rəqəmli tip)

Mövzu ilə əlaqəli biliklər

1. Om qanunu

Om qanunu gərginlik (E), cərəyan şiddəti (I) və müqavimət (R) arasındakı qarşılıqlı əlaqəni müəyyən edir. Yəni, bu qanun gərginliyin cərəyan şiddəti və müqavimət ilə düz mütənasib olduğunu və cərəyan şiddətinin müqavimət ilə tərs mütənasib olduğunu göstərir. Gərginlik iki nöqtə arasındakı potensial fərqidir və elektrik (cərəyan) təzyiqi mənasına gəlir.

Gərginliyin simvolu ”V”, vahidi isə Voltdur (V). Cərəyan şiddəti elektrik yükünün hərəkəti deməkdir və elektrik yükünün hərəkət istiqaməti müsbət (+) istiqamətdədir. Vaxt (san) vahidi ərzində cərəyan axınının simvolu “I”, vahidi isə “A(Amper)” olur.

Müqavimət “R” ilə işarələnir və cərəyan şiddətinin keçməsinə mane olan keyfiyyətdir. Müqavimətin vahidi Ω(om)-dur. 1V gərginlik altında 1A cərəyan şiddəti keçərsə, bu dövrənin müqaviməti 1Ω-dur. Om qanunu aşağıdakı düstur şəklində ifadə edilə bilər.

$$I = \frac{V}{R}[A] V = IR[V] R = \frac{V}{I}[\Omega]$$

[Şəkil 1]-də sadə cərəyan dövrəsi göstərilmişdir. Burada ampermetr dövrəyə ardıcıl şəkildə birləşdirilib və voltmetr yük müqavimətinə paralel şəkildə birləşdirilib. Müqavimətin olmaması Qısa, sonsuz müqavimətin olması isə Açıq mənasına gəlir. Həmçinin, əgər müqavimət dövrəyə birləşdirilmişdirsə, iş meydana gəlir və bu iş “elektrik enerjisi” adlanır.

Elektrik enerjisi vaxt vahidi ərzində cərəyan şiddətinin gördüyü işin miqdarı deməkdir və onun simvolu “P”, vahidi isə W(Vatt)-dır. Əgər yükün daimi müqaviməti mövcuddursa, P potensial fərqinin (gərginlik) kvadratı ilə düz mütənasibdir.

$$P = VI = I^2R = \frac{V^2}{R}[W]$$



Switch – çevirici
Ampere meter – ampermetr
İnput power – giriş elektrik enerjisi
Load – yük
Volt meter - voltmetr

Şəkil 1: Cərəyan dövrəsi

2. Gərginliyin aşağı düşməsi

[Şəkil 2]-də dövrədəki rezistorun [Ω] hər iki ucundakı xətti gərginlik V_1 [V] (gərginlik sayğacının V_1 göstəricisi) və V_2 [V] (gərginlik sayğacının V_2 göstəricisi) arasındakı əlaqə təsvir olunub. Yəni, V_2-nin gərginliyi V_1 [V]-nin gərginliyindən kiçikdir. Çünki cərəyan şiddəti I [A] R[Ω] müqavimətindən keçərkən rezistorun a və b ucları arasında RI [V] gərginliyinin potensial fərqi meydana gəlir.

Cərəyan şiddəti rezistordan keçərkən müqavimətdəki potensial fərqi gərginliyin aşağı düşməsi adlanır. Ümumiyyətlə, R müqavimətindən I [A] cərəyan şiddətinin keçməsi zamanı RI [V] gərginliyi aşağı düşür.



Load - yük

Şəkil 2: Müqavimətlə gərginliyin aşağı düşməsi

Təhlükəsizlik və ehtiyat tədbirləri:

1. Voltmetr yükə paralel, ampermetr isə yükə ardıcıl şəkildə birləşdirilib.
2. Voltmetr və ampermetrin qütblərinin düzgün şəkildə birləşdirildiyindən əmin olduqdan sonra elektrik təchiz edin.
3. Müqavimət enerji istehlakını (vatt) hesablamaqla və kifayət qədər tutumu olan elektrikdən istifadə etməklə hesablanır.
4. Cərəyan şiddətinin rezistor üçün icazə verilən cərəyan şiddətindən yüksək olmamasına diqqət edin.

Təcrübə mərhələləri

1. Avadanlığı, cihazları və materialları təcrübə üçün hazırlayın.

2. Om qanunu təcrübəsi

1) Elektrik enerjisini kəsin və R= 1[kΩ] rezistorunu [Şəkil 3]-də göstərilən şəkildə birləşdirin.
2) SC dəyişən elektrik mənbəyinin gərginlik aralığını nizamlayın və onu tam şəkildə 0 [V] istiqamətində çevirin.
3) Elektrik enerjisini verin və SW çeviricisini bağlayın.
4) SC dəyişən elektrik mənbəyinin gərginlik aralığını yavaş-yavaş elə nizamlayın ki, voltmetrin göstəricisi 5 [V] olsun.
5) Bu vaxt, ampermetrin göstəricisini oxuyun və cərəyan şiddətini Cədvəl 1-də qeyd edin.
6) SC dəyişən elektrik mənbəyinin gərginlik aralığını Cədvəl 1-də göstərilən gərginlik qiymətlərinə uyğunlaşdırarkən, ampermetrin göstəricisini oxuyun və onu Cədvəl 1-də müvafiq sütuna qeyd edin.
7) Müşahidə olunan qiymətləri Cədvəl 1-də qeyd edin və ölçülmüş qiymətlərlə müqayisə edin.
8) Sonra isə SC dəyişən elektrik mənbəyini 0 [V]-a təyin edin və SW çeviricisini açın.
9) Müqavimət qiymətini 2 [kΩ] və 3 [kΩ] olaraq dəyişdikdən sonra, Cədvəl 1-dəki 4), 5), 6) və 7)-ci addımları təkrarlayın.



Şəkil 3: Om Qanununun təcrübə dövrəsi

3. Təmizlik və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlığı və materialları müvafiq şəkildə saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulu təcrübi olaraq məşq etdikdə aşağıdakıları yerinə yetirdimi? 1. Dövrə və Om qanunu üzrə gərginliyin aşağı düşməsini ölçdümü? 2. Voltmetr və ampermetr vasitəsilə dövrənin gərginlik və cərəyan şiddətini ölçdümü?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat			
Təcrübənin adı	Om qanununda gərginlik, cərəyan şiddəti və müqavimət arasındakı əlaqənin ölçülməsi	Tarix	
Şöbə		Ad	

1. Təcrübə nəticələrinin cədvəli

Cədvəl 1: Gərginlik, cərəyan şiddəti və müqavimət arasındakı əlaqə

Giriş Gərginliyi V[V]	R=1 [kΩ]		R=2 [kΩ]		R=3 [kΩ]	
	Ölçmə I[mA]	Hesablama $I = \frac{V}{R}[mA]$	Ölçmə I[mA]	Hesablama $I = \frac{V}{R}[mA]$	Ölçmə I[mA]	Hesablama $I = \frac{V}{R}[mA]$
5						
10						
15						
20						
25						
30						

2. Baxış və izah

(1) Cədvəl 1-də gərginlik, cərəyan şiddəti və müqavimət arasındakı əlaqəni təkrar gözdən keçirin.
(2) Om qanununun tərifini deyin.
(3) 50 [] rezistora 100 [V] gərginlik verildikdə, dövrədəki cərəyan şiddəti [A] nə qədər olacaq?
(4) Müəyyən dövrənin müqavimətinə 3 [V] gərginlik tətbiq edildikdə, 200 [mA] cərəyan şiddəti keçir. Bu dövrənin müqaviməti nə qədərdir?
(5) Yük boyu cərəyan şiddətini və gərginliyin azalmasını hesablamağa çalışın. Ampermetr və voltmetrin necə birləşdirilməli olduğunu izah edin.

6. Rezistorun ardıcıl və paralel birləşdirilmiş dövrələrinin ölçülməsi

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Gərginliyi, cərəyan şiddətini və müqaviməti dəqiq ölçə biləcək;
2. Ölçülmüş qiyməti hesablanmış qiymətlə müqayisə edə biləcək;
3. Multitesterdən istifadə etməklə kompozit müqaviməti ölçə biləcək.

Təcrübə materialları:

1. Rezistor: növünə görə (100Ω, 200Ω, 220Ω, 300Ω, 470Ω, 680Ω, 1.2kΩ, 4.7kΩ, 5.6kΩ)
2. Maket sxem və birləşdirici kabel

Avadanlıq və alətlər:

1. SC elektrik mənbəyi
2. Multitester (Analoq/rəqəmli növü)

Mövzu ilə əlaqəli biliklər

1. Rezistorları ardıcıl olaraq birləşdirilmiş dövrə

Fərz edək ki, [Şək. 1]-də göstərilən şəkildə üç R_1, R_2 and R_3 rezistorun ardıcıl olaraq birləşdirildiyi dövrənin hər iki a və b ucuna SC elektrik mənbəyinin gərginliyi V[V] tətbiq edildikdə, dövrədən keçən cərəyan şiddəti I[A] olur.



(a) Ardıcıl birləşdirilmiş dövrə (b) Ekvivalent dövrə

Şəkil 1: Rezistorların ardıcıl birləşdirilmiş dövrəsi

Bu vaxt, R_1, R_2 və R_3 rezistorlarından keçən I cərəyanları eyni səviyyədədir və a və b terminalları arasında ardıcıl birləşdirilmiş R müqavimətləri aşağıda göstərilən şəkildə müqavimətlərin cəminə bərabərdir.

$$R = R_1 + R_2 + R_3 \ [\Omega]$$

R_1, R_2 və R_3 rezistorlarının gərginlik səviyyəsinin azalması müvafiq olaraq V_1, V_2 və V_3 ilə işarələnsə, Om qanununa əsasən, aşağıdakı bərabərlik təmin olunur:

$$V_1 = IR_1[V], V_2 = IR_2[V], V_3 = IR_3[V]$$

Hər rezistorda gərginlik azalmalarının cəmi a, b terminallarının V gərginliyinə bərabər olacaq.

$$V = V_1 + V_2 + V_3 = IR_1 + IR_2 + IR_3 = I(R_1 + R_2 + R_3) = IR[V]$$

Rezistorların ardıcıl birləşdirilmiş dövrəsində hər rezistorun terminal gərginliyi onun müqavimət səviyyəsi ilə düz mütənasibdir. Bu, aşağı gərginlik qanunu adlanır.

$$V_1 = IR_1 = \frac{R_1}{R_1 + R_2 + R_3} V = \frac{R_1}{R} V[V]$$

$$V_2 = IR_2 = \frac{R_2}{R_1 + R_2 + R_3} V = \frac{R_2}{R} V[V]$$

$$V_3 = IR_3 = \frac{R_3}{R_1 + R_2 + R_3} V = \frac{R_3}{R} V[V] I = \frac{V}{R_1 + R_2 + R_3} = \frac{V}{R}[A]$$

2. Rezistorların paralel birləşdirilmiş dövrəsi

R_1, R_2 and R_3 rezistorlarının Şəkil 2-də göstərildiyi kimi, paralel olaraq birləşdirildiyi dövrənin hər iki a və b ucuna SC elektrik mənbəyinin gərginliyi V[V] tətbiq edildikdə, hər rezistora tətbiq edilən gərginlik V-ə bərabər olacaq. Om qanununa əsasən, axan I_1, I_2 və I_3 cərəyan şiddətləri aşağıda göstərilən düstur ilə ifadə olunur.

$$I_1 = \frac{V}{R_1}[A], I_2 = \frac{V}{R_2}[A], I_3 = \frac{V}{R_3}[A]$$

$$I = \frac{V}{R_1} + \frac{V}{R_2} + \frac{V}{R_3}[A]$$



(a) Paralel birləşdirilmiş dövrə (b) Ekvivalent dövrə

Şəkil 2: Rezistorların paralel birləşdirilmiş dövrəsi

Hər rezistordan keçən cərəyan şiddətinin cəmi ümumi cərəyana bərabərdir.

$$I = I_1 + I_2 + I_3 = \frac{V}{R_1} + \frac{V}{R_2} + \frac{V}{R_3} = \left(\frac{1}{R_1} + \frac{1}{R_2} + \frac{1}{R_3}\right) V = \frac{V}{R}[A]$$

Əgər a və b terminalları arasında ekvivalent cəmi müqavimət R olarsa, bu halda R-nin əksi hər rezistorun əksinin cəminə bərabərdir.

$$\frac{1}{R} = \frac{1}{R_1} + \frac{1}{R_2} + \frac{1}{R_3}$$

$$R = \frac{1}{\frac{1}{R_1} + \frac{1}{R_2} + \frac{1}{R_3}} = \frac{R_1 R_2 R_3}{R_1 R_2 + R_2 R_3 + R_3 R_1}[\Omega]$$

Hər rezistordan keçən cərəyan şiddəti aşağıdakı kimi hesablana bilər.

$$I_1 = \frac{R}{R_1} I[A], I_2 = \frac{R}{R_2} I[A], I_n = \frac{R}{R_n} I[A]$$

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri:

1. Voltmetr yükə paralel, ampermetr isə yükə ardıcıl şəkildə birləşdirilib.
2. Voltmetr və ampermetrin qütblərinin düzgün şəkildə birləşdirildiyindən əmin olduqdan sonra elektrik təchiz edin.
3. Müqavimət enerji istehlakını (vatt) hesablamaqla və kifayət qədər tutumu olan elektrikdən istifadə etməklə hesablanır.
4. Cərəyan şiddətinin rezistor üçün icazə verilən cərəyan şiddətindən yüksək olmamasına diqqət edin.

Təcrübə mərhələləri

1. Avadanlığı, cihazları və materialları təcrübə üçün hazırlayın.

2. Rezistorların ardıcıl birləşdirilmiş dövrəsi

1) 1-ci təcrübə üsulu

1. Rezistorları Şəkil 3-də göstərildiyi kimi, ardıcıl birləşdirin. Bu vaxt elektrik mənbəyinin gərginliyi birləşdirilməyib.
2. Multitesterdən və Cədvəl 1-dəki qeydlərdən istifadə etməklə, dövrənin A və D uclarının hər birində R[Ω] kompozit müqaviməti ölçün.
3. Cədvəl 1-də verilmiş üç müqavimət qiymətini $(R_1 + R_2 + R_3)$ düsturu ilə toplayın Cədvəl 1-də qeyd edin.
4. <Cədvəl 1>-də ölçülmüş qiymətdən hesablanmış qiyməti çıxmaqla əldə edilən qiyməti (xətanı) qeyd edin.
5. $\varepsilon = \left|\frac{M-T}{T}\right| \times 100[\%]$ düsturü ilə xəta payını hesablayın və Cədvəl 1-də qeyd edin (burada M ölçülmüş, T isə hesablanmış qiymətdir).
V [V]	R [Ω]	f [kHz]	**Ölçmə**				Hesablama				f_O rezonans tezliyinin xəta payı [%]
			f_O	V_L	V_C	I_O	f_O'	V_L	V_C	I_O	
2	100	$f=f_O$'									
		$f=2f_O$'									
		$f=3f_O$'									
	200	$f=f_O$'									
		$f=2f_O$'									
		$f=3f_O$'									

Hesablamalar

$$f_0{}' = \frac{1}{2\pi\sqrt{LC}}, I_O = \frac{V}{Z} = \frac{V}{R}$$



Şəkil 20: Cədvəl 9-dakı ölçülmüş qiymətləri qrafikdə çəkin

4.2. Baxış və izah

1) R-L-C ardıcıl birəşdirilmiş rezonans dövrəsində rezonans cərəyanının nə üçün maksimal qiymət aldığını izah edin.
2) R=10[Ω] L=10[mH], C=1[μF] göstəricilərinə malik ardıcıl birləşdirilmiş dövrəyə V= 20[V] optimal gərginlik tətbiq olunduqda, hər terminalın V_R, V_L, V_C **gərginliklərini hesablayın.**
3) Cədvəl 9-da ölçülmüş və hesablanmış qiymətlər arasındakı fərqi tapın və bu fərqlərin meydana gəlmə səbəbini izah edin.
4) R=12[Ω], X_L=36[Ω], X_C = 20[Ω] göstəricilərinə malik ardıcıl birləşdirilmiş dövrəyə =200[V] gərginlik tətbiq edildikdə, aşağıdakı qiymətləri hesablayın.
    1 Z müqaviməti nəyə bərabərdir?
    2 $\dot{I}$ cərəyanı nəyə bərabərdir?
    3 $\dot{V}_R$, $\dot{V}_L$, $\dot{V}_C$ gərginlikləri nəyə bərabərdir?
    4 $\dot{V}_R$, $\dot{V}_L$, $\dot{V}_C$, $\dot{V}$, $\dot{I}$ arasındakı əlaqəni vektor diaqramı şəklində çəkin.
    5 $\dot{V}$, $\dot{I}$ arasındakı θ faza fərqi nəyə bərabərdir?
5) 15 [Ω] rezistor, 10 [mH] çarx və 0.01[μF] kondensator ardıcıl birləşdirildikdə və 30 [V] gərginlik tətbiq olunduqda, f_O [Hz] rezonans tezliyini, I_O [A] rezonans cərəyan şiddətini və Q selektivliyi hesablayın.

10. PN keçidli/Zener diodunun əməliyyat xarakteristikasının ölçülməsi

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Yarımkeçiricilərin xassələrini izah edə biləcək;
2. PN keçidli diodun əməliyyat xüsusiyyətlərini izah edə biləcək;
3. PN keçidli diodun gərginlik-cərəyan xarakteristika əyrisini ölçə biləcək;
4. Zener diodunun gərginlik-cərəyan xarakteristika əyrilərini ölçə biləcək.

Təcrübə materialları:

1. Rezistor: 90[Ω], 100[Ω] 560[Ω], 2[kΩ] 30[kΩ],
2. Diod: 1N60(Ge), 1N4148(Si), ZD5V, ZD10V
3. Maket sxem və birləşdirici kabel

Avadanlıq və alətlər:

1. SC elektrik mənbəyi
2. Multitester (Analoq/Digital növü)

Mövzu ilə əlaqəli biliklər

1. PN keçidli diod

Yarımkeçirici diod cərəyanı yalnız bir istiqamətdə ötürə bilər. Bu ona görədir ki, düz istiqamətdə müqavimət aşağı olduğu halda, əks istiqamətdə olan müqavimət çox yüksəkdir. Bütün yarımkeçirici diodlar, adətən, bir istiqamətlidir.



Şəkil 1: Düz və Əks istiqamətli gərginliyin təsirinə məruz qalmış keçidli diod

1) Sürüşmə

(1) Düz istiqamətdə sürüşmə

[Şəkil 1(a)]-da göstərildiyi kimi, əgər (+) terminalı P-N keçidli diodun P tərəfinə və (-) terminalı isə N tərəfinə birləşdirilibsə, bu zaman düz istiqamətli gərginlik və ya düz istiqamətdə sürüşmə tətbiq olunur. Burada yüksək cərəyan kimi çıxış edən düz istiqamətli cərəyan dioddan keçir. P sahəsinin deşikləri aktiv şəkildə N sahəsinə və N sahəsinin elektronları isə P sahəsinə keçir, beləliklə, böyük cərəyan(I_F) P sahəsindən N sahəsinə keçə bilir.

(2) Əks istiqamətdə sürüşmə

Şəkil 1(b)-də göstərildiyi kimi, əgər (+) terminalı P-N keçidli diodun N tərəfinə və (-) terminalı isə P tərəfinə birləşdirilibsə, bu halda deyilir ki, əks istiqamətli gərginlik və ya əks istiqamətdə sürüşmə tətbiq olunub. Burada çox zəif cərəyan kimi çıxış edən əks istiqamətli doyma cərəyanı diodda N sahəsindən P sahəsinə keçir. Cərəyan aşağı əks istiqamətli gərginliklə asanlıqla öz maksimal qiymətinə çatır və gərginliyin yüksəlməsinə baxmayaraq, cərəyan yüksəlmir Buna görə də, bu cərəyan əks istiqamətli doyma cərəyanı (I_R) adlanır.

(3) PN Keçidli Diodların Rektifikasiya Xüsusiyyətləri



Forward current - düz istiqamətli cərəyan
Reverse current - əks istiqamətli cərəyan

Şəkil 2: Ümumi Keçidli Diodun Düz *V- I* Xüsusiyyəti

Şəkil 2 PN keçidli diodun səciyyəvi gərginlik-cərəyan (V-I) əyrisini göstərir. Düz istiqamətli sürüşmə gərginliyi, cari sürüşmə və əks istiqamətli sürüşmə gərginliyi və cərəyan fərqlidir.

Düz cərəyan [mA], gərginlik 0.1[V], əks cərəyan [μA] və gərginlik 10[V]-dır.

Şəkildə göstərildiyi kimi, əgər düz istiqamətli gərginlik 0[V]-dan tədricən artırılsa, cərəyan ilkin olaraq potensial maneə səbəbindən axmır, lakin gərginlik müəyyən həddi yüksək olduqda, müqavimət azalır və cərəyan kəskin artır. Cərəyanın düz istiqamətdə axmağa başladıqda tətbiq olunan gərginlik hədd gərginliyi və ya keçiriciliyin hədd gərginliyi adlandırılır. Hədd gərginliyi, adətən, germanium diodlar üçün 0.3-0.4[V] və silisium diodlar üçün 0.6-0.7[V] olur. Ümumiyyətlə, silisium diodlar germanium diodlarla müqayisədə daha geniş istifadə olunur.

Diod əks sürüşməli olduqda, müəyyən gərginliyə qədər demək olar ki, cərəyan axmır və çox

kiçik əks istiqamətli doyma cərəyanı keçir. Bununla belə, cərəyan qəfildən müəyyən gərginliklə axmağa başlayır və bu gərginliyə qırılma gərginliyi olaraq istinad edilir.

2. Zener diodu

Zener diodu və ya bəzən istinad edildiyi kimi "Qırılma diodu" əsasən, standart PN keçidli diodla eynidir, lakin zener diodu tətbiq olunan hər hansı əks istiqamətli gərginlikdən faydalanan aşağı və müəyyən əks istiqamətli qırılma gərginliyini əldə etmək üçün xüsusi olaraq hazırlanıb.

Zener diodu silisium PN keçiddən ibarət olan normal ümumi təyinatlı diod kimi fəaliyyət göstərir və düz istiqamətdə sürüşdükdə, anod katoda nəzərən müsbət olur və nominal cərəyanın keçdiyi normal siqnal diodu kimi fəaliyyət göstərir.

Bununla belə, özündən keçən hər hansı cərəyan axınını kəsən əks sürüşməli ənənəvi dioddan fərqli olaraq, katod anoddan daha müsbət olur və əks istiqamətli gərginlik əvvəlcədən müəyyən olunmuş qiymətə çatan kimi, zener diodu əks istiqamətdə fəaliyyət göstərməyə başlayır.

Bu ona görə baş verir ki, zener diodu boyu tətbiq olunan əks istiqamətli gərginlik cihazın nominal gərginliyindən yüksək olduqda, yarımkeçiricinin aşınmış təbəqəsində "Qar uçqunu kəsilməsi" baş verir və cərəyan bu gərginlik artımının qarşısını almaq üçün dioddan keçməyə başlayır.

Bu halda, zener diodundan keçən cərəyan gözlənilmədən dövrənin maksimal qiymətinə (adətən, ardıcıl birləşdirilmiş rezistor tərəfindən qarşısı alınan) qədər yüksəlir və bu əks istiqamətli doyma cərəyanı sabit qalır. Gərginliyin zener diodu boyu sabit olduğu gərginlik səviyyəsi "zener gərginliyi" (V_Z) adlanır və zener diodları üçün bu gərginlik qiyməti bir voltdan daha kiçik ola və ya bir neçə yüz volta qədər dəyişə bilər.

Yarımkeçirici hazırlanarkən aşqar vurulma mərhələsində dioda xüsusi zener qırılma gərginliyi (V_Z), məsələn, 4.3[V] və ya 7.5[V] tətbiq etməklə, zener gərginliyinin dioddan keçəcək cərəyanı işə salan qiymətinə dəqiqliklə (1%-dən aşağı saxlama) nəzarət etmək olar. I-V əyrisində zener qırılma gərginliyi, demək olar ki şaquli düz xəttdir.

1) Zener Diodunun I-V Xarakteristikaları



Symbol – simvol
Cathode – katod
Anode - anod
Forward current - düz istiqamətli cərəyan
Reverse current - əks istiqamətli cərəyan
Forward bias - düz istiqamətli sürüşmə
Reverse bias - əks istiqamətli sürüşmə
Zener breakdown region – zenerin qırılma sahəsi
Forward bias region - düz istiqamətli sürüşmə sahəsi

Şəkil 3: Zener diodunun I-V xarakteristikası

Zener diodu "əks istiqamətli sürüşmə" və ya əks qırılma rejimində, məsələn, diodun anodu mənfi elektrik mənbəyinə qoşulduqda istifadə olunur. Yuxarıdakı I-V xarakterik əyrisinə əsasən, zener diodunun əks istiqamətli sürüşmə göstəricilərində dioddan keçən cərəyanın şiddətindən asılı olmayaraq demək olar ki sabit mənfi gərginliyi olan sahə mövcuddur. Zener diodunun cərəyan şiddəti qırılma cərəyanı $I_Z(min)$ və maksimal nominal cərəyanı $I_Z(max)$ arasında olduğu müddətcə və cərəyanda böyük dəyişikliklər meydana gəldikdə də bu sahə bilavasitə sabit qalır.

Gərginlik mənbəyini elektrik mənbəyinə və ya yükdə meydana gələn dəyişikliklərə qarşı tənzimləmək və ya stabilləşdirmək üçün yuxarıda qeyd olunan özünə nəzarət qabiliyyətindən geniş şəkildə istifadə oluna bilər. Diod boyu qırılma sahəsində gərginliyin, demək olar ki sabit olması zener diodunun mühüm xüsusiyyətidir, çünki gərginliyi nizamlayan tətbiqetmələrin ən sadə tiplərində bu xassədən istifadə oluna bilər.

Nizamlayıcının funksiyası təchiz olunan gərginlikdəki dalğalanmalara və ya yük cərəyanındakı dəyişikliklərə baxmayaraq, ona paralel olaraq birləşdirilmiş yükün sabit çıxış gərginliyini təmin etməkdir. Zener diodu dioddan keçən cərəyan əks qırılma sahəsində minimum $I_Z(min)$ cərəyandan aşağı düşənə qədər gərginliyi tənzimləməyə davam edəcək.

2) Zener Diodunun Nizamlayıcısı

Yük cərəyanının dəyişən şərtləri altında aşağı dalğalanma ilə stabilləşmiş çıxış gərginliyi meydana gətirmək üçün zener diodlarından istifadə oluna bilər. Müvafiq cərəyan məhdudlaşdıran rezistor (R_S) vasitəsilə elektrik mənbəyindən dioda zəif cərəyan keçirməklə, zener diodu V_{out} gərginliyinin düşməsini təmin etmək üçün kifayət qədər cərəyan keçirəcək.

Biz bundan əvvəlki təcrübi məşğələlərdən xatırlayırıq ki, yarım və ya tam dalğalı rektifikatorlardan SC çıxış gərginliyi SC gərginliyi ilə üst-üstə düşən zəif dalğaya malikdir və yükün qiyməti dəyişdikcə orta çıxış gərginliyi də dəyişir. Sadə zener stabilizator dövrəsini aşağıdakı şəkildə rektifikatorun çıxışına birləşdirməklə daha sabit çıxış gərginliyi meydana gətirmək olar.



DC voltage from rectifier or smoothing circuit – Rektifikator və ya düzləndirici dövrədən SC çıxış gərginliyi

Şəkil 4: Zener Diodunun Nizamlayıcısı

R_S rezistoru kombinasiya boyu birləşdirilmiş V_S gərginlik mənbəyi ilə dioddan keçən cərəyanı məhdudlaşdırmaq üçün zener didodu ilə ardıcıl birləşdirilib. V_{out} stabilləşmiş çıxış gərginliyi zener diodu boyu kənarlaşdırılır. Zener diodu SC mənbəyinin müsbət şini ilə birləşdirilmiş katod terminalına qoşulub. Beləliklə, bu əks sürüşməlidir və qırılma vəziyyətində işləyəcək. R_S rezistoru dövrədən keçən maksimum cərəyanı məhdudlaşdırmaq üçün seçilib.

Dövrəyə yük birləşdirilmədikdə yük cərəyanı sıfıra bərabər olur ($I_L = 0$) və bütün dövrə

cərəyanı zener diodundan keçərkən, diod maksimum elektrik enerjisini paylayır. Həmçinin yerli yük müqaviməti R_L qoşulduqda, ardıcıl birləşdirilmiş R_S rezistorunun aşağı qiyməti dioddan keçən cərəyan şiddətinin yüksək qiyməti ilə nəticələnəcək və diodun elektrik enerjisini paylamaq tələbi yüksələcək. Buna görə də yüksüz və ya yüksək müqavimət şəraitində zener diodunun maksimal elektrik qiymətindən yüksək olmayacaq ardıcıl birləşdirilmiş müqavimət səviyyəsi seçilərkən diqqətli olmaq lazımdır.

Yük zener diodu ilə paralel şəkildə birləşdirilib, ona görə də, R_L boyunca gərginlik həmişə zener gərginliyi ilə eynidir ($V_R = V_Z$). Gərginliyin stabilizasiyasının effektiv olduğu minimal cərəyan mövcuddur və yüklü vəziyyətdə işləyərkən zener cərəyanı həmişə qırılma sahəsində cərəyan qiymətindən yüksək olmalıdır. Əlbəttə, cərəyanın yuxarı həddi cihazın nominal yük götürmə qabiliyyətindən asılıdır və V_S elektrik mənbəyinin gərginliyi V_Z-dən böyük olmalıdır.

Zener diodunun stabilizator dövrələri ilə bağlı bir kiçik problemi mövcuddur ki, diod gərginliyi stabilləşdirməyə çalışdığı üçün bəzən sabit cərəyan axınlarında elektrik küy yarada bilər. Adətən, bu əksər tətbiqetmələr üçün problem yaratmır, lakin zener diodunun çıxışına yüksək qiymətli ayırıcı kondensatorun əlavə edilməsi dalğaların əlavə düzləndirilməsini zəruri edə bilər.

Yekun olaraq demək olar ki, zener diodu həmişə əks istiqamətli sürüşmə vəziyyətində fəaliyyət göstərir. Giriş gərginliyində variasiyalar və ya yük cərəyanında dəyişikliklərin meydana gəlməsinə baxmayaraq, yük boyu sabit cərəyanlı çıxış gərginliyi əldə tmək üçün zener diodundan istifadə etməklə gərginliyi tənzimləyən dövrə hazırlana bilər. Zener gərginliyinin tənzimləyicisi V_S giriş gərginliyi ilə ardıcıl birləşdirilən və əks sürüşməli vəziyyətdə R_L yükü ilə paralel birləşdirilən zener dioduna malik cərəyanı məhdudlaşdıran R_S rezistorundan ibarətdir. Stabilləşdirilmiş çıxış gərginliyi həmişə diodun V_Z qırılma gərginliyi ilə eyni qiymətdə seçilir.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Voltmetr yük ilə paralel, ampermetr yük ilə ardıcıl birləşdirilir.
2. Voltmetrin və ampermetrin qütbləri düzgün şəkildə birləşdirildiyindən əmin olun və yalnız bundan sonra elektrik enerjisini təmin edin.
3. Cərəyanın rezistorun icazə verilən cərəyanından yüksək olmadığından əmin olun.
4. Ölçülən terminal ölçmə terminalın qoşulu olduğu zaman çevirmə çarxını dəyişməyin.
5. Hər diodun xüsusiyyətinə uyğun gələn aralığa malik ölçmə sayğacından istifadə edin.
6. Hissələrin başlıqlarını düz bucaq şəklində əyməyin.
7. Tapşırıqdan əvvəl istifadə olunacaq diodların və ya zener diodlarının nominal qiymətlərini yoxlayın.
8. Dioda və zener dioduna maksimum nominal gərginlikdən daha yüksək gərginlik tətbiq etməyin. Diodun və zener diodunun qütblərinin düzgün qoşulduğundan əmin olun.

Təcrübə mərhələləri

1. Avadanlığı, alətləri və materialları təcrübə üçün hazırlayın.

2. PN keçidli diod təcrübəsi

1) Diodun müqavimətini ölçün

(1) Ge diodunun (1N60) və Si diodunun (1N4148) düz və əks istiqamətləri üçün müqavimət qiymətləri ölçülür və Cədvəl 1-də qeyd edilir. Hal-hazırda düz istiqamətli müqavimət qiyməti əks istiqamətli müqavimət qiymətindən xeyli kiçikdir.

(2) Əks istiqamətli müqavimətin düz istiqamətli müqavimətə olan nisbətini ($\frac{R_R}{R_F}$) hesablayın və onu Cədvəl 1-də qeyd edin.

2) PN diodlarının düz istiqamət xüsusiyyətinin təcrübəsi

(1) PN keçidli dioddan (1N60) istifadə etməklə Şəkil 5-də göstərilən şəkildə düz istiqamətli dövrəni birləşdirin.

(2) Diod boyu V_F gərginliyini Cədvəl 2-də verilən qiymətə dəyişərkən dioddan keçən I_F cərəyanını ölçmək üçün SC enerji mənbəyini nizamlayın və Cədvəl 2-də qeyd edin.

(3) Germanium diodları silisium diodları (1N4148) ilə əvəz edin və 2) təcrübə prosedurunu təkrarlayın.

(4) Yuxarıdakı təcrübə nəticələrindən əldə olunan verilənlərdən istifadə etməklə, V-I düz istiqamətli xarakteristika əyrisi çəkilir.

3) PN diodlarının əks istiqamət xüsusiyyətinin təcrübəsi

(1) PN keçidli dioddan (1N60) istifadə etməklə, əks dövrəni [Şəkil 6]-də göstərilən şəkildə birləşdirin.

(2) Diod boyu V_R gərginliyini Cədvəl 3-də verilən və qeyd olunan qiymətə dəyişərkən dioddan keçən I_R cərəyanını ölçmək üçün SC elektrik mənbəyini nizamlayın və Cədvəl 3-də qeyd edin.

(2) Germanium diodları silisium diodları (1N4148) ilə əvəz edin və 2) təcrübə prosedurunu təkrarlayın.

(3) Yuxarıdakı təcrübi nəticələrdən əldə olunan verilənlərdən istifadə etməklə V-I əks istiqamətli xarakteristika əyrisi çəkilib.



Şəkil 5: Düz istiqamət xüsusiyyətinin təcrübə dövrəsi



Şəkil 6: Əks istiqamət xüsusiyyətinin təcrübə dövrəsi

3. Zener diodunun təcrübəsi

1) Zener diodlarının düz istiqamət xüsusiyyətinin təcrübəsi

(1) Zener diodundan istifadə etməklə düz dövrəni Şəkil 7-də göstərildiyi kimi birləşdirin.

(2) V_F Cədvəl 4-də verilən qiymətə çatdıqda I_F cərəyanını ölçmək üçün SC elektrik mənbəyinin V gərginliyini nizamlayın və bunu Cədvəl 4-də qeyd edin.

(3) V-I qiymətinə əsasən, düz müqavimətli R_F ($=\frac{V_F}{I_F}$) müqaviməti hesablanır, Cədvəl 7-də qeyd olunur və zener diodunun düz xarakteristika əyrisi çəkilir.

2) Zener diodlarının əks istiqamət xüsusiyyətinin təcrübəsi

(1) Zener diodundan istifadə etməklə, əks dövrəni Şəkil 8-də göstərildiyi kimi birləşdirin.

(2) SC elektrik mənbəyinin V gərginliyini nizamlamaqla VR əks gərginliyi Cədvəl 5-də verilən qiymətə çatdıqda, zener diodundan keçən I_Z cərəyanı ölçülür və Cədvəl 7-də qeyd olunur (ilkin cərəyan [μA]-dır və cərəyan axmağa başladıqda ampermetrlə [mA] ölçün).

(3) V-I qiymətindən istifadə etməklə, düz müqavimət R_Z ($=\frac{V_R}{I_Z}$) hesablanır, Cədvəl 5-ə yazılır və zener diodunun düz xarakteristika əyrisi çəkilir.



Şəkil 7: Düz istiqamət xüsusiyyətinin təcrübə dövrəsi



Şəkil 8: Əks istiqamət xüsusiyyətinin yoxlama dövrəsi

4. Təmizlik və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlığı və materialları müvafiq şəkildə saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulu təcrübi olaraq məşq etdikdə aşağıdakıları yerinə yetirdimi? 1. Yarımkeçiricilərin xassələrini izah etdimi? 2. PN keçidli diodun əməliyyat xüsusiyyətlərini izah etdimi? 3. PN keçidli diodun gərginlik-cərəyan xarakteristika əyrisini ölçdümü? 4. Zener diodunun gərginlik-cərəyan xarakteristikası əyrilərini ölçdümü?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat				
Təcrübənin adı	PN keçidli/Zener diodunun əməliyyat xarakteristikasının ölçülməsi		Tarix	
Şöbə		Ad		

1.1 Təcrübə nəticələrinin cədvəli

Cədvəl 1: Düz və əks istiqamətli müqavimət qiymətləri

Bölmə	Düz istiqamətli müqavimət (RF)	**Əks istiqamətli müqavimət** (RR)	Müqavimət nisbəti $(\frac{R_R}{R_F})$
Ge 1N60			
Si 1N4148			

Cədvəl 2: Diodun V-I düz istiqamət xarakteristikası

V_F[V]		0	0.1	0.2	0.3	0.4	0.5	0.6	0.7	0.8	0.9	1.0
I_F[mA]	Ge											
	Si											

Cədvəl 3: Diodun V-I əks istiqamət xarakteristikası

V_R[V]		10	20	30	40	50	
I_R[μA]	Ge						
	Si						



(a) V-I düz istiqamət xarakteristikası əyrisi (b) V-I əks istiqamət xarakteristikası əyrisi

PN keçidli diodun gərginlik-cərəyan xarakteristikası əyrisi

1.2. Baxış və izah

1) PN keçidli diodun quruluşunu və simvollarını izah edin.
2) **Əks və düz istiqamətli sürüşmələri izah edin.**

2.1 Təcrübə nəticələrinin cədvəli

Cədvəl 4: Zener diodunun V-I düz istiqamət xarakteristikası

V_F[V]	0	0.1	0.2	0.3	0.4	0.5	0.6	0.65	0.7	0.8	0.9
I_F[mA]											
R_F[Ω]											

※ *R_F[Ω] hesablanmış qiymətdir*

Cədvəl 5: Zener diodunun V-I əks istiqamət xarakteristikası

V_R[V]	0	1	3	5	5.5	6	6.5	0.65	7	7.5	8	9
I_Z[mA]												
R_Z[Ω]												

※ *R_Z[Ω] hesablanmış qiymətdir*



(a) Düz istiqamət xarakteristikasının əyrisi (b) Əks istiqamət xarakteristikasının əyrisi

Zener diodunun gərginlik-cərəyan xarakteristika əyrisi

1.2. Baxış və izah

1) Zener diodunun sürüşmə metodunu təsvir edin.
2) Zener diodunun gərginlik-cərəyan xarakteristika əyrisini təsvir edin və izah edin.
3) Zener diodları ilə adi diodların arasındakı fərqi izah edin.
4) Sabit gərginlik dövrələrində zener diodlarının rolunu izah edin.

11. Rektifikator dövrəsi ilə təcrübə

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Rektifikator dövrəsinin xarakteristikalarını izah edə biləcək;
2. Rektifikator dövrəsinin yarım-dalğa (tam dalğa, körpü) giriş/çıxış siqnallarını ölçə biləcək.

Təcrübə materialları:

1. Rezistor: 1[kΩ]
2. Diod: 1N4001 4ea
3. Transformator: 220V/6V 0.5A
4. Maket sxem və birləşdirici kabel

Avadanlıq və alətlər:

1. SC elektrik mənbəyi
2. Ossiloqraf
3. Multitester (Analoq/Rəqəmli növü)

Mövzu ilə əlaqəli biliklər

1. Rektifikator dövrəsi

Dəyişən cərəyanı (DC) sabit cərəyana (SC) çevirmə prosesi rektifikasiya adlanır və yarımkeçirici diod istifadə olunur. Rektifikator kimi istifadə olunan silikon (Si) diodlar çox aşağı düz istiqamət müqaviməti qiymətinə, lakin sonsuzluğa yaxın əks müqavimət qiymətinə malikdirlər.

Şəkil 1-də təsvir olunduğu kimi, dövrə rektifikator dövrəsindən, düzləndirici dövrədən və sabit gərginlikli elektrik mənbəyi dövrəsindən ibarətdir.



Input voltage – giriş gərginliyi
Transformer circuit – transformator dövrəsi
Transformer – transformator
Rectifier circuit – düzləndirici dövrəsi
Diode – diod
Smoothing circuit – hamarlayıcı dövrə
Capacitor – kondensator
Regulator circuit – tənzimləyici dövrə
Regulator – tənzimləyici
Stabilization output voltage – stabilləşdirilmiş çıxış gərginliyi

Şəkil 1: Rektifikator elektrik mənbəyi dövrəsinin quruluşu

Rektifikasiya dövrəsində dəyişən cərəyan bir istiqamətə malik cərəyana çevrilir və düzləndirici dövrədə dəyişən cərəyandakı zəif impulslu cərəyan komponenti aradan götürülür ki, sabit cərəyan batareya ilə eyni optimal qiymətə malik olsun. Lakin bir çox hallarda SC çıxış gərginliyi elektrik mənbəyindəki və ya yükdəki variasiyalar səbəbilə daima dəyişir, buna görə də dəyişməyən SC gərginliyini əldə etmək üçün sabit gərginlik dövrəsindən istifadə olunur. Bu metod SC sabit gərginlikli elektrik dövrəsi və ya SC stabilləşdirilmiş elektrik dövrəsi adlandırılır. Sabit gərginlik diodu olan zener diodundan, sabit gərginlikli induktivlik çarxı və ya bənzər qurğulardan istifadə olunur.

1) İmpuls əmsalı

İmpuls əmsalı rektifikasiya edilmiş SC çıxış qiymətində hansı miqdar DC-nın olduğunu göstərir. Buna görə də, impuls sürəti və ya axının impuls sürəti və impuls əmsalı γ ilə işarələnir və SC gərginlikdə və ya cərəyanda olan titrəmə komponentinin miqdarına işarə edir.

$$\gamma = \frac{Çıxış\ siqnalının\ DC\ komponentinin\ OK\ qiyməti}{Çıxış\ siqnalının\ SC\ komponenti\ (orta\ qiymət)}$$

$$\frac{I'_{rms}}{I_{DC}} = \frac{V'_{rms}}{V_{DC}}$$

2) Gərginliyin fluktuasiya sürəti

Gərginliyin tənzimlənməsi (α) SC çıxış gərginliyinin yükün dəyişməsi səbəbilə meydana gələn SC yük axınındakı dəyişikliklərlə variasiya etmə dərəcəsini göstərir.

$$\alpha = \frac{Yüksüz SC gərginliyi(V_o) - Tam yüklü SC gərginliyi(V_{DC})}{Tam yüklü SC gərginliyi(V_{DC})} \times 100[\%]$$

Buna görə də, ideal elektrik dövrəsi yük axınının səviyyəsindən asılı olmayaraq, sabit çıxış gərginliyinə malik olmalıdır və gərginliyin variasiya sürəti sıfıra bərabər olmalıdır. Yəni, yükdən asılı olmayaraq, SC çıxış gərginliyinin sabit olması arzuolunan olduğu üçün, gərginlik nə qədər az dəyişsə, o qədər yaxşıdır.

3) Rektifikasiyanın səmərəliliyi

Rektifikasiyanın səmərəliliyi (η) DC giriş elektrik enerjisinin SC çıxış elektrik enerjisinə nisbətidir.

$$\eta = \frac{SC elektrik enerjisi(P_{SC})}{DC elektrik enerjisi(P_{DC})} \times 100[\%]$$

4) Ən yüksək əks istiqamət müqaviməti

Diod boyu ən yüksək gərginlik əks istiqamətdə meydana gəlir və onun qiyməti ən yüksək qiymətdir. Rektifikator diodu elə bir qırılma gərginliyinə malik olmalıdır ki, bu qırılma nöqtəsi hər dövrəyə ən yüksək gərginlik tətbiq olunduqda belə zədələnməsin. Diod seçərkən dözümlülük müqaviməti ilə bərabər bu axıcılıq xüsusiyyətinə də fikir vermək lazımdır.

2. Yarımdalğa rektifikator dövrəsi

Şəkil 2 (a) tək-fazalı yarım dalğa rektifikasiya dövrəsini, Şək. 2 (b) giriş və çıxış siqnallarını təsvir edir. Dioda SC tətbiq olunduqda, müsbət (+) yarım dalğa düz istiqamətli cərəyan (*id*)

şəklində dioddan keçir, lakin mənfi yarım dalğa keçmir.

Buna görə də yalnız yarım dalğa cərəyanı şəklində axan gərginlik siqnalı Şək. 2 (b)-də göstərilən şəkildə π (180°) aralıqlarla R_L yük müqavimətinin hər iki ucunda meydana gəlir.

Şək. 2 (a)-da yükdən axan *id* cərəyanı aşağıdakı şəkildə təsvir olunur.

$$id = I_m sin\omega t (0 \le \omega t \le \pi)$$
$$id = 0 (\pi \le \omega t \le 2\pi)$$
$$I_m = \frac{V_m}{r_f + R_L}$$



(a) Yarım dalğa rektifikasiya dövrəsi (b) Giriş/çıxış siqnalı

Şəkil 2: Yarım dalğa rektifikasiya dövrəsi və siqnal

1) Çıxış cərəyanının orta qiyməti

(b) bəndində təsvir olunan yarım dalğa rektifikasiya siqnalının orta qiyməti əldə olunduqda, R_L -dan axan cərəyan SC çıxış cərəyanına çevrilir. SC çıxış cərəyanı I_{SC} ilə işarələnir.

$$I_{SC} = \frac{I_m}{\pi} = \frac{1}{\pi} \cdot \frac{V_m}{r_f + R_L}$$

2) Çıxış gərginliyinin orta qiyməti

Çıxış cərəyanı I_{SC} R_L-dan axdığı üçün, SC çıxış gərginliyi V_{SC} aşağıdakı şəkildə ifadə oluna bilər.

$$V_{SC} = I_{SC} \cdot R_L = \frac{r_f + R_L}{\pi(r_f + R_L)} \cdot R_L = \frac{1}{\pi} \cdot \frac{V_m}{1 + (r| \quad |f + R_L)}$$

3) Gərginliyin fluktuasiya sürəti

$$a = \frac{V_O - V_{SC}}{V_{SC}} = \frac{I_{SC}(R_L + r_f) - I_{SC} \cdot R_L}{I_{SC} \cdot R_L} = \frac{r_f}{R_L} \times 100[\%]$$

Yarım dalğa rektifikasiya dövrəsində I_{SC} əsasında V_{SC} gərginliyinin variasiyası aşağıdakı şəkildə hesablana bilər.

$$V_{DC} = \frac{V_m}{\pi} - I_{DC} \cdot r_f$$

4) İmpuls sürəti

id çıxış cərəyanının tərkibindəki DC komponentinin optimal qiymətini I'_{rms} ilə işarə etsək,

$$\gamma = \frac{I'_{rms}}{I_{SC}} = \frac{\sqrt{I'_{rms}{}^2 - I_{DC}{}^2}}{I_{SC}} = \sqrt{\left(\frac{I_{rms}}{I_{SC}}\right)^2 - 1}$$

Yarım dalğa rektifikasiyası halında, $\frac{I_{rms}}{I_{SC}} = \frac{I_m/2}{I_m/\pi} = \frac{\pi}{2} = 1.57$ olduğu üçün, impuls sürəti γ aşağıdakı kimi hesablanacaq:

$$\gamma = \sqrt{\left(\frac{\pi}{2}\right)^2 - 1} = \sqrt{1.57^2 - 1} = 1.21$$

Faiz şəklində ifadə olunduqda, 1.21 x 100 [%] = 121 [%] olur və yarım dalğa rektifikasiya dövrəsinin DC-nı SC-ya çevirməkdə nisbətən qeyri-səmərəli olduğu qeyd oluna bilər.

5) SC çıxışı və səmərəliliyi

Rektifikasiya dövrəsinin SC çıxış qiyməti P_S SC gərginliyi V_{SC} ilə I_{SC} SC axınının hasili kimi ifadə olunur:

$$P_S = V_{SC} \cdot I_{SC} = I_{SC} \cdot R_L \cdot I_{SC} = \frac{V_m{}^2 \cdot R_L}{\pi^2 \left(r_f + R_L\right)^2}$$

Rektifikasiya dövrəsinin səmərəliliyi :

$$\eta = \frac{0.406}{1 + \left(r_f / R_L\right)}$$

r_f nəzərə alınmadıqda, =0.406, və ya 40.6 [%] nəzəri cəhətdən ən yüksək səmərəlilik əmsalıdır. Lakin olduqda, maksimal çıxış qiyməti əldə olunur və səmərəlilik 20.3 [%] olur.

6) Yarım dalğa rektifikasiya dövrəsinin xüsusiyyətləri

① Dövrənin konfiqurasiyası sadədir.

② İmpuls sürəti yüksəkdir (121 [%]).

③ Elektrik gərginliyindən istifadə nisbəti pisdir (maksimal rektifikasiya səmərəliliyi 40.6 [%]-dir).

④ Elektrik transformatorunun dəmir nüvəsi SC maqnetizasiyası ilə doyur.

⑤ İmpuls tezliyi elektrik tezliyi ilə eynidir və əsasən, kiçik tutumlarda istifadə olunur.

3. Tam dalğa rektifikasiya dövrəsi

Tam dalğa rektifikasiya dövrəsi mərkəzi bölməli və ya körpü tipli olur.

Bu növ rektifikator iki dioddan və mərkəzi bölməli ikinci dərəcəli dolağa malik transformatordan istifadə edir. DC axınının müsbət yarım dövrəsi zamanı diodu düz istiqamətə meylli olur və cərəyan bu dioddan yükə axır. Giriş cərəyanının mənfi yarım dövrəsi zamanı D_2 diodu düz istiqamətlidir və D_1 diodu əks istiqamətli olur. Bu ən yüksək mənfi səviyyədə yük cərəyanı D_2-dən axmağa başlayır. Yadda saxlayın ki, gərginliyin qütbləri dəyişsə də, yükdən axan cərəyan dəyişmir.

Bu rektifikatorun üstünlüyü daha aşağı impuls əmsalı və yüksək səmərəliliyidir, lakin mərkəzi bölməli ikinci dərəcəli dolağa malik transformatorun zəruri olması əsas çatışmazlıqlardan biridir və dövrəni daha məsrəfli edir.



$$I_{DC} - I_{SC}$$

(a) Giriş siqnalı (b) Rektifikator dövrəsi (c) Rektifikasiya olunmuş V-I siqnalı

Şəkil 3: Tam dalğa mərkəzi bölməli rektifikator dövrəsi və siqnalı

1) SC çıxış elektrik enerjisi

Cərəyanın orda qiyməti IDC aşağıdakı şəkildə hesablanır:

$$I_{SC} = \frac{2I_m}{\pi} = \frac{2}{\pi} \cdot \frac{V_m}{r_f + R_L}$$

2) SC çıxış cərəyanı və səmərəlilik

Rektifikasiya dövrəsinin SC çıxış qiyməti P_S SC gərginliyi V_{SC} ilə I_{SC} SC cərəyanının hasili kimi ifadə olunur:

$$P_{SC} = {I_{SC}}^2 \cdot R_L = \frac{4{V_m}^2 \cdot R_L}{\pi^2 \left(r_f + R_L\right)^2}$$

Rektifikator dövrəsinin səmərəliliyi η:

$$\eta = \frac{81.2}{1 + \left(r_f / R_L\right)} [\%]$$

Burada r_f diodun düz istiqamət müqavimətidir.

Yəni, rektifikasiyanın səmərəliliyi yarım dalğa rektifikasiya dövrəsində olduğundan iki dəfə çoxdur və nəzəri olaraq, $r_f = 0$ olduqda ən yüksək qiyməti 81.2 [%]olur.

3) İmpuls sürəti

$$\gamma = \frac{I_{rms}}{I_{SC}} = \sqrt{\left(\frac{I_{rms}}{I_{SC}}\right)^2 - 1}$$

Yarım dalğa rektifikasiyası halında, $\frac{I_{rms}}{I_{SC}} = \frac{I_m/\sqrt{2}}{2\,I_m/\pi} = \frac{\pi^2}{8} = 1.11$ olduğu üçün, impuls sürəti γ aşağıdakı qiyməti alır:

$$\gamma = \sqrt{1.11^2 - 1} = 0.48 \times 100[\%] = 48[\%]$$

4. Tam dalğa körpü tipli rektifikator

Eyni ikincili gərginlikdən istifadə edən körpü tipli rektifikator tam dalğa mərkəzi bölməli transformatora malik rektifikatorla müqayisədə demək olar ki, iki dəfə yüksək çıxış gərginliyi meydana gətirə bilər. Giriş SC-nın müsbət yarım dövrəsi zamanı D_1 və D_2 diodları düz istiqamətli və D_3 və D_4 diodları əks istiqamətli olurlar. Buna görə də, yük D_1 və D_2 diodlarından keçir. Giriş SC-nın mənfi yarım dövrəsi zamanı D_3 və D_4 diodları düz istiqamətli və D_1 və D_2 diodları əks istiqamətli olurlar. Beləliklə, yük D_3 və D_4 diodlarından keçir.



(a) Giriş siqnalı (b) Rektifikator dövrəsi (c) Rektifikasiya olunmuş V-I siqnalı

Şəkil 4: Tam dalğa körpü tipli rektifikator dövrəsi və siqnalı

Bu yolla körpü tipli rektifikator üçün dörd diod tələb olunur, lakin transformatorun aralıq pilləsi olmadığı üçün transformatorun ölçüsü kiçilir və hər diod boyu maksimal əks istiqamət gərginliyi (PIV) 1/2 olur ki, bu da V_m-dir. Bu tip yüksək gərginliyin rektifikasiyası üçün geniş şəkildə istifadə olunur.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Voltmetr yükə paralel, ampermetr ardıcıl qoşulur.
2. Voltmetrin və ampermetrin qütblərinin müvafiq şəkildə qoşulduğundan əmin olun və sonra elektrik enerjisi təchiz edin.
3. Cərəyan şiddətinin rezistor üçün icazə verilən cərəyan şiddətindən yüksək olmamasına diqqət edin.
4. Ölçmənin aparıldığı terminal ölçmə aparan terminala qoşulu olduğu zaman çevirmə çarxının vəziyyətini dəyişməyin.
5. Hər diodun xüsusiyyətlərinə uyğun gələn ölçmə aralığından istifadə edin.
6. Hissələrin başlıqlarını düz bucaq şəklində əyməyin.
7. Rektifikatorun elementinə maksimal əks istiqamət gərginliyindən daha yüksək gərginlik tətbiq etməyin.
8. Rektifikatorun elementlərini birləşdirərkən qütblərə diqqət edin.

Təcrübə mərhələləri

1. Avadanlığı, alətləri və materialları təcrübə üçün hazırlayın.

2. Yarım dalğa rektifikasiya dövrəsi ilə təcrübə

1) Yarım dalğa rektifikasiya dövrəsini Şəkil 5-də göstərilən şəkildə birləşdirin.
2) 220 [V] DC gərginliyini birləşdirin və çıxış siqnallarının (B və C nöqtələri arasında) şəklini və ikinci tərəfə osilloqrafa malik transformatorun giriş siqnallarında və R_L yük müqavimətindəki siqnalları (A və C nöqtələri arasında) Şəkildə təsvir edin.
3) Giriş/çıxış siqnalının ən yüksək qiymətini ($V_{p\text{-}p}$) ölçün və Cədvəl 1-də qeyd edin.
4) Giriş/çıxış gərginliyi DC voltmetrlə və SC voltmetrlə ölçülür və Cədvəl 1-də qeyd olunur.
5) Ölçülmüş qiymətlərdən istifadə edərək, maksimal qiyməti, orta qiyməti və orta kvadratik qiyməti hesablayın və Cədvəl 1-də qeyd edin.



Şəkil 5: Yarım dalğa rektifikasiya dövrəsinin sınağı

3. Tam dalğa rektifikasiya dövrəsi ilə təcrübə

1) Mərkəzi bölməli rektifikasiya dövrəsi

(1) Mərkəzi bölməli tam dalğa rektifikator dövrəsini Şəkil 6-da göstərilən şəkildə birləşdirin.
(2) 220 [V] 60[Hz] SC giriş gərginliyini birləşdirin və ikincili yan giriş siqnalının çıxış siqnal (D-C) nöqtəsində ölçmə aparın.
(3) Giriş/çıxış siqnalının ən yüksək qiymətini ($V_{p\text{-}p}$) ölçün və Cədvəl 2-də qeyd edin.



Şəkil 6: Mərkəzi bölməli rektifikator dövrəsinin sınağı

(4) Giriş/çıxış gərginliyi DC voltmetrlə və SC voltmetrlə ölçülür və Cədvəl 1-də qeyd olunur.
(5) Giriş/çıxış gərginliyi DC-lı voltmetrlə və SC-lı voltmetrlə ölçülür və Cədvəl 2-də qeyd olunur.
2) Körpü tipli rektifikasiya dövrəsi
(1) Yarım dalğa rektifikator dövrəsini [Şəkil 7]-də göstərilən şəkildə birləşdirin.
(2) Transformator ikinci tərəfində giriş siqnalı (A-B nöqtəsi) və R_L yüküdə meydana gələn çıxış siqnalı [Şəkil 8]-də təsvir olunub. Giriş/çıxış siqnalının ən yüksək qiymətini ölçün və Cədvəl 2-də qeyd edin.
(3) D_1 və D_3 diodlarına tətbiq olunan gərginlik siqnalını ölçün və [Şəkil 8]-də təsvir edin.
(4) Giriş/çıxış siqnalının ən yüksək qiymətini (V_{p-p}) ölçün və <Cədvəl 2>-də qeyd edin.
(5) DC və SC voltmerlə giriş/çıxış gərginliklərini ölçün və <Cədvəl 2>-də qeyd edin.



Şəkil 7: Körpü tipli rektifikator dövrəsinin sınağı

4. Təmizlik və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlıqları və materialları müvafiq şəkildə saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulu təcrübi olaraq məşq etdikdə aşağıdakıları yerinə yetirdimi? 1. Rektifikator dövrəsinin xüsusiyyətlərini izah etdimi? 2. Yarım dalğa (tam dalğa, körpü tipli) rektifikator dövrəsinin rektifikasiya prosesini izah etdimi? 3. Rektifikator dövrəsinin yarım dalğa (tam dalğa, körpü tipli) giriş/çıxış siqnalı ilə təcrübə apardımı?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat			
Təcrübənin adı		Tarix	
Şöbə		Ad	

1.1 Təcrübə nəticələrinin cədvəli

Cədvəl 1: Yarım dalğa rektifikatorunun giriş/çıxış xüsusiyyətləri

Bölmə		Giriş (A-C)	Çıxış (B-C)	Hesablama		
				Maks	Orta	Min
$V_{P\text{-}P}$[V]	Ossiloqraf					
Gərgin-liyin ölçülməsi	DC-lı Voltmetr					
	SC-lı Voltmetr					



(a) DC giriş siqnalı (A-C nöqtəsi) (b) SC çıxış siqnalı (B-C nöqtəsi)

Yarım dalğa rektifikator dövrəsinin giriş/çıxış siqnalı

1.2. Baxış və izah

1) Rektifikatorun yükü boyu orta gərginlik 600 [V] və impuls sürəti 2 [%] olarsa, dəyişən cərəyan şiddəti nə qədərdir?
2) Yarım dalğa rektifikasiya dövrəsində düz istiqamətli gərginlik 20 [Ω] və yükün gərginliyi 1000 [Ω] olduqda gərginliyin dəyişmə sürəti (%) nə qədərdir?
3) Nominal yükdə çıxış gərginliyi 50 [V] olan elektrik enerjisi mənbəyi mövcuddur. Yüksüz vəziyyətdə çıxış gərginliyi 55 [V]-a qalxdıqda, elektrik gərginliyinin dəyişmə sürəti nəyə bərabərdir?
4) D_1 ossiloqraflarında DC voltmetrləri, SC voltmetrləri və gərginlik siqnalları ilə ölçmələr arasındakı fərqləri təsvir edin.

2.1 Təcrübə nəticələrinin cədvəli

Cədvəl 2: Taç dalğa rektifikatorunun giriş/çıxış xüsusiyyətləri

Bölmə		Giriş		Çıxış	
		Mərkəzi bölməli	Körpü tipli	Mərkəzi bölməli	Körpü tipli
V_{P-P}[V]					
Gərginliyin ölçülməsi	DC voltmetri				
	SC voltmetri				

(a) DC giriş siqnalı (A-C nöqtəsi)



(b) SC çıxış siqnalı (D-C nöqtəsi)

Mərkəzi bölməli rektifikator dövrəsinin giriş/çıxış siqnalı



(a) DC giriş siqnalı (A-B nöqtəsi)



(b) SC çıxış siqnalı (R_L)



(c) D_1 boyu gərginliyin siqnalı



(d) D_3 boyu gərginliyin siqnalı

Körpü tipli rektifikator dövrəsinin giriş/çıxış siqnalı

2.2. Baxış və izah

1) Tək fazalı tam dalğa rektifikator dövrəsinin sabit cərəyan çıxış qiyməti tək fazalı yarım dalğa rektifikator dövrəsində olduğundan nə qədər çoxdur?
2) Yarım dalğa rektifikator dövrəsi ilə müqayisədə tam dalğa rektifikator dövrəsinin impuls gərginliyini təsvir edin.
3) Mərkəzi bölməli tam dalğa rektifikasiya dövrəsi ilə körpü tipli rektifikator dövrəsi arasındakı fərqləri izah edin.

12. Gərginliyi stabilləşdirən dövrə ilə təcrübə

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Sabit gərginlikli elektrik mənbəyi dövrəsinin xarakteristikaları ölçə biləcək və növlərini tanıyacaq;
2. Tranzistordan və ya Zener diodunda istifadə edərək, sabit gərginlikli elektrik mənbəyi dövrəsini quraşdıra biləcək;
3. İD-dən istifadə etməklə, gərginliyi stabilləşdirən dövrə quraşdıra və təmir edə biləcək;
4. Sabit cərəyanlı dövrədə gərginliyin dəyişmə əmsalı və impuls **əmsalını ölçəcək.**

Təcrübə materialları:

1. Rezistor: 0kΩ(1/2W)
2. Kondensator: Elektrolitik 100μF/25V, 1000μF/25V, 0.1μF/16V
3. Yarımkeçirici: Diod 1N4001, 1N4003 5ea, TR 2SD234, 2SC735 each 2ea, Zener Diod ZD5V 1ea, Requlyator IC 7805, 7812 each 1ea
4. Transformator: 220V/6V 0.5A
5. Maket sxem və birləşdirici kabel
6. Universal ÇDS

Avadanlıq və alətlər:

1. SC elektrik mənbəyi
2. Multitester (Analoq/rəqəmli növü)
3. Ossiloqraf

Mövzu ilə əlaqəli biliklər

1. Gərginliyi stabilləşdirən dövrə

SC elektrik mənbəyinin gərginliyinin hətta yük dəyişdikdə belə artıb-azalmaması vacibdir və gərginlik dəyişməsini azaltmaqla stabilləşdirmə tələb olunur. Bu məqsədlə istifadə olunan stabilləşmiş enerji dövrəsinin prinsipi Şəkil 1-də göstərilmişdir. Stabilləşmiş elektrik mənbəyinin dövrəsi nəzarət metoduna əsasən ardıcıl və paralel birləşdirilmiş nəzarət növləri kimi təsnifləşdirilir. Sabit gərginlikli diodlarda sabit gərginlikli diodlar və tranzistorlarda ardıcıl birləşdirilmiş nəzarət stabilizasiya dövrələri geniş istifadə olunur.



Şəkil 1: Gərginliyi stabilləşdirən dövrənin sadə prinsipi

1) Sabit gərginlikli diodda istifadə olunan stabilizasiya dövrəsi (Şəkil 2-yə istinad edin)

Ümumi diodda olduğu kimi, zener diodları da cərəyanın düz istiqamətdə rahat şəkildə axdığı qırılma vəziyyətinə malikdirlər, lakin gərginlik əks istiqamətli sürüşmədə müəyyən gərginlikdən yüksək olduqda gərginlik dəyişmir və cərəyan qəfil axır. Sabit gərginlikli diodun xarakteristika əyrisi əks istiqamətdə sabit terminal gərginliyindən istifadə edən dövrədir və çıxış gərginliyi yalnız zener gərginliyi ilə müəyyən edilir.



İnput power – giriş elektrik enerjisi
Transformer – transformator
Rectification circuit – rektifikasiya dövrəsi
Smoothing unit – düzləndirici dövrə
Stabilization circuit – stabilləşdirmə dövrəsi
DC load – SC yükü

Şəkil 2: Zener diodunun istifadə etdiyi stabilizasiya dövrəsi

2) TR stabilizasiya dövrəsi (Şəkil 3)

Cərəyan-gərginlik diodunun stabilizasiya dövrəsinin çatışmazlıqlarını aradan qaldırmaq üçün TR1 nəzarət elementi, TR2 komparator (müqayisə) elementi və ZD gərginliyə istinad bölməsindən istifadə olunur. Çıxış gərginliyi yüksək olduqda, TR2 baza gərginliyi yüksəlir və zener gərginliyi sabit qalır. Buna görə də, çıxış gərginliyini arzuolunan səviyyədə saxlamaq üçün TR2-nin VBE gərginliyi azalır və TR1-in daxili müqaviməti yüksəlir.



İnput voltage – giriş gərginliyi
Output voltage – çıxış gərginliyi

Şəkil 3: Tranzistor ilə stabilizasiya dövrəsi

2. Gərginliyi tənzimləyən İD dövrəsi

1) Sabit gərginlikli inteqral dövrəsinə (İD) həm də gərginlik tənzimləyici olaraq istinad edilir. Tətbiq sahəsində asılı olaraq, 78 ardıcıl birləşdirilmiş üç və ya dörd terminallı növü geniş istifadə olunur.

2) Sabit gərginlikli İD bir qablaşdırmada TR və rezistorun birləşməsində ibarətdir. Cədvəl 1 (a)-da və (b)-də (+) gərginlik meydana gətirə bilən gərginlik tənzimləyici üç terminallı inteqral dövrəsinin növü və adı və Cədvəl 1 (b)-də 78LXX və 79MXX göstərilib. Məsələn, 78L05 çıxış gərginliyi +5[V] olan və nominal cərəyanı 100 [mA] olan sabit gərginlikli İD-dir.



İnput voltage – giriş gərginliyi
Output voltage – çıxış gərginliyi
IN – giriş
OUT - çıxış

Şəkil 4: Gərginliyi tənzimləyən İD stabilizasiya dövrəsi

Cədvəl 1: Gərginliyi tənzimləyən üç terminallı İD növü və çıxış gərginliyi

(a) 78XX

İD	Çıxış gərginliyi	Minimal giriş gərginliyi
7805	+5[V]	+7.3[V]
7806	+6[V]	+8.3[V]
7809	+9[V]	+12.5[V]
7812	+12[V]	+14.6[V]
7815	+15[V]	+17.5[V]
7818	+18[V]	+21.0[V]
7824	+24[V]	+27.1[V]

(b) 79XX

İD	Çıxış gərginliyi	Minimal giriş gərginliyi
7905	-5[V]	-7.3[V]
7906	-6[V]	-8.3[V]
7909	-9[V]	-12.5[V]
7912	-12[V]	-14.6[V]
7915	-15[V]	-17.5[V]
7918	-18[V]	-21.0[V]
7924	-24[V]	-27.1[V]

3) Şəkil 5 gərginliyi tənzimləyən üç terminallı İD və gərginliyi tənzimləyən dörd terminallı İD-nin kontakt birləşməsi diaqramını təsvir edir. Nəzərə alın ki, (+) və (-) elektrik mənbələri üçün İD kontakt birləşmələri tamamilə fərqlidir.



Şəkil 5: Gərginliyi tənzimləyən üç və dörd terminallı İD-nin kontakt tərtibatı

4) Gərginliyi tənzimləyən üç terminallı İD, əsasən, sabit çıxış gərginliyinə malikdir. Bununla belə, [Şəkil 5]-də göstərildiyi kimi, gərginliyi tənzimləyən 4-terminallı İD-nin IC A78 (və ya A79) MGXX, LM317, və s. nəzarət terminalı (CONT) çıxış gərginliyini fərqləndirən gərginliyi tənzimləyən İD də mövcuddur.

5) Sabit cərəyan dövrəsi giriş gərginliyi və ya yük dəyişməsinə uyğun olaraq, çıxış cərəyanını sabit saxlayır. O, transformatordan, zener diodundan və gərginliyi tənzimləyən İD-dən istifadə edir.

6) Çıxış gərginliyi üçün uA78/79 ardıcıl birləşdirilmiş dövrənin sadə tətbiqi Şəkil 6 (a)-da təsvir olunan sabit növdən və Şəkil 6 (b)-də təsvir olunan dəyişən növdən ibarət ola bilər. Giriş tərəfdə istifadə olunan dövrə İD-nin əməliyyatının sabitliyini artırır. Rektifikasiya dövrəsi giriş tərəfdə olduqda, düzləndirmə tutumu işə düşür. Çıxış tərəfi İD-nin dalğalanmalarının qarşısını almaq üçün işə düşür.



İnput voltage – giriş gərginliyi
Output voltage – çıxış gərginliyi

(a) Sabit çıxış növü (b) Dəyişən çıxış növü

Şəkil 6: uA78 / 79 İD-nin sadə konfiqurasiyası

7) Əməliyyat gücləndiricisinin fəaliyyəti üçün hər iki (±) elektrik mənbəyinin istifadə olunduğu hallarda, gücləndirici Şəkil 7-dəki kimi konfiqurasiya edilə bilər. (+) və (-) potensiallarının ortasında 0[V] torpaq gərginliyi olmalıdır. Dövrənin xarakteristikası ikiqat gərginlik dövrəsindən istifadə edən ikiqat elektrik mənbəyi transformatorundan istifadə etmədən, yarım gərginlikli rektifikator dövrəsindən və düzləndirici dövrədən istifadə olunaraq sadələşdirilib.



Şəkil 7: Hər iki elektrik dövrəsi

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Voltmetr yükə paralel, ampermetr ardıcıl qoşulur.
2. Voltmetrin və ampermetrin qütblərinin müvafiq şəkildə qoşulduğundan əmin olun və sonra elektrik enerjisi təchiz edin.
3. Cərəyan şiddətinin rezistor üçün icazə verilən cərəyan şiddətindən yüksək olmamasına diqqət edin.
4. **Ölçmənin aparıldığı terminal ölçmə aparan terminala qoşulu** olduğu zaman çevirmə çarxının vəziyyətini dəyişməyin.
5. Hər diodun xüsusiyyətlərinə uyğun gələn ölçmə aralığından istifadə edin.
6. Hissələrin başlıqlarını düz bucaq şəklində əyməyin.
7. Rektifikatorun elementinə maksimal əks istiqamət gərginliyindən daha yüksək gərginlik tətbiq etməyin.
8. Rektifikatorun elementlərini birləşdirərkən qütblərə diqqət edin.

Təcrübə mərhələləri

1. Avadanlığı, alətləri və materialları təcrübə üçün hazırlayın.

2. Şəkil 8-dəki dövrəyə baxın və sxem qurun.

3. Dövrəni quraşdırın.

1) Təmin ediləcək materialın keyfiyyətini yoxlayın.
2) Quraşdırdıqdan sonra bütün naqilləri yoxlayın.
3) Elektrik enerjisini qoşun.

4. Gərginliyi Stabilləşdirən Dövrənin Xarakteristikası

1) Multimetrdən istifadə etməklə, V_{IN} giriş gərginliyini ölçün və qiymətini Cədvəl 1-də qeyd edin.
2) V_{OUT} çıxış gərginliyini ölçün və qeyd edin.
3) Çıxış gərginliyini elə nizamlayın ki, VR minimum qiymətə malik olsun.
4) V_E buraxma gərginliyini, V_B baza gərginliyini və TR_2-nin kollektor gərginliyini ölçün və qeyd edin.
5) TR_1-in V_{BE} və V_{CE} gərginliklərini ölçün və qeyd edin.
6) VR maksimum qiymətə nizamlandıqdan sonra, (5)-də təsvir olunan şəkildə ölçün və Cədvəl 1-də qeyd edin.
7) VR 6[V] olaraq nizamlandıqdan sonra, (4)-dəki ölçü prosesini təkrarlayın və Cədvəl 1-də qeyd edin.



Şəkil 8: Gərginliyi stabilləşdirən dövrə təcrübəsi

5. Sabit gərginlikli İD dövrəsinin xarakteristikaları

1) İD mərkəzində olmaqla gərginliyi tənzimləyən İS dövrəsini verilmiş substratda yerləşdirin və matris diaqramını hazırlamaq üçün diodu və kondensatoru siqnal axını istiqamətində qoşun.
2) Sxemi tərtib edərkən, istilik paylayıcısının ölçüsünü nəzərə almaq üçün gərginliyi tənzimləyən İD istilik paylayıcısına quraşdırılmalıdır.
3) İD-dan istifadə edərək, gərginliyi tənzimləyən elektrik mənbəyi dövrəsinin xarakteristikalarını ölçün.
4) Dövrənin girişinə 220 [V] DC tətbiq edin və yük müqavimətini Cədvəl 2-də göstərilən şəkildə dəyişin, bu vəziyyətdə yük boyunca gərginliyi və yükdən keçən cərəyanı ölçün.
5) 4)-də ölçülmüş yük gərginliyini yüksüz təyin olunmuş 5[V] gərginlik ilə müqayisə edərək, yük müqavimətinin hər bir qiyməti üçün gərginliyin dəyişməsini hesablayın və Cədvəl 2-də qeyd edin.
6) İmpulsun yüklü halda 20 [Ω] çıxış müqaviməti ossiloqrafla ölçülür və impuls sürəti hesablanır. Ölçmə impulsu yüksəldikdə, ossiloqrafın DC/SC çevirmə aralığının dəyişən cərəyana nizamlandığından əmin olun.

$$Dalğalanma\ əmsalı = \frac{DCV}{SCV} \times 100[\%]$$



Şəkil 9: İD tənzimləyicisinin təcrübə dövrəsi

6. Təmizlik və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlığı və materialları müvafiq şəkildə saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulu təcrübi olaraq məşq etdikdə aşağıdakıları yerinə yetirdimi? 1. Sabit gərginlikli elektrik mənbəyi dövrəsinin xarakteristikaları ölçüb və növlərini tanıyırmı? 2. gərginliyi stabilləşdirən dövrəni quraşdırıbmı? 3. İD-dən istifadə etməklə, gərginliyi stabilləşdirən dövrəni quraşdırıb və təmir edibmi? 4. Gərginliyi stabilləşdirən dövrədə gərginliyin dəyişmə qiymətini və impuls əmsalını ölçübmü?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat				
Təcrübənin adı	Gərginliyi stabilləşdirən dövrə təcrübəsi		Tarix	
Şöbə		Ad		

1. Təcrübə nəticələrinin cədvəli

Cədvəl 1: Gərginliyi stabilləşdirən dövrənin xarakteristikaları

	V_{IN}	V_{OUT}	TR_2			TR_1	
			V_B	V_E	V_C	V_{BE}	V_{CE}
Min							
Maks							
Nizamlanmış		6V					

Cədvəl 2: Sabit gərginlikli dövrədə gərginliyin dəyişmə əmsalının ölçülməsi

	Yük müqaviməti	Yük gərginliyi [V]	Yük cərəyanı [mA]	Gərginliyin dəyişmə əmsalı
7805	10Ω 10W			
	20Ω 10W			
	30Ω 10W			
78012	100Ω 5W			
	250Ω 5W			
	300Ω 5W			

2.2. Baxış və izah

1) Sabit gərginlikli dövrənin sadə konfiqurasiya diaqramını təsvir edin və onun komponentlərini yazın.
2) İstinad gərginliyini SC stabilləşdirilmiş elektrik mənbəyi dövrəsindən əldə edən alət hansıdır?
3) Zener diodundan istifadə edin.
4) Sabit gərginlik tənzimləyicisi nədir?

13. Tranzistorun əməliyyat xarakteristikaları ilə təcrübə

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Tranzistorların quruluşunu və iş prinsipini izah edə biləcək;
2. Tranzistorun əməliyyat statusunu izah edə biləcək;
3. Düz və əks istiqamətli gərginlik-cərəyan xarakteristikalarını ölçə biləcək.

Təcrübə materialları:

1. Rezistor: 3.9kΩ, 680Ω
2. Tranzistor: 2SC562, 2SA1015, 2SC1815, 2SC536
3. Maket sxem və birləşdirici kabel

Avadanlıq və alətlər:

1. SC elektrik mənbəyi
2. Multitester (Analoq/rəqəmli növü)
3. Ossiloqraf

Mövzu ilə əlaqəli biliklər

1. Tranzistorun quruluşu

Tranzistor iki PN keçidinə malik olan və emitter, baza və kollektor adlandırılan üç təbəqəli yarımkeçirici cihazdır. Həmçinin, daşıyıcıların (dəliklər və elektronlar) hər iki tipi birlikdə fəaliyyət göstərdiyinə görə, onlara ikiqütblü keçidli tranzistorlar və ya qısaca olaraq, İKT kimi istinad edilir.



PNP transistor – PNP tranzistoru
Emitter – emitter
Collector – kollektor
Physical construction – fiziki quruluş
Two diode analogy – iki diod analoqu
Symbol - simvol

Şəkil 1: Tranzistorların quruluşu və simvolları

2. Tranzistorun əməliyyat statusu

Tranzistorlar kiçik siqnal gərginliyinin tətbiqi ilə izolyator və ya keçirici kimi fəaliyyət göstərən müxtəlif yarımkeçirici materiallardan hazırlanmış üç terminaldan ibarət aktiv cihazlardır. Tranzistorun bu iki vəziyyət arasında dəyişəbilmə qabiliyyəti iki sadə funksiyanın meydana gəlməsinə imkan yaradır: "çevirmə (rəqəmli elektronik vasitələr)" və ya "gücləndirmə" (analoq elektronik vasitələr) funksiyası. Bundan əlavə, ikiqütblü tranzistorların üç fərqli zonada fəaliyyət göstərə bilmək qabiliyyəti də mövcuddur:

1) Doyma zonası

Tranzistorun həm baza-emitter keçidi, həm də kollektor-baza keçidi düz istiqamətdə sürüşməlidir. Tranzistor çevirici kimi işlədikdə "Fully-ON" ("Tam-YANILI") rejimindədir və *Ic = I.* Rəqəmli dövrələrdə və elektronik çevirmə cihazlarında istifadə olunur

2) Aktiv zona

Tranzistorun baza-emitter keçidi düz istiqamətdə sürüşməlidir və kollektor-baza keçidi əks sürüşməlidir. Tranzistor gücləndirici kimi fəaliyyət göstərir və Ic = β*Ib. O, adətən gücləndirici kimi istifadə olunur.

3) Kəsilmə zonası

Tranzistorun həm baza-emitter, həm də kollektor-baza keçidi əks istiqamətdə sürüşməlidir. Tranzistor çevirici kimi "Fully-ON" ("Tam-YANILI") rejimində və Ic = 0 olur. Rəqəmli dövrələrdə və çevirmə elektronik cihazlarda istifadə olunur

3. Tranzistorun iş prinsipi

NPN və PNP tranzistorlarının əməliyyat rejimi üçün aktiv zonada emitter E və baza B arasında düz sürüşməli gərginlik, baza B və kollektor C arasında əks sürüşməli gərginlik tətbiq olunmalıdır.

1) PNP tranzistoru

[Şəkil 2] PNP tipli tranzistorun əməliyyat prinsipini göstərir. Burada emitter və baza (E-B) arasında düz sürüşməli, kollektor və baza (C-B) arasnda isə əks sürüşməli gərginlik tətbiq olunub.

Cüt tapa bilməyən əksər deşiklər kollektor tərəfdəki VCB gərginliyin elektik sahəsinə görə qısa bazaya və düzgün interfeysə (NP keçidi) malikdir və sonda kollektora doğru hərəkət edir. Bu zaman kollektorun IC cərəyanı meydana gəlir.

Həmçinin, fasiləsiz olaraq emitterin (+) terminalından davamlı şəkildə dəliklər yaranaraq, emitterin IE cərəyanını meydana gətirir.

Buna görə də, emitterin IE cərəyanı emitterdən bazaya yayılan IB deşik cərəyanı və emitterdən kollektora yayılan IC cərəyanının birləşməsi ilə formalaşır.



Şəkil 2: PNP tipli tranzistorun əməliyyat prinsipi

2) NPN tranzistoru

Şəkil 3 NPN tipli tranzistorun əməliyyat prinsipini göstərir. Emitter və baza (E-B) arasında düz istiqamətdə sürüşməli, kollektor və baza (C-B) arasında isə əks istiqamətdə sürüşməli gərginlik tətbiq olunub.

(E-B) bazada az sayda deşiklə yenidən birləşərək baza cərəyanı əmələ gətirir. Baza qısa olduğu üçün cütləşə bilməyən elektronların çoxu da qısadır. Buna görə də, V_{CB} gərginlik sahəsi interfeysə (PN keçidi) çatır və kollektora doğru hərəkət edir. Bu, kollektorun cərəyanı I_C olur.

Bundan əlavə, fasiləsiz olaraq emitterin (-) terminalı tərəfindən yayılan emitter elektronları I_E emitter cərəyanını əmələ gətirir. PNP tipli tranzistorda olduğu kimi, IE emitter cərəyanının 95-98[%]-i I_C kollektor cərəyanı, 2-5 [%]-i isə I_B baza cərəyanıdır.



Şəkil 3: NPN tipli tranzistorun əməliyyat prinsipi

4. Gücləndirmə əmsalı

Emitterdən keçən cərəyanın miqdarının kollektor zonasına çatan cərəyanın miqdarına olan nisbəti tranzistorun gücləndirmə amili adlanır və tranzistorun elektrik xarakteristikasını müəyyənləşdirmək üçün ən əsas parametrdir. 1-ə yaxın olması çox yaxşı göstəricidir.

Tranzistorun faktiki qiyməti 0.98-0.997-dir. Real PNP tranzistorunda α -nın 1-ə yaxınlaşması üçün emitter keçidi PN keçidi olur. Bazaya daxil edilmiş elektronların bu zonaya yayılması ərzində digər elektronlarla birləşməsinin qarşısını alınmalıdır. Bu səbəbə görə, bazanın eni 0.3-20[μm] kiçiklikdə hazırlanır.

Əgər IC kollektor cərəyanının IB baza cərəyanına olan nisbəti β olarsa, aşağıdakı bərabərlik əldə olunur:

$$\beta = \frac{I_C}{I_B} = \frac{\alpha}{1-\alpha}$$

   (1) RST tipli triqqer sxemi çıxışı, hətta əgər giriş vəziyyəti takt impulsları verilməsə belə dəyişməz olaraq qalan işəsalma mexanizmidir.Şəkil 4-də göstərilən RST triqqer sxemi NOR və 2

AND elementindən istifadə etməklə RS işəsalma mexanizmindən təşkil olunub. Takt impulsu 0 olduqda AND elementinin çıxışı S və R girişindən asılı olmayaraq 0 olur. Bu halda triqqerin çıxış vəziyyəti dəyişmir.

(2) Əgər takt impulsu 1 olarsa, S və R girişləri triqqerə ötürülür və əgər S=1 və R=0 olarsa Q=1 təyin edilir.

(3) RST tipli triqqer sxeminin blok diaqramı (a) və vaxt diaqramı (b) aşağıda Şəkil 5-də verilir.



Şəkil 4: RST trigger (F/F) sxemi



(a) Blok diaqramı (b) Takt (sinxronlaşdırma) diaqramı

Şəkil 5: RST FF sxeminin blok və vaxt diaqramları

6) Triqqerin işə düşməsi

(1) Giriş siqnalının ani dəyişikliyinə görə triqqerin dəyişmə vəziyyəti və bu ani dəyişiklik triqqer (işə düşmə) adlanır.

(2) Şəkil 6-da göstərildiyi kimi, saat 1-dən 0-dək dəyişdikdə yüksəlmə həddi (müsbət hədd), saat 0-dan 1-dək dəyişdikdə düşmə həddi (mənfi hədd) adlanır.



Şəkil 6: İmpulsda qütb

(3) Aşağıda (Şəkil 7) göstərildiyi kimi , (a) yüksəlmə həddi (siqnal impulsunun yüksəlmə vaxtı) (b) isə düşmə həddi (siqnal impulsunun düşmə vaxtı) göstərir.

(a) Yüksəlmə həddi və ya müsbət hədd (b) Enmə həddi və ya mənfi hədd

Şəkil 7: Triqqerlərin işə düşməsi

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Alət və cihazlardan düzgün istifadə olunmasına və işləyərkən təhlükəsizlik qaydalarına riayət edilməsinə diqqət yetirin.
2. Quraşdırılmış dövrəyə nominal gərginliyin verilməsini təmin edin.
3. Təhlükə və ya zərərin qarşısını almaq üçün alət və cihazlardan düzgün istifadə edilməsinə nəzarət edin.

Təcrübə mərhələləri

1. Avadanlığı, cihazları və materialları təcrübə üçün hazırlayın.

2. RS-FF triqqer sxemi ilə bağlı təcrübə

1) RS triqqer sxemini Şəkil 8, 9-da göstərildiyi kimi, xüsusi lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edin və ya ölçülmüş qiymətləri qeyd edin.
   1) RS triqqer sxemini lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edilir.
   2) RS triqqer sxeminin işləmə prinsipini anlayın və sxemi mümkün qədər sadə şəkildə qurun.
   3) Naqillərin vəziyyətini təsdiq etdikdən sonra sxemə gərginlik verilməsini təmin edin və çıxış LED-nin çıxış vəziyyətini elektrik açarının vəziyyətinə görə müşahidə edin və nəticələrə dair hesabatda Cədvəl 1-də qeyd edin. Buna baxmayaraq, "Off" (Sönülü) vəziyyətində "0" məntiq səviyyəsinə, "On" (Yanılı) vəziyyəti məntiq səviyyəsinə və LED yanılı olduqda "0" çıxışına malikdir.
   4) RS triqqer sxeminin məntiqi və doğruluq cədvəllərinin təcrüb' nəticələrinə uyğunluğunu yoxlayın.



Şəkil 8: NAND elementini istifadə etməklə RS triqqer sxemi

3. RS-FF triqqer sxemi ilə bağlı təcrübə

1) T triqqer sxemini Şəkil 10-da göstərildiyi kimi, xüsusi lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edin və ya ölçülmüş qiymətləri qeyd edin.
   1) T triqqer sxemini lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edilir.
   2) T triqqer sxeminin işləmə prinsipini anlayın və sxemi mümkün qədər sadə şəkildə qurun.
   3) Naqillərin vəziyyətini təsdiq etdikdən sonra sxemə gərginlik verilməsini təmin edin və çıxış LED-nin çıxış vəziyyətini elektrik açarının vəziyyətinə görə müşahidə edin və nəticələrə dair hesabatda Cədvəl 2-də qeyd edin. Buna baxmayaraq, "Off" (Sönülü) vəziyyətində "0" məntiq səviyyəsinə, "On" (Yanılı) vəziyyəti məntiq səviyyəsinə və LED yanılı olduqda "0" çıxışına malikdir.
   4) T triqqer sxeminin məntiqi və doğruluq cədvəllərinin təcrübə nəticələrinə uyğunluğunu yoxlayın.



Şəkil 9: NOR elementini istifadə etməklə RS triqqer sxemi



Şəkil 10: IC 7476 İnteqral sxemindən istifadə etməklə T triqqer sxemi

3. Təmizləmə və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlıqları və ləvazimatları düzgün qaydada saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulu təcrübədə sınaqdan keçirdikdə aşağıdakıları yerinə yetirdimi? 1. RS triqqer sxemini / T triqqer sxemini necə konfiqurasiya etməyi və ondan istifadəni izah edə bildimi? 2. RST / T triqqer sxemini layihələndirə bildimi? 3. RST / T triqqer sxemini qura və ölçə bildimi? 4. RST / T triqqer sxeminin doğruluq cədvəllərini təyin edə bildimi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat			
Təcrübənin adı	**Təcrübə RS-FF triqqer sxemi ilə bağlı təcrübə**	Tarix	
Şöbə		Adı	

1. Təcrübə nəticələrinin cədvəli

Cədvəl 1: RS triqqer sxemi doğruluq cədvəli

Giriş		Çıxış	
S	R	Q	$\overline{Q}$
0	0		
0	1		
1	0		
1	1		

(a) NAND elementləri ilə RS triqqerləri

Giriş		Çıxış	
S	R	Q	$\overline{Q}$
0	0		
0	1		
1	0		
1	1		

(b) NOR elementləri ilə RS triqqerləri

Cədvəl 2: T triqqer sxemi doğruluq cədvəli

Giriş			Çıxış	
$C\acute{L}R$	$P\acute{R}$	T	Q	$\overline{Q}$
0	1	X		
1	0	X		
1	1	0		
		1		

2. RS F / Frator sxeminin məntiqi və doğruluq cədvəllərinin təcrübələrin nəticələri ilə uyğunluğunu yoxlayın.

14. D-FF sxemi üzərində təcrübə

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. D triqqer sxemini necə konfiqurasiya etməyi və ondan istifadə etməyi izah edə biləcək;
2. D triqqer sxemini layihələndirə biləcək;
3. D triqqer sxemini qura və ölçə biləcək.

Təcrübə materialları:

1. İS: 74LS74 & İnteqal sxem (IS) yuvası
2. Rezistor: 330Ω 4ədəd, 4.7kΩ 8ədəd
3. LED: Qırmızı 5Φ 2ədəd, Yaşıl 5Φ 2ədəd
4. DIP AÇAR: 3bit 2ədəd, PB AÇAR: 2p 2ədəd
5. Universal PCB 28×62 yuvası 2ədəd, əlaqələndirici kabel

Avadanlıq və alətlər:

1. Sabit cərəyan enerji mənbəyi
2. Cərəyan ölçən multimetr (Multi tester) (Analoq/Rəqəmli)
3. Ossiloqraf

Mövzu ilə əlaqəli biliklər

1. D triqqerin işləmə prinsipi

1) D (ləngimə) triqqeri RS-FF-də (1) iki R və S girişləri sinxron qaydada olarsa, belə müəyyən edilməmiş çıxış vəziyyətinin qarşısını almaq üçün girişin hər iki tərəfinə əlavə edilən invertordur (element deyil). Bu, triqqer sxemi və ya verilənləri müvəqqəti saxlayan sürüşmə registri üçün istifadə olunur.
2) Takt impulsu (CLK) tətbiq edildikdə verilənlər girişinin D siqnal vəziyyəti çıxışda görünür. Bu isə, o deməkdir ki, Giriş D 1 çıxış olur. Digər sözlə, takt impulsu (CLK) olmadıqda, çıxış olduğu vəziyyətdə qalır və məlumatların saxlanılması funksiyasına malik olan verilənlərin ötürülmə reyestrində istifadə edilə bilər.



(a) D triqqerinin işarəsi



(b) RS triqqerinin dəyişkənliyi

CLK	D	$Q_{(t+1)}$
0	0	0
	1	0
0	0	0
	1	1

(c) D triqqerinin doğruluq cədvəli

Şəkil 1: D triqqeri

3) Triqqer takt impulsunun yüksəlmə həddi ilə işə düşdükdə giriş D siqnalı çıxış Q-a birbaşa çıxır. Giriş siqnalı takt impulsunun dövrü ilə gecikdirildiyinə görə D triqqeri, həmçinin "gecikmə (ləngimə) triqqeri" adlanır.
4) Şəkil 2 (a)-nın (D) verilənlərin məntiqi qiymətinin yüksələn həddini göstərdiyi və (b)-nin isə sürüşmə və ya gecikmə vəziyyətini göstərdiyi D triqqerinin vaxt diaqramını (sinxronlaşdırma diaqramını) göstərir.



(a) Yüksələn hədd triqqeri (b) D triqqerinin gecikməsi və ya sürüşməsi

Şəkil 2: D triqqerinin vaxt diaqramı

5) Bu, D triqqeri ilə T-triqqerinə malik olan triqqerdir və T giriş keçidi baş verdiyi zaman dəyişən (çevirən) xarakteristikası olan triqqerdir.



Şəkil 3: D triqqerindən istifadə etməklə T triqqeri

6) D triqqeri 7474 TTL və 4013 CMOS seriyalı sxemlərdən ibarətdir. 7474 bir paketdə iki sxemdən təşkil olunub. Terminal birləşməsinin doğruluq cədvəli Şəkil 4-də və Cədvəl 1-də göstərilir..



Şəkil 4: 7474 seriyalı sxemin pin yerləşməsi

Cədvəl 1: 7474 seriyalı sxemin doğruluq cədvəli

Inputs				Outputs	
SET	CLR	CLK	Data	Q	$\overline{Q}$
L	H	X	X	H	L
H	L	X	X	L	H
L	L	X	X	H*	H*
H	H	↑	H	H	L
H	H	↑	L	L	H
H	H	L	X	Q_0	Q'_0

7) 7474 İnteqral sxeminin giriş takt impulsu 0-dan 1-ə dəyişdikdə D girişi çıxışdan 1 bit sonra görünür və Clear (Təmizlə) və Preset (Əvvəlcədən quraşdırma) terminalları əlavə edilir.
8) PİN bağlantısı diaqramında CLR və PR-nin "0" cədvəli (NOT) onun sıfır (0) olduqda aktivləşdirildiyini bildirir. CLR 0-a və PR 1-ə təyin edildikdə Q girişdən asılı olmayaraq, sıfır (0) olur. Əgər PR "0" və CLR 1-dirsə, Q girişdən asılı olmayaraq 1 olur.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Alət və cihazlardan düzgün istifadə olunmasına və işləyərkən təhlükəsizlik qaydalarına riayət edilməsinə diqqət yetirin.
2. Quraşdırılmış sxemə nominal gərginliyin verilməsini təmin edin.
3. Təhlükə və ya zərərin qarşısını almaq üçün alət və cihazlardan düzgün istifadə edilməsinə nəzarət edin.

Təcrübə mərhələləri

1. Avadanlıqları, cihazları və materialları təcrübə üçün hazırlayın.

2. D FF sxemi ilə bağlı təcrübə

1) D triqqer sxemini Şəkil 5,6-da göstərildiyi kimi bir lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edin və ya ölçülmüş qiymətləri qeyd edin.
   1) D triqqer sxemini lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edin.
   2) D triqqer sxemini iş prinsipini anlayın və sxemi mümkün qədər sadə şəkildə qurun.
   3) Naqillərin vəziyyətini təsdiq etdikdən sonra sxemə gərginlik verilməsini təmin edin və çıxış LED-nin çıxış vəziyyətini elektrik açarının vəziyyətinə görə müşahidə edin və nəticələrə dair hesabatda Cədvəl 1-də qeyd edin. Buna baxmayaraq, "Off" (Sönülü) vəziyyətində "0" məntiq səviyyəsinə, "On" (Yanılı) vəziyyəti məntiq səviyyəsinə və LED yanılı olduqda "0" çıxışına malikdir.
   4) D triqqer sxeminin məntiqi və doğruluq cədvəllərinin təcrübənin nəticələrinə uyğunluğunu yoxlayın.



Şəkil 5: 74LS74-dən istifadə etməklə d triqqer sxemi



Şəkil 6: 74LS76-dan istifadə etməklə D triqqer sxemi

3. Təmizləmə və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlıqları və ləvazimatları düzgün qaydada saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Bu modulu təcrübədə sınaqdan keçirdikdən sonra tələbə aşağıdakıları yerinə yetirdimi? 1. D triqqer sxemini necə konfiqurasiya etməyi və ondan istifadə etməyi izah edə bildimi? 2. D triqqer sxemini layihələndirə bildimi? 3. D triqqer sxemini qura və ölçə bildimi? 4. D triqqer sxeminin doğruluq cədvəllərini təyin edə bildimi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat			
Təcrübənin adı	**TD-FF sxemi üzərində təcrübə**	Tarix	
Şöbə		Adı	

1. Təcrübə nəticələrinin cədvəli

Cədvəl 1: D triqqer sxeminin doğruluq cədvəli

(a) 7474-dən istifadə etməklə D FF

Giriş			Çıxış	
$C\acute{L}R$	$P\acute{R}$	D	Q	$\overline{Q}$
0	1	X		
1	0	X		
1	1	0		
		1		

(b) 7476-dən istifadə etməklə D FF

Giriş			Çıxış	
$C\acute{L}R$	$P\acute{R}$	D	Q	$\overline{Q}$
0	1	X		
1	0	X		
1	1	0		
		1		

2. D FF sxeminin məntiqi və doğruluq cədvəllərinin təcrübənin nəticələrinə uyğunluğunu yoxlayın.

15. JK-FF triqqer sxemi ilə bağlı təcrübə

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. JK triqqer sxemini necə konfiqurasiya etməyi və ondan istifadə etməyi izah edə biləcək;
2. JK triqqer sxemini layihələndirə biləcək;
3. JK triqqer sxemini qura və ölçə biləcək.

Təcrübə materialları:

1. İS: 74LS76 & İnteqal sxem (IS) yuvası
2. Rezistor: 330Ω 2ədəd, 4.7kΩ 5ədəd
3. LED: Qırmızı 5Φ, Yaşıl 5Φ
4. DIP AÇAR: 4bit, PB AÇAR: 2p 2ədəd
5. Universal PCB 28×28 dəlik ölçülü, əlaqələndirici kabeli

Avadanlıq və alətlər:

1. Sabit cərəyan enerji mənbəyi
2. Cərəyan ölçən multimetr (Multi tester) (Analoq/Rəqəmli)
3. Ossiloqraf

Mövzu ilə əlaqəli biliklər

1. JK triqqer sxeminin işləmə prinsipi

1) RS girişində R = S = 1 vəziyyətində əməliyyat qeyri-müəyyən olur. RS giriş sxemində qeyri-müəyyən vəziyyətlərin yaranmaması Q çıxışı R girişi ilə və $\overline{Q}$ çıxışı isə S çıxışı ilə əks əlaqədə yaradır. Belə sxemə "JK triqqer sxemi" deyilir.



(a) İşarə

J	K	Q_{n+1}
0	0	Q_n(No Change)
0	1	0
1	0	1
1	1	$\overline{Q}'n$ (Tumbler)

(b) Doğruluq cədvəli

Şəkil 1: JK triqqerinin simvolu və doğruluq cədvəli

2) Aparıcı / İdarəedici (Master/Slave) multivibrator iki kaskadvari triqqer mexanizminə malikdir və takt impulsları bir-birinə əks istiqamətdə ötürülür. Takt impulsu yüksələn həddə olduqda, giriş siqnalının verilənləri bir dəfə giriş tərəfində aparıcı (ötürücü) triqqerdə saxlanılır. Takt impulsu enmə həddində olduqda, aparıcı triqqerdə saxlanılan verilənlər idarəedici triqqerin çıxış tərəfində göstərilir.
3) Əgər Ötürücü / İdarəedici triqqerlərdən biri işləyirsə, onlardan biri işləməyəcək, buna görə də məzmunlar yarım takt gecikmə vaxtına malik olacaq.



Şəkil 2: Ötürücü/İdarəedici JK triqqerinin sxemi



Şəkil 3: Ötürücü/İdarəedici JK triqqerinin vaxt diaqramı

4) JK triqqer kimi sinxron triqqerdə yarış fenomeni (tezliyi) baxımından texniki nasazlığın əmələ gəlməsinin qarşısını almaq üçün takt impulsu genişliyinin kifayət qədər azaldılması metodu mövcuddur.
5) Daha etibarlı bir üsul olaraq, əvvəlki mərhələdə ötürücü triqqer iki mərhələdə triqqerdən istifadə edərək taktın S yüksələn həddində müəyyən edilir və əvvəlki mərhələdə taktın enmə həddində idarəedici triqqerin girişinə siqnal daxil edilir. Bu üsul Ötürücü / İdarəedici triqqer mexanizmi (Master-Slave flip-flop) adlanır.
6) JK triqqeri, həm RS triqqerinə, həm də T triqqerinə çevrilə bildiyindən ən geniş istifadə olunan triqqer (multivibrator) hesab edilir.



(a) T FF (b) D FF (c) RS Latch FF (d) Synchronous RS FF

Şəkil 4: JK triqqeri

(1) J və K girişləri Şəkil 4 (a)-da göstərildiyi kimi, + VCC-yə (J = K = 1) qoşulduqda CLK terminalına bir takt impulsunun daxil edilməsi çeviricinin hərəkətinə (dəyişiklik etməsinə) səbəb olur. Buna görə də bunun işləmə prinsipi T triqqeri ilə eynidır.
(2) Əgər J girişi invertor (çevirici) vasitəsi ilə K-yə qoşulubsa, Şəkil 4 (b)-də D triqqer olur.

Məsələn, əgər J = 0 və K = 1 olarsa, bir takt impulsu tətbiq edildikdə Q çıxışı sıfırlanır və əgər və J = 1 və K = 0 olarsa, 1 müəyyən edilir. Belə ki, takt impulsunun tətbiqinə cavab olaraq çıxış kimi göstərilən giriş vəziyyəti D triqqeri ilə eynidir.

(3) JK triqqeri Şəkil 4 (c) -də göstərildiyi kimi, "Preset" (əvvəlcədən təyin edilmiş) və "Clear" (Sıfırla) funksiyası ilə J və K və CLK girişlərini + V_{CC} girişinə, PRE girişini S girişinə və CLR girişini R girişinə birləşdirin. Bu RS işəsalma triqqerinin iş prinsipi ilə eynidir.

(4) Şəkil 4 (D) -də göstərildiyi kimi, PRE və CLR terminalları torpaqlandıqda S girişi J terminalına və R girişi K terminalına birləşdirilir və CLK terminalına takt impulsu tətbiq edilir, bu sxem sinxron RS triqqer mexanizmi kimi işləyir.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Alət və cihazlardan düzgün istifadə olunmasına və işləyərkən təhlükəsizlik qaydalarına riayət edilməsinə diqqət yetirin.
2. Quraşdırılmış dövrəyə nominal gərginliyin verilməsini təmin edin.
3. Təhlükə və ya zərərin qarşısını almaq üçün alət və cihazlardan düzgün istifadə edilməsinə nəzarət edin.

Təcrübə mərhələləri

1. Avadanlıqları, cihazları və materialları təcrübə üçün hazırlayın.

2. JK FF triqqer sxemi ilə bağlı təcrübə

1) JK triqqer sxemini Şəkil 5-də göstərildiyi kimi, bir lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edin və ya ölçülmüş qiymətləri qeyd edin.
1) JK triqqer sxemini lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edin.
2) JK triqqer sxeminin iş prinsipini anlayın və sxemi mümkün qədər sadə şəkildə qurun.
3) Naqillərin (montaj) vəziyyətini təsdiq etdikdən sonra sxemə gərginlik verilməsini təmin edin və çıxış LED-nin çıxış vəziyyətini elektrik açarının vəziyyətinə görə müşahidə edin və nəticələrə dair hesabatda Cədvəl 1-də qeyd edin. Buna baxmayaraq, "Off" (Sönülü) vəziyyətində "0" məntiq səviyyəsinə, "On" (Yanılı) vəziyyəti məntiq səviyyəsinə və LED yanılı olduqda "0" çıxışına malikdir.
4) JK triqqer sxeminin məntiqi və doğruluq cədvəllərinin çevrilmə sxeminin təcrübənin nəticələrinə uyğun olduğunu yoxlayın.
5) JK triqqer sxeminin - TTL 7473 və 7476 seriyalı inteqral sxemləri daxil edir və CMOS mikrosxemi 4027 seriyalı inteqral sxemə malikdir. İnternetdə 7473 və 7476 inteqral sxemlərinin pin tapşırıqlarını və doğruluq cədvəllərini tapın və nəticələrə dair hesabatda yazın.



Şəkil 5: JK triqqer sxemi

2. Təmizləmə və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlıqları və ləvazimatları düzgün qaydada saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Bu modulu təcrübədə sınaqdan keçirdikdən sonra tələbə aşağıdakıları yerinə yetirdimi? 1) JK triqqer sxemini necə konfiqurasiya etməyi və ondan istifadəni izah edə bildimi? 2) JK triqqer sxemini layihələndirə bildimi? 3) JK triqqer sxemini qura və ölçə bildimi? 4) JK triqqer sxeminin doğruluq cədvəllərini təyin edə bildimi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat			
Təcrübənin adı	**JK-FF sxemi triqqer sxemi ilə bağlı təcrübə**	Tarix	
Şöbə		Adı	

1. Təcrübə nəticələrinin cədvəli

Cədvəl 1: JK triqqer sxeminin doğruluq cədvəli

Giriş				Çıxış	
$C\acute{L}R$	$P\acute{R}$	J	K	Q	$\overline{Q}$
0	1	X	X		
1	0	X	X		
1	1	0	0		
		0	1		
		1	0		
		1	1		

Pin tapşırıqları 7473 və 7476İC inteqral sxemlərinin doğruluq cədvəlləri

2. JK FF sxeminin məntiqi və doğruluq cədvəllərinin təcrübənin nəticələrinə uyğunluğunu yoxlayın.

16. Sayğac sxemi üzərində təcrübə

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Asinxron / sinxron sayğaclar sxemini necə konfiqurasiya etməyi və ondan istifadəni izah edə biləcək.
2. Asinxron / sinxron sayğaclar sxemini layihələndirə biləcək;
3. Asinxron / sinxron sayğaclar sxemini qura və ölçə biləcək.

Təcrübə materialları:

1. İS: 74LS00, 74LS08,74LS76 4ədəd, NE555 2ədəd & İS yuvası
2. Rezistor: 330Ω 8ədəd, 4.7kΩ 3ədəd, SVR: 500kΩ 2ədəd
3. Kondensator: 1μF 2ədəd, 0.1μF2ədəd
4. LED: Qırmızı 5Φ (farad) 8ədəd
5. PB açar: 2p
6. Universal PCB 28×62 yuvası 2ədəd, əlaqələndirici kabeli

Avadanlıqlar və cihazlar:

1. Sabit cərəyan enerji mənbəyi
2. Cərəyan ölçən multimetr (Multi tester) (Analoq/Rəqəmsal tipli)
3. Ossiloqraf

Mövzu ilə əlaqəli biliklər

1. Asinxron sayğacın quruluşu və iş prinsipi

- Çıxış siqnalına əsasən çıxış vəziyyətinin əvvəlcədən müəyyən edilmiş qaydada dəyişdiyi ardıcıl məntiqi sxem impulsun triqqer metoduna uyğun olaraq sinxron və asinxron sayğaca təsnif edilir.



İnput – giriş
Output – çıxış
Control signal – idarəetmə siqnalı
Flip-flop circuit – triqqer sxemi
Combination Logic circuit – kombinə olunmuş məntiqi sxem

Şəkil 1: Asinxron sayğacın quruluşu

- Sayğac triqqerdən istifadə edən ardıcıl məntiqi sxemə deyilir. Giriş impulsları daxil edildikdə triqqerin vəziyyətini əvvəlcədən müəyyən edilmiş qaydada dəyişməklə girişlərin sayını hesablayır və tezliyin, vaxtın və ya tezlik bölməsinin ölçülməsi üçün istifadə olunur.
- Sayğacın növü n modul sayğacına (MOD-n Sayğacı), yuxarı və ya aşağı sayğaca təsnif edilir. Bu, takt impulsları metoduna görə sinxron və asinxron sayğaclara təsnif edilir.
- Asinxron tipli sayğaclar aşağıdakı xarakteristikalara malikdir.

1 Triqqerin girişi olaraq saat (CLK) və interfeysin çıxışı qayda ilə birləşir və vəziyyət eyni zamanda dəyişmədən ardıcıl olaraq dəyişir.

2 Əməliyyat yavaşdır, dizayn qeyri-müntəzəm və mürəkkəbdir.
3 İdarəedici siqnal, takt (CLK) və sıfırlama/qurma (reset/set) siqnalı triqqer qurğusuna daxil edilir.
4 Sxem sadədir və kiçik ölçülü sxemlər üçün uyğundur.
5 Takt siqnalı yalnız ilkin mərhələyə tətbiq olunur, lakin gecikmə vaxtı problemlidir.

1) İkili asinxron sayğacın iş prinsipi və quruluşu

(1) Sayğacın takt impulslarını saydıqda, hər mərhələdə çıxış vəziyyəti triqqerdən dəyişən sayğac növbədə olan növbəti çıxış mərhələsinə ötürülür, buna da "asinxron sayğac" deyilir.

(2) Şəkil 2 iki mərhələli T tipli triqqerdən istifadə edən dörd komponentli sayğac sxemidir.



Şəkil 2: Dörd komponentli sayğac

(3) Hər bir takt impulsu (CLK) çıxış vəziyyətinə keçid üçün giriş tərəfinə tətbiq edilir və bu, Q və $\overline{Q}$ çıxışlarına məntiqi zidd olması üçün daima qoşulu olur. Yəni çıxış Q məntiqi "1" (Set) vəziyyətdə olduqda $\overline{Q}$ "0" (Reset - Sıfırla) məntiqi vəziyyətinə çevrilir.

(4) [Şəkil 2]-də göstərildiyi kimi, birinci mərhələnin (2^0) Q çıxışı növbəti mərhələnin (2^1) giriş tərəfinə birləşir. Ümumiyyətlə, iki ardıcıl mərhələdən ibarət Q çıxışları müvafiq olaraq sırası ilə A və B ilə ifadə edilir. Buna görə də, Q (A siqnalı) çıxışı növbəti mərhələyə dəyişdiyindən sonuncu mərhələnin çıxışı birinci mərhələnin Q çıxışı yüksək gərginlikli vəziyyətdən aşağı gərginlikli vəziyyətə ("1"-dən "0"-a) keçdiyi zaman dəyişir.

(5) Son mərhələnin tezlik çıxışı tezliyin bölünməsi adlanan giriş taktlarının sayının yarısıdır.

(6) Şəkil 3 dörd komponentli sayğacın girişinə daxil olan çıxış dalğa formalarının keçid vəziyyətini göstərir. Buradan hər bir çıxış dalğasının düşmə həddində (takt siqnalının yüksək gərginlikli vəziyyətdən aşağı gərginlik vəziyyətə düşdüyü həd) inversiya olduğunu görmək olar.



Şəkil 3: İkili iki mərhələli impuls sayğacının çıxış dalğa forması

(7) Ümumiyyətlə, n-mərtəbəli sayğac 2^n impulslarını sayır və buradan da aşağıdakı tənlik əldə edilə bilər. $N = 2^n$ (burada N sayğacın sayımlarının nömrəsidir, n - sayğacın mərtəbələrinin və bitlərinin sayıdır).

2) Onaltılıq say sistemli impuls sayğacın iş prinsipi və quruluşu

(1) FF-nin 4 mərtəbəsindən istifadə edən onaltılıq sayğac kimi, eyni əmsal hər 16 giriş impulsunda təkrarlanır.



Şəkil 3: Asinxron onaltılıq sayğac

(2) Cədvəl 1-də göstərildiyi kimi, 4 mərhələli sayğacın əmsalı hər dəfə 2^0 vəziyyətində impuls daxil edildikdə və 2^0 mərhələsindən çıxdıqda, "1"-dən "0"-a hər dəfə dəyişdikdə iki çıxış impulsu daxil edilir. 2^2 mərhələsinin çıxışı hər dörd giriş impulsunu inversiya edir (əksinə çevirir) və 2^3 mərhələsi hər səkkiz giriş impulsunu inversiya edir. Buna görə də, hər bir mərhələnin çıxışının ikili ədədlərdə 1, 2, 4 və 8 saylı giriş impulslarının sayını ifadə etdiyini görmək olar.

(3) Onaltılıq sayğac ilə hesablana bilən ən yaxşı ikili ədəd 1111-dir və növbəti giriş impulsu tətbiq edildikdə bütün çıxışlar 0000-a qayıdır.

(4) Onaltılıq sayğacın əmsal dalğa forması (və ya vaxt diaqramı) olaraq, hər dəfə bir takt impulsu tətbiq edildikdə ikili ədəd sayının artması, ikili sayğacın hesablaması kimi qəbul edilir.

(5) Bunun əksinə olaraq, hər mərhələdən çıxış növbəti mərhələnin T girişinə tətbiq edildikdə, hər dəfə takt impulsu (sinxronlaşdırma impulsu) tətbiq edildikdə, ikili ədəd 1111 yüksək ədədindən bir ədəd azalır və nəhayət 0000 olur. Yəni aşağıya doğru azalan əmsal əldə edildiyi üçün buna "ikili əks hərəkətli sayğac" deyilir.

Cədvəl 1: 4 mərtəbəli sayğacın hesablama / sayma əməliyyatı

CLK	2^4 D	2^2 C	2^1 B	2^0 A
0	0	0	0	0
1	0	0	0	1
2	0	0	1	0
3	0	0	1	1
4	0	1	0	0
5	0	1	0	1
6	0	1	1	0
7	0	1	1	1
8	1	0	0	0
9	1	0	0	1
10	1	0	1	0
11	1	0	1	1
12	1	1	0	0
13	1	1	0	1
14	1	1	1	0
15	1	1	1	1
16(0)	0	0	0	0

3) MOD-10 sayğacının iş prinsipi və quruluşu

(1) Cədvəl 2-də onluq sayğacının hesablama əməliyyatı cədvəlindən göründüyü kimi, dörd mərhələli triqqer aşağıdakı kimi layihələndirilib.

- A mərhələsi: $C_{KA} = C_K$, $J_A = K_A = 1$, belə ki, hər dəfə giriş impulsu tətbiq edildikdə çıxış inversiya olunur.
- B mərhələsi: $C_{KB} = A$, ona görə ki, A mərhələsinin çıxış vəziyyəti 1-dən 0-a dəyişdikdə inversiya baş verir. Lakin son impulsda, yəni 9-dan 10-dək əmsalına dəyişdikdə verilənlərin inversiyası mümkün deyil, ona görə də 0-dan 0-dək nəzarət edilməlidir, beləliklə, D çıxışı J_B-dən alınmalıdır. Yəni, $J_B = D = 0$.
- C mərhələsi: $C_{KC} = B$ and $J_C = K_C = 1$, belə ki, B mərhələsinin çıxışı 1-dən 0-a hər dəfə dəyişdikdə o inversiya edir.
- D mərhələsi: hər dəfə A çıxışı 1-dən 0-a dəyişdikdə B= C= 1, B= C= 0 vəziyyətində inversiya edir. Buna görə də o, $C_{KD} = A$ və $J_D = BC$, $K_D = 1$ verilənlərin idarə edilməsini qəbul edir.



Şəkil 4: Onaltılıq (4-mərhələli, ikili) sayğacının dalğa forması

(2) Verilənlərin idarə edilməsi ilə əlaqədar olan J_B və J_D-nin məntiqi ifadələri aşağıdakı kimi Karnonun xəritəsindən istifadə etməklə əldə oluna bilər.
- Doğruluq cədvəli növbəti vəziyyətə daxil olması ilə əlaqədar C və D-nin hazırkı vəziyyətini müqayisə edir və çıxış vəziyyətinin dəyişməsinə görə J və K qiymətini əldə edir və Karno xəritəsində J_B qiymətini əldə edir. J_D qiyməti də eyni şəkildə əldə edilir.

Cədvəl 2: Onluq sayğacının doğruluq cədvəli

CLK	2^4 D	2^2 C	2^1 B	2^0 A
0	0	0	0	0
1	0	0	0	1
2	0	0	1	0
3	0	0	1	1
4	0	1	0	0
5	0	1	0	1
6	0	1	1	0
7	0	1	1	1
8	1	0	0	0
9	1	0	0	1
0	0	0	0	0



Şəkil 5: Onluq sayğacın vaxt diaqramı

Onluq	D	C	B	CS → NS	J_B	K_B
1	0	0	0	0 1	1	d
3	0	0	1	1 0	d	1
5	0	1	0	0 1	1	d
7	0	1	1	1 0	d	1
9	1	0	0	0 0	0	d

(a) Çıxışın cari vəziyyəti (CS) və növbəti vəziyyəti (NS)



(b) Karno xəritəsi

Şəkil 6: B mərhələsində hesablama əməliyyatı cədvəli və Karno xəritəsi

Onluq	D	C	B	CS → NS	J_D	K_D
1	0	0	0	0 0	0	d
3	0	0	1	0 0	0	d
5	0	1	0	0 0	0	d
7	0	1	1	0 1	1	d
9	1	0	0	1 0	d	1

(a) Çıxışın cari vəziyyəti (CS) və növbəti vəziyyəti (NS)



(b) Karno xəritəsi

Şəkil 7: D mərhələsində hesablama əməliyyatı cədvəli və Karno xəritəsi

- Hər bir mərhələdə triqqerlərin takt impulslarının girişi (CLK) və verilənlərin idarə edilməsi aşağıdakı kimi yekunlaşdırılır və sxem diaqramı rəqəmdə göstərildiyi kimi əldə edilir.

A mərhələsi: $C_{KA} = C_K$, $J_A = K_A = 1$, B mərhələsi: $C_{KB} = A$, $J_B =$, $K_B=1$

C mərhələsi: $C_{KC} = B$, $J_C = K_C = 1$, D mərhələsi: $C_{KD} = A$, $J_D = BC$, $K_D = 1$



Şəkil 8: MOD-10 tipli sayğacın sxematik diaqramı

4) MOD-5 tipli sayğacın iş prinsipi və quruluşu

Psevdo-sayğac üçün asinxron sayma əməliyyatı cədvəli aşağıdakı kimi göstərilir.

(1) Üç mərhələli triqqerin zəruriliyi məlum olduğu üçün hər mərhələdə FF aşağıdakı qaydada olur.

Sayma	C	B	A
0	0	0	0
1	0	0	1
2	0	1	0
3	0	1	1
4	1	0	0
0	0	0	0

(a) MOD-5 sayğacının doğruluq cədvəli



(b) MOD-5 sayğacının vaxt diaqramı

Şəkil 9: MOD-5 sayğacı

- A mərhələsində, A çıxışı takt impulsu hər dəfə daxil edildikdə dəyişir, beləliklə, CLK-nı birbaşa CKA girişinə birləşdirin. Bununla belə, son sayımda (hesablamada) 0-dan 1-ə çevrilmədən "0" saxlamaq üçün C^{-}çıxışından aydın siqnal almaq lazımdır. Yəni, J_A=and K_{CA}=l.
- B mərhələsində A çıxışı 1-dən "0-a dəyişdikdə B mərhələsinin çıxışı inversiya olur, beləliklə, A çıxışı birbaşa triqqer girişinə (C_{KB}) qoşula bilər. Yəni $J_B = K_B = l$.
- C mərhələsində, C mərhələsinin çıxışı A=B=l vəziyyətində 0-dan 1-ə olduqda, A=B=0 vəziyyətində 1-dən 0-a olduqda, verilənlərin idarəedilməsi J_C = AB və takt impulsu (CLK) ilə həyata keçirilir. Yəni K_C = l.



Şəkil 9: MOD-5 tipli sayğacın sxematik diaqramı

(2) Əslində toplayıcı dövrəni qurarkən təyin edilmiş inteqral sxemdən istifadə etmək daha rahatdır. Asinxron sayğac çipində 7490 seriyalı onluq sayğac, 7492 seriyalı onluq sayğac və 7493 seriyalı onaltılıq sayğac mövcuddur.

2. Sinxron sayğacın işləmə prinsipi və quruluşu

1) Sinxron sayğac bütün triqqerlərin siqnallarını paralel olaraq bir takt impulsuna birləşdirməklə eyni vaxtda aktivləşdirilən (işə düşən) sayğaca deyilir.



Şəkil 10: Sinxron sayğacın konfiqurasiya diaqramı

2) Sinxron sayğac aşağıdakı xarakteristikalara malikdir.
   (1) Sayğacının triqqer vəziyyətinin eyni anda dəyişə bilməsi üçün takt impulsu (CLK) birbaşa sinxronlaşdırma giriş siqnalına və ya triqqerin girişinə qoşulur.
   (2) Əməliyyat sürəti yüksəkdir, dizayn layihəsi asan və müntəzəmdir.
   (3) İdarəetmə siqnalı triqqerin girişi olur.
   (4) Sxemlər mürəkkəb və iri sistemlərdə tətbiq olunur.
   (5) Takt generatoru (sinxonlaşdırma siqnalları generatoru) ayrılıqda tələb olunur və gecikmə vaxtından asılı deyil.
3) MOD-5 tipli sinxron sayğacın iş prinsipi və quruluşu
   (1) 5 fazalı sinxron sayğac 3 mərhələdən ibarətdir. Takt impulsu siqnalı birbaşa paralel olaraq hər mərhələnin sinxronlaşdırma giriş terminallarına tətbiq olunur, yalnız 5 impulsu hesablayır və "0" vəziyyətinə geri dönür.
   (2) MOD-5 tipli sinxron sayğacın layihələndirmə prosesi aşağıdakı kimidir.
   - Əmsallar cədvəlinə və vəziyyət dəyişikliyinə görə J,K vəziyyətini müəyyənləşdirmək üçün əmsallar cədvəli Cədvəl 3-də göstərildiyi kimi hazırlanır.

(Cədvəl 3) MOD-5-tipli sinxron sayğacın hesablama statusu

CLK	C	B	A	J_A	K_A	J_B	K_B	J_C	K_C
0	0	0	0	1	D	0	d	0	D
1	0	0	1	d	1	1	d	0	D
2	0	1	0	1	D	D	0	0	D
3	0	1	1	d	1	D	1	1	D
4	1	0	0	0	D	0	d	d	1
5(0)	0	0	0	-	-	-	-	-	-

- Karno xəritəsini Şəkil 11-də göstərildiyi kimi qurun və məntiqi ifadəni tapın.



Şəkil 11: MOD-5 tipli sinxron sayğacın Karno xəritəsi

- Məntiqi ifadədən sinxron 5-lik sayğacın sxematik diaqramı Şəkil 12-də göstərilir.
  J_A =, K_A = 1 (J_A verilənlər girişi C′-dən idarə olunur)
  $J_B = K_B = A$ (J_B və K_B verilənlər girişi A vəziyyəti kimi daxil edilir)
  $J_C = AB$, $K_C = 1$ (J_C -nin verilənlər girişi A və B-nin AND elementi ilə idarə olunur)



Şəkil 12: MOD-5 tipli sinxron sayğacın diaqramı

4) MOD-10 tipli sinxron sayğac

(1) Onluq sayğac dörd mərhələdən ibarətdir, hər biri birinci mərhələdə (A mərhələsi) ikili sayğac və yerdə qalan üç mərhələdə beş hesablayıcı kimi işləyir.

(2) Sinxron MOD-5 sayğacında istifadə olunan üsulla sxem yaratmaq üçün JK triqqerindən istifadə edin.

(3) Onluq sayğacların hesablama statusu cədvəlindən o, Karno xəritəsini qurur və sadələşdirilmiş məntiqi ifadələri və məntiqi sxemləri əldə edir.

Cədvəl 4: MOD-5 tipli sinxron sayğacının sayma statusu cədvəli

CLK	D	C	B	A	J_A	K_A	J_B	K_B	J_C	K_C	J_D	K_D
0	0	0	0	0	1	d	0	d	0	d	0	d
1	0	0	0	1	d	1	1	d	0	d	0	d
2	0	0	1	0	1	d	d	0	0	d	0	d
3	0	0	1	1	d	1	d	1	1	d	0	d
4	0	1	0	0	1	d	0	d	d	0	0	d
5	0	1	0	1	d	1	1	d	d	0	0	d
6	0	1	1	0	1	d	d	0	d	0	0	d
7	0	1	1	1	d	1	d	1	d	1	1	d
8	1	0	0	0	1	d	0	d	0	d	d	0
9	1	0	0	1	d	1	0	d	0	d	d	1
10(0)	0	0	0	0	-	-	-	-	-	-	-	-

(4) Karno xəritəsi yaratmaqla əldə edilən məntiqi ifadə Cədvəl 4-də sayğac statusu (count status) cədvəlində aşağıdakı kimi verilmişdir.

- A mərhələsi: $J_A = 1$, $K_A = 1$,
- B mərhələsi: $J_B = A\cdot$, $K_B = A$
- C mərhələsi: $J_C = A \cdot B$, $K_C = A \cdot B$,
- D mərhələsi: $J_D = A \cdot B$, $K_D = A$

(5) Bu, Şəkil 13-də göstərilən məntiqi ifadə üzərində qurulan onluq sayğacının məntiqi sxem diaqramıdır.



Şəkil 13: Sinxron MOD-10 sayğacının sxemi

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Alət və cihazlardan düzgün istifadə olunmasına və işləyərkən təhlükəsizlik qaydalarına riayət edilməsinə diqqət yetirin.
2. Quraşdırılmış dövrəyə nominal gərginliyin verilməsini təmin edin.
3. Təhlükə və ya zərərin qarşısını almaq üçün alət və cihazlardan düzgün istifadə edilməsinə nəzarət edin.

Təcrübə mərhələləri

1. Zəruri avadanlıqları, cihazları və materialları təcrübə üçün hazırlayın.

2. Asinxron onluq (10) sayğac üzərində təcrübə

1) Asinxron onluq (10) sayğac sxemini Şəkil 14-də göstərildiyi kimi, bir lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edin və ya ölçülmüş qiymətləri qeyd edin.
   1) Asinxron onluq (10) sayğac sxemi lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edilir.
   2) Asinxron onluq (10) sayğac sxeminin iş prinsipini anlayın və sxemi mümkün qədər sadə şəkildə qurun.
   3) Naqillərin (montaj) vəziyyətini təsdiq etdikdən sonra sxemə gərginlik verilməsini təmin edin və çıxış LED-nin çıxış vəziyyətini elektrik açarının vəziyyətinə görə müşahidə edin və nəticələrə dair hesabatda Cədvəl 1-də qeyd edin. Buna baxmayaraq, "Off" (Sönülü) vəziyyətində "0" məntiq səviyyəsinə, "On" (Yanılı) vəziyyəti məntiq səviyyəsinə və LED yanılı olduqda "0" çıxışına malikdir.
2) Asinxron onluq (10) sayğac sxeminin məntiqi və doğruluq cədvəllərinin çevrilmə sxeminin təcrübənin nəticələrinə uyğun olduğunu yoxlayın.
3) Asinxron onluq (10) sayğac inteqral sxemləri - TTL 7490, 7492 və 7493 İS-ni daxil edir. İnternetdə 7490, 7492 və 7493 inteqral sxemlərinin pin tapşırıqlarını və doğruluq cədvəllərini tapın və nəticələrə dair hesabatda yazın.



Şəkil 14: Asinxron onluq (10) sayğac sxemi

3. Sinxron onluq sayğacla bağlı təcrübə

(1) Sinxron onluq sayğac sxemini Şəkil 15-də göstərildiyi kimi, bir lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edin və ya ölçülmüş qiymətləri qeyd edin.

1) Sinxron onluq sayğac sxemi lövhə (elektron sxem maketi) və ya universal lövhə üzərində konfiqurasiya edin.
2) Sinxron onluq sayğac sxeminin iş prinsipini anlayın və sxemi mümkün qədər sadə şəkildə qurun.
3) Naqillərin (montaj) vəziyyətini təsdiq etdikdən sonra sxemə gərginlik verilməsini təmin edin və çıxış LED-nin çıxış vəziyyətini elektrik açarının vəziyyətinə görə müşahidə edin və nəticələrə dair hesabatda Cədvəl 2-də qeyd edin. Buna baxmayaraq, "Off" (Sönülü) vəziyyətində "0" məntiq səviyyəsinə, "On" (Yanılı) vəziyyəti məntiq səviyyəsinə və LED yanılı olduqda "0" çıxışına malikdir.
4) Sinxron onluq (10) sayğac sxeminin məntiqi və doğruluq cədvəllərinin təcrübənin nəticələrinə uyğunluğunu yoxlayın.



Şəkil 15: Sinxron onluq sayğac sxemi

4. Təmizləmə və səliqəyə salma

- İş sahəsini təmizləyin.
- Avadanlıqları və ləvazimatları düzgün qaydada saxlayın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Bu modulu təcrübədə sınaqdan keçirdikdən sonra tələbə aşağıdakıları yerinə yetirdimi? 1. Asinxron / Sinxron onluq sayğaclar sxemini necə konfiqurasiya etməyi və ondan istifadə etməyi izah edə bildimi? 2. Asinxron / Sinxron onluq sayğaclar sxemini layihələndirə bildimi? 3. Asinxron / Sinxron onluq sayğaclar sxemini qura və ölçə bildimi? 4. Asinxron / Sinxron onluq sayğaclar sxeminin doğruluq cədvəllərini təyin edə bildimi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi.*

Təcrübənin nəticələrinə dair hesabat				
Təcrübənin adı	**Sayğac sxemi üzərində təcrübə**		Tarix	
Şöbə		Adı		

1. Təcrübə nəticələrinin cədvəli

Cədvəl 1: 10 asinxron sayğac sxeminin doğruluq cədvəli

Onluq	Çıxış			
	D4(2^4)	D3(2^2)	D2(2^1)	D1(2^0)
0				
1				
2				
3				
4				
5				
6				
7				
8				
9				

- Pin tapşırıqları və 7490, 7492 və 7493 inteqral sxemlərinin doğruluq cədvəlləri

Cədvəl 2: 10 sinxron sayğac sxeminin doğruluq cədvəli

Onluq	Çıxış			
	D4(2^4)	D3(2^2)	D2(2^1)	D1(2^0)
0				
1				
2				
3				
4				
5				
6				
7				
8				
9				

2. JK FF sxeminin məntiqi və doğruluq cədvəllərini təcrübənin nəticələrinə uyğunluğunu yoxlayın.

Sərişdə əsaslı modul

ELEKTRONİKA

Mikrokontroller



Sənaye və İnnovasiyalar üzrə
Bakı Dövlət Peşə Təhsil Mərkəzi

1. AVR seçimlərinin konfiqurasiyası

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. AVR mikrokontrollerin quruluşunu və prinsiplərini izah edə biləcək;
2. AVR kompilyatorundan istifadə edə biləcək;
3. Proqramın sadə quruluşuna uyğun şəkildə kodlaşdıra biləcək;
4. Funksiyanın sadə quruluşunu tərtib edəcək;
5. Proqramı AVR mikrokontrollerinə yükləyə biləcək.

Avadanlıq və Alətlər:

1. Kompüter və proqram təminatı
2. AVR proqramının əsas platası
3. USBISP modulu və ISP kabeli

Mövzu ilə əlaqəli biliklər:

1. Mikroprosessor və mikrokontroller arasında fərq

1) Mikroprosessor (MPU)

Mikroprosessorun quruluşu mərkəzi prosessor blokuna (MPB) müvafiq olan riyazi-məntiqi qurğudan (RMQ), registratordan, təlimatçı kod açan qurğudan və nəzarət blokundan ibarətdir. Sistem mikroprosessor vasitəsilə konfiqurasiya edildikdə sistemin bütün hissələrinin təkcə mikroprosessorla qurulması mümkün olmur. Aşağıdakı şəkil mikroprosessordan istifadə etməklə konfiqurasiya edilən elementləri göstərir.



Şəkil 1: Mikroprosessorun sistem konfiqurasiyası

Mikroprosessordan istifadə etməklə sistemin tətbiq edilməsi üçün mikroprosessoru işə salacaq proqram təminatının yazılması və yaradılmış proqramın yaddaşda saxlanması zəruridir. Bundan əlavə, yaddaşda saxlanılmış proqrama əmr verildikdə və icra edildikdə zəruri yaddaş müəyyən həcmə malik olmalıdır. Emal edilmiş nəticələrdən istifadə edərək xarici qurğunu işə salmaq və ya məlumatları kənara ötürmək üçün ötürücü qurğuya ehtiyac duyulur. Buna görə şəkildə göstərildiyi kimi, mikroprosessor FLEŞ (ROM) yaddaşa malikdir ki, bu yaddaş növü proqramın yaddaşda saxlanması, həcm, ROM yaddaşda proqramın oxunması və əməliyyatları yerinə yetirməsi üçün STGY (statik təsadüfi giriş yaddaşı) təqdim edir və emal olunmuş nəticələrin kənara ötürülməsi üçün PPİ (Proqramlaşdırıla bilən Periferik İnterfeys) tələb olunur. Mikroprosessor ona birləşdirilmiş şin vasitəsilə əməliyyatlara nəzarət etmək üçün bu imkanlara malik GD-nin (giriş dövrələri-

nin) mikroprosessordan kənarda yerləşdirilməsinə imkan verən prosessordur.

2) Mikrokontroller (MKV)

Mikrokontroller vahid GD-də yerləşən MPB-dan, ROM/ fleş yaddaş, STGY və PPİ funksiyalarından ibarətdir. Başqa sözlə, bu qurğu ayrıca periferik GD olmadan mikrokontrollerə enerji təchizatı yolu ilə arzu olunan əməliyyatın yerinə yetirilməsi üçün konfiqurasiya edilmiş MKV-nə istinad edir. Ölçüsündən, həcmindən və periferik qurğularının konfiqurasiyasından asılı olaraq, müxtəlif ölçülü çox sayda mikrokontrollerlər mövcuddur. Həmçinin qiymət periferik cihazın konfiqurasiyasından asılı olaraq dəyişir.

Mikrokontroller istifadəçiyə lazım olan funksiyaya uyğun olan MKV-ni seçə bilər. MKV istehsalçısı PPI-ni eyni funksiyalarla MPB-nin eyni nüvəsinə (RMB, registrator, təlimatçı kod açan qurğu və şin məntiqi) birləşdirməklə müxtəlif MKV-lar təqdim edir.



Şəkil 2: Mikrokontrollerin sistem konfiqurasiyası

Mikroprosessor və mikrokontroller arasındakı fərq ondan ibarətdir ki, mikrokontroller yaddaş və periferik qurğuları MPB-nun GD-də saxlayır, mikroprosessor isə MKB-nin GD-dan kənarda yerləşən şinin məntiqi sxeminə birləşdirilmiş yaddaş və periferik qurğulara malikdir.



Şəkil 3: Mikrokontrollerin konseptləri

Microprocessor – mikroprosessor
Timer – taymer
CPU core – MPB nüvəsi
Architecture – arxitektura
CPU peripherals – MPB periferik qurğuları
Controllers – kontrollerlər
RAM – TGY
PWM – PVM
ADS – ARÇ

Hal-hazırda mikroprosessorun nümunəvi GD-si kompüterdə istifadə olunan MPB-dur və yüksək sürətli məlumatları emal edən sistemlərin bir çoxu sistemi konfiqurasiya etmək üçün mikroprosessordan istifadə edir. Həmçinin xüsusi məqsədlər üçün hazırlanmış prosessorlar mövcuddur və səciyyəvi prosessor RSP-dur (Rəqəmsal Siqnal Prosessoru). Digər tərəfdən, mikrokontrollerlər, əsasən, nisbətən aşağı sürətə, kiçik həcmə və aşağı enerji sərfiyyatına malik sistemlərdə istifadə olunur və asanlıqla hazırlanan və aşağı məsrəfli tək çipdən ibarət olurlar.

2. AVR mikrokontrollerindən istifadə

ATMEL markalı AVR silsiləsi sənaye və tədris tətbiqlərində istifadə olunan 8-bit mikrokontrollerdir. AVR silsiləsi oxşar QƏDH (qısaldılmış əmrlər dəsti ilə hesablamalar) arxitekturasına malik (QƏDH şəkilli Arxitektura) aşağı-enerji sərfiyatlı 8-bitlik ƏMOY (əlavə metal-oksid yarımkeçiricisi) mikrokontrolleridir. AVR mikrokontrolleri silsiləsi proqramların saxlanması üçün daxili fleş yaddaşa (2K~128K bayt) malikdir və əməliyyat zamanı zəruri məlumatların saxlanması üçün EEPROM-a malikdir. Bundan əlavə, mikrokontrollerin daxilində açılış rejimi mövcuddur, beləliklə, proqramlar xüsusi proqram təminatı olmadan xarici rabitə vasitəsindən istifadə edərək fleş yaddaşda saxlana bilər.

1) ATmega128-in xüsusiyyətləri

- Yüksək performansa və aşağı enerji sərfiyatına malik 8-bit prosessor
- Qabaqcıl QƏDH quruluşu:
  - 133 güclü əmr (əsasən, tək saat dövriyyəsini icra edir)
  - Ümumi istifadə üçün nəzərdə tutulmuş 32*8 bitlik iş registratoru
  - 16MHz-da 16MIPS
- Məlumat və qeyri-dəyişkən yaddaş
  - 128K bit proqram həcmli daxili fleş yaddaş: 10,000 dəfədən çox yazılma/silinmə imkanı
  - Müstəqil kilid bitləri və seçici açılış kodu sahəsi: proqramın icrası zamanı çipdə yerləşdirilən açılış proqramı vasitəsilə ISP proqramlaşdırma
  - 4kB daxili STGY, 4K bitlik EEPROM (dözümlülük: 100,000 yazılma/silinmə dövriyyəsi)
  - 64K bitə qədər xarici fleş yaddaş həcmi
  - Proqram təminatının təhlükəsizliyi üçün proqramlaşdırma kilidi
  - Sistemdaxili proqramlaşdırma üçün SPI interfeysi
- JTAG (IEEE 1149.1 nömrəli standartına müvafiq) Interfeysi:
  - JTAG standartına uyğun periferik skan qabiliyyəti
  - Genişləndirilmiş çipdə nasazlıqların aradan qaldırılmasına dəstək – əlavə yaddaşın, EEPROM-un, birləşmələrin və kilid bitlərinin JTAG interfeysi ilə proqramlaşdırılması
- Periferik xüsusiyyətlər:
  - Ayrı ilkin tezlik bölücüsünə, müqayisə rejiminə və tutma rejiminə malik iki genişləndirilmiş 16-bitlik taymer/sayğac
  - Ayrı osilloqrafa malik real zaman sayğacı – iki 8-bit PVM kanalı
  - 2-16 bitlik proqramlaşdırıla bilən təsvir rejiminə malik 6 PVM kanalı
  - Çıxış müqayisə modulyatoru – 8-kanallı, 10-bitlik ARÇ
  - 8 təkçıxışlı kanal
  - 7 diferensial kanal
  - 1x, 10x və ya 200x sürətlə proqramlaşdırılma gücünə malik 2 diferensial kanal
  - Bit-yönümlü ikinaqilli silsilə interfeys
  - İkili proqramlaşdırıla bilən silsilə ÜSAQÖ-lər (ümumi sinxron asinxron qəbuledici və ötürücülər)

- Baş/xidməti SPİ
- Çip osilloqrafına malik proqramlaşdırıla bilən nəzarət taymeri
- Çip analoq müqayisə bloku

- Xüsusi funksiyalar:
  - Enerji axımının kəsilməsi ilə dayanan və proqramlaşdırıla bilən qismi elektrik kəsintisinin aşkar edilməsi
  - Daxili Kalibrasiya edilmiş həcm-rezistiv osilloqrafı – xarici və daxili kəsinti mənbələri
  - Altı gözləmə rejimi: boşdayanma, ARÇ səs azalması, enerjiyə qənaət, enerji ötürülməsinin dayanması, gözləmə və uzunmüddətli gözləmə
  - Proqram təminatı ilə seçilə bilən saat tezliyi

- G/Ç (I/ O) və proqram paketi:
  - 53 proqramlaşdırıla bilən G/Ç (I/ O) xətləri
  - 64-başlıqlı nazik QFT tipli korpus və 64-yastıqlı MQÇ (mikro qurğuşun çərçivə)
  - 64-lead TQFP and 64-pad MLF
- Enerji:
  - ATmega128L üçün 2.7V~5.5V
  - for ATmega128 üçün 4.5V~5.5V
- Saat:
  - for ATmega128L üçün 0~8MHz
  - for ATmega128 üçün 0~16MHz

2) ATmega128-in quruluşu

Şəkil 4 ATmega128 və daxili şinə qoşulmuş kontrollerlərin ümumi quruluşunu göstərən blok diaqramıdır.



Şəkil 4: ATmega128-in daxili quruluşu

Fleş yaddaş MKV-ya daxildir və istifadəçi tərəfindən yazılmış proqram daxili fleş yaddaşda saxlana bilər. Bundan əlavə, EEPROM MKV daxilində saxlana bilər ki, proqramın icrası zamanı yaddaşa ötürülməli olan göstəricilər az sayda əmrlərdən istifadə etməklə yaddaşda saxlana bilsin. İstifadə zamanı enerji təchizatı kəsilsə, tələb olunan göstəricilər saxlanacaq. Nəzarət taymeri funksiya işə salındıqda mikrokontrollerin əməliyyatına nəzarət edir və mikrokontroller təyin olunmuş müddət ərzində müvafiq şəkildə işləmədikdə sistemi təkrar işə salır (məsələn, nəzarət əmri bu müddət ərzində işə düşmədikdə). MKV xarici emulyatora qoşulmaq üçün sənaye standartı olan 4-naqilli giriş/çıxış nöqtəsinə, JTAG nöqtəsinə və xarici İSP-dən proqramlaşdırmaq üçün 3-naqilli giriş/çıxış nöqtəsinə malikdir.



Data bus – məlumat şini
Flash program memory – fleş proqram yaddaşı
Instruction register – təlimatların registratoru
Control lines – nəzarət sətirləri
Proqram counter – proqramın sayğacı
Status and control – status və nəzarət
General purpose registers – ümumi təyinatlı registratorlar
Data SRAM – Verilənlər STGY
Interrupt unit – kəsilmə bloku
SPI unit – SPİ bloku
Watchdog timer – nəzarət taymeri
Analog comprator – analoq komprator
I/O module – G/Ç modulu
I/O lines - G/Ç xətləri

Şəkil 5: ATmega128-in MPB-nin nüvə hissəsi

2) ATMEGA128-in yaddaşının quruluşu

Şəkil 6 (a) ATMEGA128-in yaddaşının quruluşunu göstərir. ATMEGA128 32 daxili registratora və 64 G / Ç registratoruna malikdir. ATMEGA128-in verilənlər yaddaşı G / Ç funksiyası üçün R0-dan R31-dək 32 ümumi registratordan, 0x00-dan 0x3F-dək 64 registratordan, verilənlərin saxlanması və toplanması sahəsi üçün STGY 0x60-dan 0x25F-dək 512 registratora malikdir.



(a) Verilənlər yaddaşının təsviri



Data memory – verilənlərin yaddaş həcmi
Registers – registratorlar
Internal SRAM – daxili STGY
External SRAM – xarici STGY
Pointer – göstərici
Application flash Section – tətbiqetmənin fleş bölməsi
Boot flash section – açılış rejiminin fleş bölməsi

(b) Registratorun təsviri



(c) Proqram yaddaşının təsviri

Şəkil 6: ATMEGA 128-in yaddaşının quruluşu

Şəkil 6 (b) ATMEGA128-in daxili registratorunun quruluşunu göstərir. (Şəkil 6) (c) proqram yaddaşının (fleş yaddaş) quruluşunu təsvir edir. Proqram yaddaşının hər hissəsi 16 bit quruluşa malikdir və yaddaş 16 bit x 64K=128K həcmə malikdir. Bundan əlavə, açılış yaddaşının sahəsi və proqramın yaddaş sahəsi ayrılmış olduğu üçün, İSP funksiyasından istifadə edərək proqramlaşdırmaq mümkündür.

1) ATMEGA 128-in ümumi görünüşü

ATmega128 ümumilikdə 64 rezonator sisteminə və 53 proqramlaşdırıla bilən G / Ç nöqtəsinə malikdir. [Şəkil 7] ATmega128-in ümumi görünüşünü təqdim edir.



Şəkil 7: ATmega128-in ümumi görünüşü

Rezonator sisteminin təsviri

- VCC[21, 52]: Rəqəmsal təchizat voltajı.
- GND[22, 53]: Torpaqlama.
- Port A (PA7..PA0)[51~44]: Port A (hər bit üçün seçilmiş) daxili yükləmə rezistorlarına malik 8-bitlik iki istiqamətli G/ Ç (I/O) portudur.
- Port B (PB7..PB0)[10~17]: Port B (hər bit üçün seçilmiş) daxili yükləmə rezistorlarına malik 8-bit iki istiqamətli G/ Ç (I/O) portudur.
- Port C (PC7..PC0)[35~42]: Port (hər bit üçün seçilmiş) daxili yükləmə rezistorlarına malik 8-bit iki istiqamətli G/ Ç (I/O) portudur.
- Port D (PD7..PD0)[25~32]: Port D (hər bit üçün seçilmiş) daxili yükləmə rezistorlarına

malik 8-bit iki istiqamətli G/ Ç (I/O) portudur.

- Port E (PE7..PE0)[2~9]: Port E (hər bit üçün seçilmiş) daxili yükləmə rezistorlarına malik 8-bit iki istiqamətli G/ Ç (I/O) portudur.
- Port F (PF7..PF0)[61~54]: Port F A/R (A/D) konverterə analoq girişlər qismində xidmət edir. Port F həm də A/R (A/D) açar istifadə olunmadıqda 8-bit iki istiqamətli G/ Ç (I/O) portu qismində xidmət edir. Portun rezonator sistemləri daxili yükləmə rezistorları təqdim edə bilər (hər bit üçün seçilmiş).
  - TGP (test giriş portu) yüksək registora keçid verilənlərinin daxil edildiyini göstərməzsə, TVÇ (test verilənlərin çıxışı) rezonator sistemi üç vəziyyətdə olur. Port F həm də JTAG interfeysinin funksiyalarını yerinə yetirir.
  - ATmega103-un uyğunluq rejimində Port F yalnız giriş portu olur.
  - Port G (PG4..PG0)[33, 34, 43, 18, 19]: Port G daxili yükləmə rezistorlarına malik (hər bit üçün seçilmiş) 5-bit iki istiqamətli G/Ç (I/ O) portudur.
  - [20]: Sıfırlama. Saat işə salınmadıqda belə, minimum nəbz müddətindən daha uzun müddətdə bu rezonator sistemində aşağı səviyyənin olması vəziyyəti sıfırlayacaq.
  - XTAL1[24]: Osilloqrafın gücləndiricisinin əks çevrilməsi üçün giriş və daxili saatla işləyən dövrənin girişi.
  - XTAL2[23]: Tərs açar osilloqrafın gücləndiricisinin çıxışı.
  - AVCC[64]: ƏPİNAV (əməliyyatların paralel icrasına nəzarətin alternativ versiyası) Port F və A/R (A/D) konverter üçün VCC voltaj təchizatının rezonator sistemidir. O, xaricdən aşağı tezlikli filter vasitəsilə ƏPİNV-a qoşulmalıdır.
  - AREF[62]: AREF A/R (A/D) açar üçün analoq istinad rezonator sistemidir.
  - [1]: PEN proqramlaşdırmanı mümkün edən SPİ silsilə proqramlaşdırma rejimi üçün rezonator sistemidir və yüksək daxili yüklənməyə malikdir. Enerji təchizatının kəsilməsi zamanı bu rezonator sistemini aşağı səviyyədə saxladıqda, cihaz SPİ silsilə proqramlaşdırma rejiminə daxil olur. PEN normal fəaliyyət zamanı heç bir funksiyaya malik olmur.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Elektrikin qütblü birləşmələrini nəzərə alın.
2. Proqramın yüklənmə statusunu yoxlayın.

Təcrübə mərhələləri

1. ATmega 128-dən istifadə etməklə inkişaf mühitinin qurulması

1) ATmega128 inkişaf platası
   Atmel-in ATmega128 mikrokontroller platası və dövrə diaqramı hazırlanmalıdır, sadə nəzarət metodu öyrənilməli və ATmega128 platasına tətbiq edilməlidir. Həmçinin ATmega 128 daxilindəki kontrolleri başa düşmək və nəzarət etmək vacibdir.
   AM-128PRO MKV müxtəlif modullara qoşularaq ATMega 128 kimi təkmilləşdirilə biləcək moduldur. ATMega 128-in bütün portları (PORT A-PORT F) 10 rezonator sistemi konnektoruna qoşulub. Bundan əlavə, modulun nazaslıqları AM-128PRO daxilinə quraşdırılmış silsilə port, 7-seqmentli rəqəmli kod, 12 V xarici elektrik təchizatı və daxili əməliyyat üçün 5V tək elektrik təchizatı vasitəsilə aradan qaldırıla bilər.
2) İSP (Sistem proqramında)
